RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 230 (9685) 19 oktyabr 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# BTC, CQBK, BTQ, TANAP, indi də "yaşıl enerji" dəhlizi...

## Bunlar Azərbaycanı və Gürcüstanı bir-birinə daha sıx bağlayır

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin 1768 kilometrlik yolunun bir hissəsi bu ölkədən keçir və uğurla fəaliyyət göstərir. 2004-cü ilin oktyabrında kəmərin Azərbaycan və Gürcüstan hissələri birləşdirilərkən Prezident İlham Əliyev demişdir: "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi həm Azərbaycan üçün, həm Gürcüstan üçün, həm də bütün region üçün çox vacibdir. Bu, ölkəmizə yeni imkanlar yaradacaqdır, xalqlarımız üçün yeni şəraitin yaradılmasını təmin edəcəkdir. Əlbəttə ki, bu, ölkələrimizə böyük həcmdə maliyyə vəsaitinin cəlb olunmasına gətirib çıxaracaqdır. Eyni zamanda bu iqtisadi məsələlərlə yanaşı, regional təhlükəsizlik məsələlərinə də layihə öz töhfəsini verəcəkdir".

İndi bunlar bir reallıqdır. BTC özündən sonra daha neçə-neçə layihəyə yol açıb. Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəməri başlanğıcını Səngəçal terminalından götürərək Türkiyə sərhədinədək Azərbaycanda və Gürcüstanda BTC ilə eyni marşrut boyu uzanır. BTƏ-nin ayrılmaz hissəsi olan Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) ümumi uzunluğu 691 kilometrdir. O, Azərbaycanda 443, Gürcüstanda 248 kilometr məsafə qət edir. Gürcüstan-Türkiyə sərhədində CQBK-yə 280 kilometrlik boru kəməri qoşulur ki, bununla Azərbaycan qazı Ərzuruma çatdırılır. Səngəçal-Ərzurum marşrutu ilə uzanan bu xətt bütövlükdə Bakı-Tbilisi-Ərzurum kəməri adlanır. Qeyd edək ki, CQBK Azərbaycan qazını Gürcüstana 2006-cı ildə çatdırıb.

"Cənub qaz dəhlizi"nin təməlini də əslində elə BTƏ yaradıb. Azərbaycandan İtaliya torpağınadək 3500 kilometrlik məsafə boyu uzanan, üç kəmərdən ibarət olan və indi artıq yeni interkonnektorlarla şaxələnən bu dəhlizin bir seqmenti də genişləndirilmiş CQBK-dir.

Bu gün Azərbaycan 10-dək ölkəyə qaz ixrac edir. Bu mavi yanacağın dünyaya yolu Gürcüstandan keçir. Yaxın gələcəkdə bu ölkələrin sayı artacaq, çünki Azərbaycanın enerji resurslarına olan tələbat ildən-ilə çoxalır. Əlbəttə, bizim həm resurslarımız, həm sərmayə qoymaq üçün maliyyə vəsaitimiz var və Gürcüstan kimi etibarlı dostumuz var ki, tranzit imkanlarımız genişlənsin. Belə olan halda enerji layihələrimiz bundan sonra da bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edəcək və burada Gürcüstanla Azərbaycan yenə də etibarlı tərəfdaş kimi çıxış edəcəklər.

Bakı-Tbilisi-Qars dəmir yolunun polad magistralları iki ölkə arasında əməkdaşlıq və tərəfdaşlığı daha da möhkəmləndirib. Bu birgə layihəmizin əhəmiyyəti getdikcə artır. Çin və Mərkəzi Asiya ölkələrindən quru yolla daşınan yüklərin ən qısa müddətdə Avropaya çatdırılmasında BTQ dəmir yolu xəttinin əhəmiyyəti olduqca böyükdür. Asiyadan gələn yüklərin Azərbaycan üzərindən biraşırımlı əməliyyatla Avropaya daha sürətli çatdırılması BTQ-nin regional nəqliyyat şəbəkəsindəki əhəmiyyətini daha da önə çıxarır.

→ 5

# Birinci vitse-prezident Mehriban Əliyeva Müstəqilliyin Bərpası Günü ilə bağlı paylaşım edib




Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi sosial şəbəkə səhifələrində Müstəqilliyin Bərpası Günü ilə bağlı foto paylaşıb.

# Baydenin biabırçı mirası uzun illər ABŞ-nin üzərində damğa olacaq

İlk növbədə qeyd olunmalıdır ki, ABŞ 2020-ci ilədək qismən örtülü apardığı ermənipərəst siyasətini Azərbaycanın Vətən müharibəsində qələbəsindən və öz ərazi bütövlüyünü bərpa etdikdən sonra aşkar formada və daha böyük hücumlarla həyata keçirməyə başlayıb. Antiazərbaycançı savaşın əsas səngəri isə onun mediası, xüsusən də "Ağ Ev"in xidmətində olan "Washington Post" nəşridir. Demokrat Partiyasının ruporu, təzyiq aləti olan, onların yalanlarını, şər və təhqirlərini yayan bu nəşr barədə ancaq mənfiyönümlü məlumatlara rast gəlinir. ABŞ-nin sabiq prezidenti D.Trampdan tutmuş bu ölkənin senator, konqresmen, qubernatorunadək minlərlə insan "Washington Post"u feyk xəbərlərin mənbəyi hesab edir.




Yalan, təhqir, dezinformasiya materialları çap etməkdə ixtisaslaşan "Washington Post"da bu tipli sifarişli yazılar adətən ABŞ Dövlət Departamentində hazırlanır. Elə bu yaxınlarda 60 konqresmenin adından Dövlət katibi Blinkenə ünvanlanmış müraciət də Dövlət Departamentinin hazırlayıb öz-özünə göndərdiyi müraciətdir. Bu məqalələr, müraciətlər COP29 ərəfəsində ABŞ-nin Azərbaycana qarşı açdığı informasiya müharibəsinin tərkib hissəsidir.

Məqalənin qısa şərhini verək. "Washington Post"un hədəfində həm Azərbaycan dövləti, həm də beynəlxalq ictimaiyyət var.

Azərbaycan nədə ittiham olunur?

"Dağlıq Qarabağ anklavını ələ keçirərək, etnik erməni əhalisini öz yurdlarından didərgin salmaqda".

"Dağlıq Qarabağda ermənilərin hüquqi, siyasi və mülki institutlarını məhv etməkdə".

"ABŞ-nin 60 konqresmeninin etnik ermənilərin, girovların və hərbi əsirlərin dərhal və qeyd-şərtsiz azad edilməsi çağırışını "iyrənc" adlandırmaqda".

"23 tanınmış erməni siyasi xadimini Azərbaycanda hələ də həbsdə saxlamaqda".

"Bütün tələblərə baxmayaraq, R.Vardanyanı həbsdən azad etməməkdə".

→ 2

# "Dəyərli qardaşım İlham Əliyevə, bütün Azərbaycan xalqına salamlarımı və sevgimi çatdırıram"

## Türkiyə Prezidenti xalqımızı Müstəqilliyin Bərpası Günü münasibətilə təbrik edib

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan xalqımızı Müstəqilliyin Bərpası Günü münasibətilə təbrik edib.**



AZƏRTAC xəbər verir ki, Prezident Rəcəb Tayyib Ərdoğan bununla bağlı "X" sosial şəbəkə hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Dostumuz, qardaşımız, "iki dövlət, bir millət" anlayışına sahib olduğumuz Azərbaycanın 18 Oktyabr - Müstəqilliyin Bərpası Gününü təbrik edirəm. Prezident və dəyərli qardaşım İlham Əliyevə, bütün Azərbaycan xalqına salamlarımı və sevgimi çatdırıram".

# Cəbrayılda yeni dövran, xoşbəxt həyat başlayıb

## "İlham Əliyev torpaqlarımızı azad edib bizə cənnət yaratdı"

Xalqımızdan, dövlətimizdən çox razıyam. 30 il dövlət qayğımıza qaldı. Çörəyimizi, suyumuzu verdi. Ata 18 yaşına çatan övladını ayırır ki, get, özünə həyat qur, müstəqil yaşa. Amma dövlət bizə bunu etmədi, axıra kimi yanımızda oldu...

Müzəffər Ali Baş Komandan İlham Əliyev torpaqlarımızı azad edib bizə yeni cənnət yaratdı. Həyatım boyu mən belə rahatlıq görməmişdim. Allah bu torpaqları düşməndən azad edən balaları qorusun. Allah şəhidlərimizə rəhmət etsin. Allah Qarabağı ağbəxtli edən Prezidentimizi bizə çox görməsin. Bu cür şərait, gözəllik görmək özü bir xoşbəxtlikdir. Bunu da dövlətimiz, Prezidentimiz bizə hədiyyə etdi.

Var olsun qüdrətli Azərbaycan dövləti! Çox sağ olsun Prezidentimiz! Bundan sonra Cəbrayılda xoşbəxt, firavan həyatımız başlayır. Ömrümüz boyu cənab İlham Əliyevə duaçı olacağıq, onun siyasətini dəstəkləyəcəyik.

→ 6



# Azərbaycanın sülh şərtləri dəyişməzdir

Ermənistan rəsmiləri yalnız özlərinin başa düşdükləri irrasional yanaşmaları ilə sülh prosesini əngəlləməklə məşğuldurlar. Aydın olan odur ki, İrəvanın sülh sazişinin öz maraqlarına uyğun şəkildə imzalanmasına cəhd göstərməkdə məqsədi odur ki, gələcəkdə Azərbaycana qarşı ərazi iddialarını davam etdirə bilsin.

Ümumiyyətlə isə Ermənistan rəsmilərinin hər bir açıqlamalarının mərkəzində məkr, reallıqları təhrif etmək dayanır ki, bütün bunlar da sülh prosesinin inkişaf etdirilməsinə əhəmiyyətli dərəcədə mane olur. Ermənistanın baş naziri Nikol Paşinyanın oktyabrın 12-də "Sülh qovşağı: təhlükəsizlik və demokratiyanın vəhdəti" adlı forumda çıxışında 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla bağlı səsləndirdiyi iddialar, reallıqları təhrif etmək cəhdləri bir daha bunu təsdiqləyir. Məsələyə münasibət bildirən Azərbaycanın Xarici İşlər Nazirliyi respublikamızın tarixi və beynəlxalq hüquqi çərçivədə mövcud olan ərazilərinə qarşı əsassız iddialarından, tarixin saxtalaşdırılmasından əl çəkməyən, beynəlxalq hüquq prinsiplərini kobudcasına pozan, yürütdüyü təcavüz siyasəti səbəbindən düşdüyü vəziyyətdən nəticə çıxarmayan Ermənistan rəhbərliyini heç bir çərçivəyə sığmayan, reallıqları təhrif edən və nəticə etibarilə beynəlxalq ictimaiyyəti yanıltmağa yönələn açıqlamalardan çəkinməyə çağırıb.

Görünən odur ki, sülh üçün yaranmış əlverişli şəraitdən istifadə etməyən Ermənistan münasibətlərin normallaşdırılmasına xidmət etməyən sülh oyunbazlığı ilə məşğuldur. Bundan itirən isə yalnız Ermənistanın özü olacaq.

→ 5

# Azərbaycan energetiklərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Energetika sahəsinin inkişafında səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Xəlilov Sahib Hacıbala oğlu
Nəsirov Tahir İsa oğlu
Rzayev Oqtay Bahadur oğlu
Sadıqov Nadir Ağa Cəfər oğlu
Süleymanov Fəzayıl İmaməli oğlu

**"Tərəqqi" medalı ilə**

Cəfərov Namiq Ağamusa oğlu
Dadaşov Elçin Zavir oğlu
Eyvazov Zal Eyvaz oğlu
Əkbərov Azər Adil oğlu
Əliyeva Səbinə Əliyəddin qızı
Hüseynova Bəturə Nurəddin qızı
İskəndərov Mayıl Xizri oğlu
İsmayılov Ariz Balaqardaş oğlu
Qasımov Nemət Xankişi oğlu
Mahmudov Elmar Nadir oğlu
Məmmədov Elşən Paşa oğlu
Məmmədzadə Araz Bəxtiyar oğlu
Mirzə Ağayev Fərid İsmayıl oğlu
Nuriyev Elbrus Zakir oğlu
Pənahov Bəhram Nəsir oğlu
Rəfiyev Adil Mirzə oğlu
Rzayev Bəşir İsmayıl oğlu
Sadıqov Sadiq Yusif oğlu
Səfərov Taleh Rəsul oğlu
Vəliyev Ramiz Zirəddin oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2024-cü il*

# Energetika naziri Göygöldə vətəndaşlarla görüşüb



Energetika naziri Pərviz Şahbazov Göygöl şəhərində vətəndaşlarla görüşüb. AZƏRTAC Energetika Nazirliyinin yaydığı məlumata istinadən xəbər verir ki, nazirliyin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların elektrik enerjisi və qaz təchizatı, şəbəkəyə qoşulma, elektrik qurğu və avadanlıqlarının mühafizə zonası və digər məzmunlu müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib.

Qəbulda Gəncə, Goranboy və Tovuz rayonlarından olan 15 vətəndaş iştirak edib.

# Müstəqilliyin Bərpası Günü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib

18 Oktyabr - Müstəqilliyin Bərpası Günü münasibətilə Azərbaycan Ordusunun birlik, birləşmə və hərbi hissələrində, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, suverenliyi uğrunda şəhid olan Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurulmasında və inkişafında müstəsna xidmətlərindən, müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində apardığı müdrik siyasətdən danışıblar. Ümummilli Liderin strateji kursunun hazırda onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi xüsusi vurğulanıb. Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən və qətiyyətli siyasəti sayəsində Azərbaycanın hüququn aliliyi, demokratiya və dünyəvilik prinsipləri üzərində qurulmuş müstəqil dövlət kimi öz inkişafının ən parlaq dövrünü yaşadığı diqqətə çatdırılıb.

Keçirilən tədbirlər zamanı vətənpərvərlik mövzusunda sənədli filmlər və bədii kompozisiyalar təqdim edilib, şəhidlərimizin məzarları və tarixi muzeylər ziyarət olunub.

# Müdafiə Nazirliyinin hərbi hüquqşünaslarından ibarət nümayəndə heyəti Türkiyədə səfərdədir

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi hüquqşünaslarından ibarət nümayəndə heyəti Türkiyəyə işgüzar səfər edib.

Bu barədə AZƏRTAC-a nazirliyin Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hüquq İdarəsinin rəisi ədliyyə polkovniki Elçin Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikası milli müdafiə nazirinin müavini Şuay Alpay ilə görüşüb. Görüşdə silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normaları, əməliyyatların aparılması və əxlaqi dəyərlərin gücləndirilməsinə hüququn inteqrasiyası və maraq doğuran bir sıra digər mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb. Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti, həmçinin Türkiyə Respublikası Milli Müdafiə Nazirliyinin Hüquq Xidmətləri Baş İdarəsində Hüquq fakültəsi üzrə zabitlərin peşə təhsilinin başa çatması münasibətilə keçirilən tədbirdə iştirak edib. Buraxılış mərasimində çıxış edənlər məzunları təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıblar.

Ş.Alpay Azərbaycan nümayəndə heyətini 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü münasibətilə təbrik edib. Sonda təhsilini uğurla başa vuran Azərbaycan Ordusunun hərbi qulluqçusuna və digər məzunlara sertifikatlar təqdim olunub.

# Azərbaycan və İtaliya arasında hərbi sahədə əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə İtaliya Respublikasının Baş Qərargahı arasında 2024-cü il üçün imzalanmış ikitərəfli əməkdaşlıq Planı"na əsasən, Bakı şəhərində "Qərargah danışıqları" keçirilib.



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində keçirilən görüşdə ölkələr arasında güclənən əlaqələrin hərb sahəsinə də müsbət təsirinin olduğu qeyd edilib.

Cari dövrdə həm regional, həm də beynəlxalq təhlükəsizliyin önəmindən danışan tərəflər dünyada sülhün təmin olunması üçün birgə çalışmağın əhəmiyyətini vurğulayıblar. Azərbaycan və İtaliyanın hərb sahəsində qurulan əlaqələrinin cari vəziyyəti və inkişaf perspektivləri ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb. Hərbi-texniki, hərbi təhsil sahələri üzrə əməkdaşlıq fəaliyyətləri təhlil olunub. Təqdim olunan brifinqlərdən sonra qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.

Görüşün sonunda protokollar imzalanıb.

# Baydenin biabırçı mirası uzun illər ABŞ-nin üzərində damğa olacaq

**"Washington Post" nəşrində 16 oktyabr tarixində dərc olunmuş "Daha bir nəhəng iqlim konfransı despotik rejimə kömək edir" başlıqlı məqalədə Azərbaycana qarşı yalan, şər və böhtan xarakterli iddialar səsləndirilib. Bu iddialara cavab xarakteri daşıyan hazırkı məqalədə ABŞ-nin özünün despotik, qaniçən simasını nümayiş etdirmək, onun Azərbaycana qarşı apardığı qarayaxma kampaniyasının arxasında hansı səbəblərin dayandığını göstərəcəyik.**



İlk növbədə qeyd olunmalıdır ki, ABŞ 2020-ci ilədək qismən örtülü apardığı ermənipərəst siyasətini Azərbaycanın Vətən müharibəsində qələbəsindən və öz ərazi bütövlüyünü bərpa etdikdən sonra aşkar formada və daha böyük hücumlarla həyata keçirməyə başlayıb. Antiazərbaycançı savaşın əsas səngəri isə onun mediası, xüsusən də "Ağ Ev"in xidmətində olan "Washington Post" nəşridir. Demokrat Partiyasının ruporu, təzyiq aləti olan, onların yalanlarını, şər və təhqirlərini yayan bu nəşr barədə ancaq mənfiyönümlü məlumatlara rast gəlinir. ABŞ-nin sabiq prezidenti D.Trampdan tutmuş bu ölkənin senator, konqresmen, qubernatorunadək minlərlə insan "Washington Post"u feyk xəbərlərin mənbəyi hesab edir.

Yalan, təhqir, dezinformasiya materialları çap etməkdə ixtisaslaşan "Washington Post"da bu tipli sifarişli yazılar adətən ABŞ Dövlət Departamentində hazırlanır. Elə bu yaxınlarda 60 konqresmenin adından Dövlət katibi Blinkenə ünvanlanmış müraciət də Dövlət Departamentinin hazırlayıb özü-özünə göndərdiyi müraciətdir. Bu məqalələr, müraciətlər COP29 ərəfəsində ABŞ-nin Azərbaycana qarşı açdığı informasiya müharibəsinin tərkib hissəsidir.

Məqalənin qısa şərhini verək. "Washington Post"un hədəfində həm Azərbaycan dövləti, həm də beynəlxalq ictimaiyyət var.

Azərbaycan nədə ittiham olunur?

"Dağlıq Qarabağ anklavını ələ keçirərək, etnik erməni əhalisini öz yurdlarından didərgin salmaqda".

"Dağlıq Qarabağda ermənilərin hüquqi, siyasi və mülki institutlarını məhv etməkdə".

"ABŞ-nin 60 konqresmeninin etnik ermənilərin, girovların və hərbi əsirlərin dərhal və qeyd-şərtsiz azad edilməsi çağırışını "iyrənc" adlandırmaqda".

"23 tanınmış erməni siyasi xadimini Azərbaycanda hələ də həbsdə saxlamaqda".

"Bütün tələblərə baxmayaraq, R.Vardanyanı həbsdən azad etməməkdə".

Bir sözlə, əsas sual odur ki, nəyə görə Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Bu, Ağ Evi, Dövlət Departamentini o qədər qıcıqlandırır və narahat edir ki, açıq düşmənçilik nümayiş etdirməkdən belə çəkinmirlər.

Azərbaycana qarşı bu tipli yazıları sifariş verən digər mənbə erməni lobbisidir. Məsələn, dünya üzrə müxtəlif təsisatlarda olduğu kimi, "Washington Post"un redaksiyasında da xeyli erməni jurnalist çalışır. Onlardan biri David İqnatius vaxtilə Davosda Türkiyə prezidenti R.T.Ərdoğan və İsrail prezidenti Ş.Peres arasında qarşıdurmanı alovlandıran şəxs kimi yaddaşlarda qalıb.

Azərbaycana qarşı şər kampaniyasında bir-birini tamamlayan maraqlar şəbəkəsində hazırda Azərbaycanda həbsdə olan R.Vardanyan ailəsinin də xüsusi yeri var. Bayden administrasiyasının, Demokrat Partiyasının sevimli simalarından olan USAİD-in rəhbəri Samanta Pauer həm də separatçı və cinayətkar Ruben Vardanyanın təəssübkeşlərindən biridir. B.Obamanın ilk prezidentlik dövründə işindən qovulan və himayədarı Ruben Vardanyan tərəfindən həmtəsisçisi olduğu "Avrora" humanitar fondunun münsiflər heyətinə seçilən Samanta Pauer daim erməni lobbisinin təsirində olub. Uzun müddət İrəvanda yaşayan bu adam daim beynəlxalq tədbirlərdə saxta "erməni soyqırımı"nı təbliğ edib. Missiyası "Amerika xalqından dünyaya yardım" kimi bəyan edilən USAİD son bir neçə ildə Ermənistana təxminən 3,3 milyard dollar ayırıb və hazırda 22 layihə üzrə dəstək davam edir.

Ruben Vardanyanın biznes ortağı, "Avrora" fondunun təsisçilərindən olan erməni milyarder Nubar Afeyan da erməni diasporunu Azərbaycana qarşı fəaliyyətə səfərbər edən şəxslərdən biridir. Nə "təsadüf"dürsə, bu şəxsin də rəhbərlik etdiyi "Moderna" şirkəti vasitəsilə "Washington Post"la uzun illərə söykənən əməkdaşlığı var. Nubar Afeyan özü etiraf edir ki, BMT nümayəndələri ilə görüşərək, onlardan COP29-un təxirə salınmasını istəyib. Həmçinin onu da gizlətmir ki, xeyli jurnalist və hüquq müdafiəçisinin COP29-a qatılmasına mane olmaq üçün vəsait xərcləyir.

Əlbəttə, "Washington Post"un cəfəng boşboğazlığına əhəmiyyət verməmək də olardı. Ancaq məsələnin maraqlı tərəfi odur ki, bu gün bütün dünya ABŞ-nin siyasətini qınadığı, bu ölkədə keçirilən seçki prosesi planetin hər bir yerində parodiya mənbəyinə çevrildiyi, prezident Bayden isə öz sərgüzəştləri ilə dillər əzbəri olduğu bir zamanda onlar "şüşəli evdə" oturub gələn-gedənə daş atmaqda davam edirlər.

Baydendən soruşulsa, bəlkə də Azərbaycan adlı dövlətin mövcudluğunu da xatırlamaz. Nəinki dövlətinin siyasətini, heç atdığı addımı da özü müəyyənləşdirmir. Onun qoluna girirlər, "iki addım sağa, bir addım sola dön, bu kağızdakı sözləri oxu" deyirlər. Onu L.Brejnevə bənzətmək istəsək, böyük ədalətsizlik olar. Leonid İliç hər halda amerikalı həmkarından daha canlı, daha sağlam, daha ağlıbaşında idi.

4 illik prezidentlik dövrünün 2 ilini okean sahillərində istirahətdə keçirən Bayden digər 2 ilini də dünyanı qarışdırmağa sərf edib. Tarixin onun anlaqsızlığını, hava ilə salamlaşdığını necə xatırlayacağını indidən demək olmaz, ancaq ölkələri və xalqları məhvə sürükləyən qaniçən siyasəti, despotik addımları heç zaman unudulmayacaq. Baydenin adı ilə bağlı olan biabırçı miras hələ uzun illər Amerikanı təqib edəcək və onun üçün rəzil damğaya çevriləcək.

Əli İraqda, Liviyada, Suriyada və digər qaynar bölgələrdə axan qana batan Bayden bu gün Qəzzada, Livanda baş verənlərin əsas məsul şəxsidir. O və administrasiyası müxtəlif ölkələrdə vətəndaş qarşıdurması yaradıb, minlərlə insanın həyatına son qoyub, ölkələri dağıdıb, sonra Əfqanıstanda olduğu kimi, taleyin ümidinə buraxıb qaçıblar. Əhalisinin yarıdan çoxunun miqranta çevrildiyi, həlak olduğu Ukrayna dövlətini və xalqını məhvə sürükləyən də məhz Bayden və onun administrasiyasıdır. Yəqin ki, bir neçə ay sonra Ukraynanı da Əfqanıstan kimi taleyin ümidinə buraxıb qaçacaqlar.

Bəs Bayden necə oldu ki, prezident seçildi? ABŞ "demokratiyası"nın və "ədalətli seçki təcrübəsi"nin onilliklərə əsaslanan bu "nailiyyətini" sonuncu dəfə 4 il öncə gördük. Səsvermə məntəqələrində, seçici bülletenlərində qalib gələn D.Tramp poçtla göndərilən, mənşəyi və mənbəyi naməlum "səs"lərlə məğlub edildi. ABŞ-nin son üç onillikdə ən böyük iqtisadi artımına nail olan və kifayət qədər böyük elektorat qazanmış namizəd öz vətəndaşları tərəfindən "sarsaq qoca" adlandırılan siyasi marionetə uduzduruldu.

Dünyanın ən qalmaqallı seçki qaydalarına və ən qaranlıq seçki təcrübəsinə malik ABŞ-də əsas kimin səs verməsi deyil, əsas məsələ sistemin qutusundan kimin çıxmasıdır. ABŞ "demokratiya"sı məhz budur.

ABŞ-nin idarəçilik sistemi indi "arzuedilməz namizəd"in siyasi nüfuzunu yox, birbaşa həyatını hədəfə götürüb. İnformasiya terroru, bütün hüquq sisteminin hücumu, ard-arda məhkəmələr fayda vermədi və sonda fiziki terror vasitələri işə düşdü. D.Tramp ona qarşı törədilən hər üç terror cəhdinin arxasında Ağ Evin qara planlarının dayandığını bildirir və bunu faktlarla sübut edir. Kosmosdan Marian çökəkliyinədək hər yeri nəzarətdə saxlayan ABŞ-nin təhlükəsizlik strukturlarının, istintaq orqanlarının iki ay ərzində törədilən 3 terror hadisəsinin sifarişçilərini hələ də "müəyyənləşdirə" bilməməsi Trampın ehtimallarının real fakt olduğunu təsdiqləyir. Üstəlik, birinci sui-qəsddən sonra ABŞ Məxfi Xidmətinin rəhbəri xanım Kimberli Çitlin Nümayəndələr palatasının Nəzarət Komitəsinin keçirdiyi dinləmələrdə müəmmalı çıxışından sonra qanunvericilərin onu istefaya çağırması və xanımın növbəti gün istefa verməsi məsələnin arxasında çox ciddi məqamların durduğunu deməyə tam əsas yaradır.

ABŞ-də seçkiləri nə qədər saxtalaşdırsalar da, Baydenlə qələbənin mümkünsüzlüyünü anlayan sistem ortaya Kamala Harrisi çıxarmaqla "saray çevrilişi"ndən belə çəkinmədi. Harris partiyadaxili ilkin seçilərdə belə iştirak etmədi, bu prosesə qatılsaydı, yəqin, heç ilk beşliyə belə düşməyəcəkdi.

Azərbaycana qarşı hücumların əsas mövzularından biri də COP29-la bağlıdır. Bakı məlum sammitə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının üzvü olan 198 ölkənin rəyi ilə, elə ABŞ-nin da öz razılığı ilə evsahibliyi edəcək. Bir neçə gün öncə ABŞ Prezidentinin Beynəlxalq İqlim Siyasəti üzrə baş müşaviri Con Podestanın Prezident İlham Əliyevin qəbulunda olarkən Azərbaycanın COP29-a hazırlığını yüksək qiymətləndirmişdi və qeyd etmişdi ki, hazırlıq üçün vaxtın az olmasına baxmayaraq, Azərbaycan heyəti tərəfindən yüksək peşəkarlıq nümayiş etdirilir.

İstənilən ölkəyə, şirkətə, şəxsə qarşı çirkin qarayaxma kampaniyasında öndə gedən "Washington Post" isə hesab edir ki, Azərbaycan neft ölkəsi olduğundan, iqlimə, ətraf mühitə zərər verdiyindən COP-a evsahibliyi edə bilməz. Bu gülünc iddianın maraqlı məqamı indan ibarətdir ki, bunu neft və qaz hasilatını günü-gündən genişləndirən, iqlimi ən çox çirkləndirən, amma bu problemin həllinə ən az vəsait ayıran dövlətin əsas ruporu səsləndirir.

Faktlara nəzər salaq. Ötən il ABŞ gündə 13.1-13.3 milyon barrel neft hasil edib. Nəzərə alsaq ki, bu ölkə qaz hasilatı sahəsində dünyada lider mövqelərdədir, onun ekologiyanın çirkləndirilməsi və qlobal istiləşmədə nə dərəcədə yüksək payı olduğu aydın görünür. 2023-cü ildə ABŞ 86 milyon ton sıxlaşdırılmış qaz ixrac edib ki, bu da onun dünyada 1-ci yerdə qərarlaşdığını göstərir. İstər OPEK, istərsə də BP kimi enerji nəhənglərinin araşdırmalarında Amerika təbii qaz hasilatı sahəsində neçə illərdir siyahıya liderlik edir. 2024-cü ilin məlumatına görə, Azərbaycanın karbohidrogen hasilatından dünya üzrə karbon emissiyası cəmi 0.01 faizdir. ABŞ-də isə karbon emissiyası ümumdünya göstəricisinin 14.4 faizini təşkil edir. ABŞ 27 Avropa İttifaqı ölkəsindən (cəmi 4.9 faiz) 3 dəfə çox karbon emissiya edir. ABŞ ekologiyaya Azərbaycandan 1440 dəfə çox ziyan vurur!

İndi Azərbaycana qarşı belə hədsiz ittiham səsləndirmək əlbəttə ki, nadanın həyasız cəsarətidir! Ümumiyyətlə, ABŞ ekologiya, eləcə də demokratiya, insan hüquqları baxımından Azərbaycana irad bildirəcək, yaxud məsləhət verəcək ən sonuncu ölkədir!

Azərbaycanın evsahibliyi etdiyi bütün mühüm tədbirlər - Avroviziya, Avropa Oyunları, İslam Oyunları, Formula 1 yarışları ərəfəsində də şər, böhtan kampaniyaları həyata keçirilib, amma onların heç bir təsiri olmayıb. Necə ki, bu rəzil isterikanın da heç bir təsiri olmayacaq. Azərbaycan COP29-a layiqli evsahibliyi edərək onunla düşmənçilik edənlərə növbəti dəfə gözdağı verəcək.

Təəssüf ki, Bayden administrasiyası diqqəti ölkəsinin problemlərinin həllinə, siyasi terrorun qarşısının alınmasına, demokratik seçkilərin keçirilməsinə yönəltməkdənsə, dünyanı qarışdırmağa, ölkələri qan içində boğmağa üstünlük verir, əli çatmayan Azərbaycan kimi ölkələri də informasiya müharibəsinin hədəfinə çevirir.

Görünür, ABŞ administrasiyası, hakimiyyət dairələri reallıq hissini tam itirib, Bayden sayıqlığını itirdiyi kimi… ABŞ-nin görməzdən gəldiyi reallıq odur ki, Azərbaycan COP29 vasitəsilə dünyaya onun böyük ehtiyac duyduğu sülh və əməkdaşlıq mesajı verir. Artıq dünya ABŞ-nin manеələrinə rəğmən bu mesajı böyük hörmət və minnətdarlıqla alır!

ABŞ vətəndaşları isə sabahları ilə bağlı son sözü noyabrın 5-də bildirəcəklər. Ya hamının dostu olacaq güclü dövləti, yaxud hamının düşməni olan "jandarm ölkə"ni seçəcəklər.

***"AZƏRBAYCAN" QƏZETİNİN REDAKSİYASI***

## Milli Məclisin iclasında

# Müstəqil Azərbaycan Cənubi Qafqazda lider, dünyada söz sahibi olan dövlətdir

**Oktyabrın 18-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, iclas Azərbaycan tarixində taleyüklü rol oynamış bir hadisənin ildönümünə təsadüf edir. 33 il öncə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunması xalqımızın dövlətçilik potensialının yenidən təzahür etməsi və müstəqillik arzusunun gerçəkləşməsi idi.**






### Ümummilli Lider Azərbaycan üçün hazırlanmış planları alt-üst etdi

Milli Məclisin Sədri bildirib ki, son yüz ildən artıq dövrdə Azərbaycan xalqına siyasi müstəqillik imkanı iki dəfə nəsib olub. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qurulması milli inkişaf tariximizin son dərəcə önəmli hadisəsidir. Parlamentli respublika sisteminin tətbiq edilməsi, demokratik və dünyəvi dövlət quruculuğu yolunda atılan addımlar təkcə Azərbaycanın deyil, bütün müsəlman Şərqinin siyasi inkişafında yeni mərhələ açmışdı. Təəssüf ki, xalqımızın əsrin əvvəllərində qurduğu dövlət cəmi 23 ay yaşaya bildi.

1991-ci il oktyabrın 18-də müstəqilliyini bərpa edən dövlətimiz üçün də əslində eyni tale yazılmışdı. Hamımız yaxşı xatırlayırıq, ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmiz ağır problemlər qarşısında qalaraq dərin siyasi, iqtisadi və hərbi böhran vəziyyətinə düşmüşdü.

Dövlətin idarə edilməsində, daxili və xarici siyasətin həyata keçirilməsində kobud səhvlərə yol verilmişdi. Ölkə həyatının bütün sahələrini bürüyən hərc-mərclik və özbaşınalıq real vətəndaş müharibəsi təhlükəsi törətmişdi. Belə bir şəraitdə Ermənistan silahlı qüvvələri torpaqlarımızın işğalını gündən-günə genişləndirir, bu isə destruktiv prosesləri daha da sürətləndirirdi. Dövlətin varlığı, xalqın müqəddəratı sual altında idi. Biz bunu hamımız yaxşı xatırlayırıq.

1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan dünyamiqyaslı siyasi və dövlət xadimi Ulu Öndər Heydər Əliyev misilsiz idarəçilik məharəti və siyasi uzaqgörənliyi, əzmkarlığı və yorulmaz səyləri nəticəsində Azərbaycanı gözləyən fəlakətlərin qarşısını almağı, dövlətin qarşısında dayanan ağır problemləri həll etməyi bacardı "Ümummilli Lider dünyanın böyük güclərinin iradəsinə qarşı çıxaraq, Azərbaycan üçün hazırlanmış planları alt-üst etdi, xalqımızı və dövlətimizi sabitlik və inkişaf dövrünə çatdırdı. Bugünkü müasir Azərbaycan Respublikası Heydər Əliyevin xalq və Vətən naminə fədakarlığının ən parlaq ifadəsidir" - deyə Milli Məclisin Sədri bildirib.

Sahibə Qafarova vurğulayıb ki, Ulu Öndərin böyük siyasətə qayıdışı onun Azərbaycan Ali Sovetinin Sədri seçilməsi ilə başlanıb. Xilaskarlıq missiyasını həyata keçirmək yolunda onun parlamentdə gördüyü işlər, həyata keçirdiyi tədbirlər parlamentarizm və dövlətçilik tariximizin şanlı səhifələrini təşkil edir.

Spiker diqqətə çatdırıb ki, Ümummilli Liderin inkişaf strategiyasını yeni çağırışlar şəraitində davam etdirən Prezident İlham Əliyevin daxili və xarici siyasəti Azərbaycanı zirvələrə yüksəldib: "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əzəli tarixi torpaqlarımızın Ermənistanın 30 illik işğalından qurtarılması, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması nəinki ölkəmiz, həm də bütün dünya üçün tarixi əhəmiyyətli bir hadisə oldu. Azərbaycan Cənubi Qafqaz bölgəsinin liderinə, qlobal geosiyasətdə isə söz sahibi olan bir dövlətə çevrildi".

Milli Məclisin Sədri deyib ki, dövlət başçısının fərmanına əsasən oktyabrın 17-də Füzuli şəhəri günü qeyd edildi. Oktyabrın 20-də Zəngilan şəhəri günü qeyd olunacaq: "Bu hadisələr möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə tarixi qələbələrə nail olmuş Azərbaycan Respublikasının güc və qüdrətinin rəmzləridir. Əminliklə söyləmək olar ki, möhtərəm cənab Prezidentin liderliyi və xalqımızın birlik və həmrəyliyi dövlətimizin müstəqillik yollarında bundan sonra da inamla irəliləməsini təmin edəcək".

Sonra spiker təklif edib ki, Müstəqilliyin Bərpası Günü münasibəti ilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq və Azərbaycan xalqının və dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni uğurlar arzulayaq. Spikerin təklifi alqışlarla qarşılanıb.

Milli Məclisin Sədri bayram münasibəti ilə təbriklərini diqqətə çatdırıb.

Sahibə Qafarova bildirib ki, onun başçılığı ilə nümayəndə heyətləri oktyabrın 10-da və 11-də Tacikistan Respublikasında, oktyabrın 13-dən 15-dək isə İsveçrə Konfederasiyasında işgüzar səfərlərdə olublar.

Oktyabrın 11-də nümayəndə heyəti Tacikistan Konstitusiyasının 30 illik yubileyi münasibəti ilə paytaxt Düşənbədə keçirilən beynəlxalq parlament konfransında iştirak edib. Spiker bildirib ki, həmin konfransda etdiyi çıxışda Azərbaycanla Tacikistanın dövlətlərarası münasibətlərinin möhkəm təməl üzərində davamlı inkişaf etdiyini qeyd edib. Çoxəsrlik tarix, mədəniyyət, din kimi ortaq dəyərlərin birləşdirdiyi xalqlarımızın dostluq və qardaşlıq münasibətlərinin dərinləşməsində dövlət başçılarının rolunu xüsusi vurğulayıb.

Qeyd edilib ki, Tacikistanda səfərdə olan müxtəlif ölkələrin nümayəndə heyətlərinin rəhbərləri konfransdan bir gün əvvəl Tacikistan Prezidenti Emoməli Rəhmon ilə görüşüblər. Görüş zamanı Azərbaycanla Tacikistan arasında olan münasibətlər xüsusi vurğulanıb. Prezident Emoməli Rəhmon Ulu Öndər Heydər Əliyev ilə bağlı xoş xatirələrini bölüşüb, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafı sahəsində əldə olunan nailiyyətləri qeyd edib.

Səfər çərçivəsində bir sıra ikitərəfli görüşlər də keçirilib. Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva və Qazaxıstan Parlamenti Senatının Sədri Maulen Aşımbayev ilə aparılan danışıqlarda digər məsələlər ilə yanaşı, parlamentlərarası əməkdaşlığın inkişaf yolları da nəzərdən keçirilib.

İsveçrəyə səfərində əsas məqsəd isə oktyabrın 14-də Cenevrə şəhərində Parlamentlərarası İttifaqın 149-cu Assambleyasında iştirak etmək idi. Assambleyada "Daha sülhsevər və dayanıqlı gələcək üçün elm, texnologiya və innovasiyadan istifadə" mövzusunda müzakirələr aparılıb. Spiker oradakı çıxışında diqqətə çatdırıb ki, elm, texnologiya və innovasiya kimi sahələr Azərbaycanın inkişaf gündəliyində mühüm yer tutur. Milli Məclisin Sədri oradakı çıxışında qeyd edib ki, qlobal çağırışlar şəraitində ölkələrin bir-birinin inkişaf arzularını dəstəkləmək kimi mənəvi öhdəlikləri var. 2020-ci ildən bəri Azərbaycan 140-dan çox ölkəyə 330 milyon ABŞ dolları dəyərində humanitar, iqtisadi və texniki yardım göstərib.

Spiker deyib ki, çıxışının mühüm bir hissəsi Bakıda keçiriləcək COP29 Konfransına həsr olunmuşdu. Sahibə Qafarova həmkarlarına COP29 çərçivəsində Milli Məclisin Parlamentlərarası İttifaqla birlikdə təşkil edəcəyi Parlament konfransı barədə geniş məlumat verib. İqlim dəyişmələrinə qarşı mübarizədə qanunvericilik orqanlarının çoxtərəfli platformalarda birgə fəaliyyətinin əhəmiyyətini qeyd edib. O, həmkarlarını bir daha COP29 Konfransına dəvət edib.

Spiker bildirib ki, səfər çərçivəsində Parlamentlərarası İttifaqın Baş katibi, Türkiyə, İran, Albaniya parlamentlərinin sədrləri ilə görüşüb, həmsöhbətlərinə Cənubi Qafqaz regionunda mövcud olan vəziyyət, COP29 ərəfəsində Azərbaycanın qarşılaşdığı haqsız hücumlar və təhdidlər barədə məlumat verib, bu barədə parlamentimizin və bütövlükdə ölkəmizin mövqeyini bildirib. Görüşlərdə ikitərəfli əməkdaşlıq məsələləri barədə də fikir mübadiləsi aparılıb.

Milli Məclisin Tacikistana və İsveçrəyə işgüzar səfərlərin uğurlu keçdiyini diqqətə çatdırıb və bununla əlaqədar nümayəndə heyətlərinin hər bir üzvünə minnətdarlığını bildirib.

Sonra iclasda cari məsələlər müzakirə olunub. Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, sədr müavinləri Musa Qasımlı, Rafael Hüseynov, komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, deputatlar Elman Nəsirov, Kamal Cəfərov, Aqil Abbas, Vüqar Bayramov, Ceyhun Məmmədov, Razi Nurullayev, Sahib Alıyev, İlham Məmmədov çıxış edərək bir sıra mövzularda öz fikirlərini bölüşüblər. Çıxışlarda Azərbaycan xalqının tarixində mühüm əhəmiyyət kəsb edən Müstəqilliyin Bərpası Günü münasibəti ilə təbriklər səsləndirilib. Vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyevin söylədiyi kimi "Müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətindir". Qeyd olunub ki, Azərbaycanın müstəqilliyinin bərpası 1990-cı ilin noyabrında Naxçıvanda başlayıb. Məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə üçrəngli bayrağımız Naxçıvan Ali Məclisinin sessiyasında Dövlət Bayrağı elan olunub. Ümummilli liderin rəhbərliyi ilə ölkəmizdə gedən islahatlar Azərbaycan iqtisadiyyatının qısa müddətdə güclənməsinə imkan yaratdı. Məhz Heydər Əliyevin əzmi sayəsində dövlət müstəqilliyimizin möhkəmləndirilməsi təmin edildi.

Bildirilib ki, Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində Vətən müharibəsində qazandığımız parlaq qələbədən sonra Azərbaycan onun əldə etdiyi uğurları gözü götürməyən bəzi qüvvələrin təzyiqlərinə məruz qalıb. Lakin, qalib dövlət olan Azərbaycanın siyasi və iqtisadi baxımdan qüdrətlənməsi regionla bağlı məkrli niyyətlərin həyata keçirilməsinin qarşısını alan siperə çevrilib. Hazırda Azərbaycan dünyanın enerji təhlükəsizliyində mühüm rol oynayan dövlət kimi tanınır. Ölkəmiz əldə edilən bütün bu uğurlara Prezident İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasəti və yüksək liderlik bacarığı sayəsində nail olub. Bu gün Azərbaycan xalqı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəkləyir və ölkəmizə qarşı olan haqsız təhdidlər artdıqca bu monolitlik daha da möhkəmlənir.

### Cinayət Məcəlləsinə "Ekosid" anlayışı əlavə edilir

Milli Məclisin Sədri Sahibə Qafarova iclasın gündəliyinə 15 məsələnin daxil edildiyini bildirib. İlk olaraq "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi üçüncü oxunuşda müzakirə olunub. Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov həmin qanun layihəsi barədə məlumat verib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Daha sonra Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Konstitusiya Məhkəməsi haqqında" və "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" qanunlarda dəyişiklik edilməsi haqqında, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda təsdiq edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Bildirilib ki, layihədə ekosistemin mühafizəsinin gücləndirilməsi və ekoloji cinayətkarlığa qarşı mübarizənin səmərəliliyinin artırılması ilə bağlı Cinayət Məcəlləsinə müvafiq dəyişikliklərin edilməsi nəzərdə tutulur. Belə ki, Məcəlləyə "Ekosid" anlayışının əlavə edilməsi və bu cinayəti törədən şəxslərin qanun çərçivəsində məsuliyyətə cəlb olunması təklif edilir.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

İclasda Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi də ikinci oxunuşda qəbul edilib.

### 1400 bələdiyyə birləşdirilir

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova növbəti iki məsələnin məzmun və mahiyyətcə bir-birinə yaxın olduğunu söyləyib. O, diqqətə çatdırıb ki, bu - "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" və "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa Əlavə - "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə qanun layihələridir. Spiker qeyd edib ki, hər iki qanun layihəsi inzibati ərazi bölgüsü məsələləri ilə bağlıdır və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcək.

Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov hər iki məsələ barədə məlumat verib. Diqqətə çatdırılıb ki, "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 5 aprel 2024-cü il tarixli Qanuna əsasən, ölkə üzrə sonuncu bələdiyyə seçkilərinin keçirildiyi ildən sonrakı 4 ilin son 2 ili ərzində əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələr onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla Milli Məclisin qərarı ilə digər bələdiyyələrlə birləşdirilir. Bu Qanunun tələblərinə əsasən, birləşmə ilə bağlı bələdiyyələrin Milli Məclisə təqdim etdikləri rəylərə baxılmış və nəticədə 1400 bələdiyyənin birləşdirilməsi yolu ilə ölkə ərazisində bələdiyyələrin ümumi sayının 685-ə endirilməsi nəzərdə tutulur.

Siyavuş Novruzov yuxarıda göstərilənlərlə əlaqədar olaraq iki sənədin - "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" və "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa Əlavə - "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə qanun layihələrinin hazırlandığını söyləyib. O, bu qanun layihələrinin bələdiyyələrdə idarəetmənin effektivliyinin artırılmasına, resurslardan qənaətlə istifadə edilməsinə, xidmətlərin keyfiyyətinin artırılmasına, regionların balanslı inkişafının təmin edilməsinə, bələdiyyələr arasında daha sıx əməkdaşlığın qurulmasına hədəfləndiyini qeyd edib.

Təqdim olunan sənədlər ətrafında müzakirələrdə komitə sədrləri Fazil Mustafa, Zahid Oruc, deputatlar Əli Məsimli, Razi Nurullayev, Qüdrət Həsənquliyev, Elşad Musayev, Gülşən Paşayeva, Kamran Bayramov, Aydın Hüseynov öz fikirlərini, qeyd və təkliflərini açıqlayıblar. Komitə sədri Siyavuş Novruzov çıxışlarda qaldırılan məsələlərə aydınlıq gətirib.

Sonra hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, mövcud qanunvericiliyə əsasən Azərbaycan Respublikasının silahlı birləşmələrinin hər biri üçün ayrılıqda dinc və müharibə (silahlı münaqişə) dövrlərində onların fəaliyyətinin təmin edilməsi üçün maddi-texniki təminatlar nəzərdə tutulmuşdur. Bu maddi-texniki təminatların tərkibinə silahlı birləşmələrin növünün tələbatına uyğun olaraq fəsil planı, rütbə ardıcıllığı, qoşun növü, silah növü və digər amillər nəzərə alınmaqla "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Qanunun 9.6-cı maddəsi ilə təminat norması müəyyən edilmişdir.

Qeyd olunub ki, qanun layihəsində nəzərdə tutulan dəyişiklikdə Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin hər biri üçün ayrılıqda müvafiq vasitələrlə təmin edilməsi qaydası və təminat norması müəyyən edilməyəcək, yeni redaksiyaya əsasən, onlar üçün ümumi qayda müəyyən ediləcəkdir.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəliyin 10-cu məsələsini - "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) də Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev təqdim edib. Komitə sədri layihədə hərbi vəzifəlilərin ehtiyatda olduqları müddətdə hərbi toplanışlara çağırılması qaydaları ilə bağlı təklif olunan dəyişikliklərin əsas mahiyyəti barədə danışıb. Qeyd olunub ki, sənəddə müvafiq icra hakimiyyəti orqanında həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış və müvafiq icra hakimiyyəti orqanının ehtiyatına keçirilmiş birinci dərəcəli ehtiyatda olan hərbi vəzifəlilər üçün hərbi təlim toplanışlarına çağırılması müddəti ayrıca müəyyən edilir.

Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

### Heyvanlarla rəhmsiz rəftar edilməsinə görə sanksiyalar sərtləşdirilir

Gündəliyin 11-ci məsələsi olan Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov məlumat verib. Bildirib ki, qanun layihəsi yaşıllıqlar və heyvanlar aləminin mühafizəsi ilə bağlıdır. Bu məqsədlə də layihədə qanunvericiliyin çəkindirici xarakterinin gücləndirilməsi təklif olunub. Birincisi, qanunsuz olaraq ağacları, kolları və ya digər yaşıllıqları kəsməyə (götürməyə) görə Cinayət Məcəlləsində "xeyli miqdar", "külli miqdar" anlayışlarının hədləri artırılır və ilk dəfə olaraq "xüsusilə külli miqdar" anlayışı müəyyən edilir. Habelə Cinayət Məcəlləsinin 259-cu və 260-cı maddələrinə görə sanksiyalardakı cərimə cəzasının konkret pul məbləği ilə deyil, cinayət nəticəsində vurulmuş ziyanın müvafiq mislinədək miqdarda pul tənbehi ilə müəyyən olunması təklif edilir.

İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklərə əsasən, ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətaları müəyyən edən müddəalar təkmilləşdirilir. Habelə Məcəllənin "Heyvanlarla rəhmsiz rəftar edilməsi" maddəsi yeni redaksiyada verilir, burada da sanksiyalar sərtləşdirilir. Bundan başqa, Məcəlləyə yeni 274-1-ci maddənin ("Heyvanlarla rəhmsiz rəftarın təbliğ edilməsi və ya kommersiya məqsədləri üçün istifadə edilməsi") əlavə edilməsi də təklif olunur.

12-ci məsələni "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında" və "Yaşıllıqların mühafizəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev təqdim edib. Diqqətə çatdırıb ki, təklif olunan dəyişikliklər heyvanlar aləminin, ətraf mühitin və yaşıllıqların mühafizəsini, bu sahədə qaydaların və cərimələrin tətbiqini nəzərdə tutur. Bu baxımdan "Heyvanlar aləmi haqında" Qanuna heyvanlarla rəhmsiz rəftar edilməsi hallarına görə məsuliyyəti nəzərdə tutan yeni müddəaların daxil edilməsi təklif olunub.

"Ətraf mühitin mühafizəsi haqqında" Qanuna təklif olunan dəyişikliyə əsasən, ətraf mühitin mühafizəsi üzrə dövlət fonduna daxilolmalar sırasına yaşıllıqların götürülməsinə (kəsilməsinə), zədələnməsinə və ya məhv edilməsinə görə dəymiş ziyanla bağlı daxilolmalar da əlavə edilir. "Yaşıllıqların mühafizəsi haqqında" Qanuna təklif olunan dəyişikliyə əsasən, qanunun tətbiq dairəsi yeni redaksiyada verilir, bununla da qanunun şamil olunmadığı halların (yaşıllıqların) dairəsi dəqiqləşdirilir.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

### Vətəndaşlara göstərilən tibbi xidmətlər təkmilləşdirilir

Növbəti məsələni - "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov təqdim edib. Bildirib ki, layihə əhalinin dərman vasitələrinə olan ehtiyaclarının qarşılanması, əlçatanlığın və keyfiyyətin artırılması, sığortaolunanların maraqlarının qorunmasına hüquqi zəminin yaradılması məqsədi ilə hazırlanıb.

Əhliman Əmiraslanov diqqətə çatdırıb ki, sənəddə adıçəkilən qanunlara mahiyyət üzrə, texniki, stilistik və redaktə xarakterli çoxsaylı dəyişikliklər təklif olunub. Vətəndaşlara göstərilən tibbi xidmətlərin təkmilləşdirilməsi və keyfiyyətinin yüksəldilməsi, həmçinin əhalinin dərman vasitələri üzrə xərclərinin minimuma endirilməsi məqsədilə ambulator şəraitdə dərman vasitələrinin buraxılması şərtləri müəyyən edilib. Əlavə və dəyişikliklərdə icbari tibbi sığorta üzrə ambulator dərman vasitələrinin kompensasiya şərtləri, icbari tibbi sığorta çərçivəsində təminat verilən ambulator dərman vasitələrinin xidmətlər zərfi ilə müəyyən edilməsi, icbari tibbi sığorta fondu hesabına ambulator dərman vasitələrinin təminatı kimi məsələlər öz əksini tapıb.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Diqqətə çatdırılıb ki, layihə hakim vəzifəsinə namizədlərin seçilməsi və hakimlərin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı müddəaların təkmilləşdirilməsini nəzərdə tutur. Sənəddə vakant hakim vəzifələrinin qısa müddətdə komplektləşdirilməsi məqsədilə hakimlərin seçilməsi prosesinin daha da sürətləndirilməsi təklif olunur. Belə ki, hakimlərin seçilməsi test imtahanı, yazılı imtahan və müsahibə olmaqla, üç mərhələdən ibarət olacaq. Eyni zamanda ilk dəfə hakim vəzifəsinə təyin olunan şəxslər hakim təyin olunduqdan dərhal sonra təlimə cəlb ediləcəklər.

Qeyd olunub ki, sənəddə hakimlərin fəaliyyətinin qiymətləndirilməsi üçün Məhkəmə-Hüquq Şurasının ixtisaslaşmış orqanının - Hakimlərin Qiymətləndirilməsi Komitəsinin yaradılması nəzərdə tutulur. Bununla əlaqədar "Məhkəmə-Hüquq Şurası haqqında" Qanuna Hakimlərin Qiymətləndirilməsi Komitəsinin fəaliyyətini tənzimləyən yeni maddə əlavə edilir. 9 hakimdən ibarət olacaq Hakimlərin Qiymətləndirilməsi Komitəsi qiymətləndirmənin nəticəsinə dair yekun rəy tərtib etməklə, Məhkəmə-Hüquq Şurasına təqdim edəcəkdir. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsinin yekununda müəyyən olunan nəticələrin qanunda təsbit olunması təklif edilir. Bundan başqa, qiymətləndirmənin yekununda müəyyən olunan hər bir nəticəyə uyğun olaraq Məhkəmə-Hüquq Şurası tərəfindən qəbul edilən qərarlar qanunda dəqiq təsbit olunur.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Parlamentin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev gündəliyin sonuncu məsələsi - "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinə dair məlumatı diqqətə çatdırıb. Bildirilib ki, qanuna 10-1.8-ci və 10-1.9-cu maddələrin əlavə edilməsi təklif olunur. Dəyişikliyə əsasən, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqlar sahibkarlıq subyektlərinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın müəyyən etdiyi qaydada investisiya müsabiqələri vasitəsilə icarəyə verilir. Bununla yanaşı, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində əhalinin məskunlaşdığı kənd və qəsəbə ərazi vahidlərinin sərhədləri daxilində yaşayış məntəqələrinə yaxın kənd təsərrüfatı təyinatlı torpaqlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın müəyyən etdiyi qaydada kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilir.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Media nümayəndələri Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olublar






Oktyabrın 18-də COP29 iqlim konfransına hazırlıq işləri ilə yerli media qurumlarını tanış etmək məqsədilə COP29 Azərbaycan Əməliyyat Şirkəti tərəfindən konfrans məkanı olan Olimpiya Stadionuna mediatur təşkil edilib.





AZƏRTAC xəbər verir ki, 60-dan çox media nümayəndəsinin, o cümlədən teleradio şirkətlərinin, informasiya agentliklərinin və xəbər saytlarının rəhbərlərinin iştirak etdiyi mediaturda COP29-a hazırlıq çərçivəsində görülən işlər barədə ətraflı məlumat verilib.

Mediaturda Azərbaycan Respublikası Prezidentinin köməkçisi, COP29 Təşkilat Komitəsinin üzvü Anar Ələkbərov, COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova, eləcə də Əməliyyat Şirkətinin müvafiq departamentlərinin rəhbərləri iştirak ediblər. Tanışlıq turu çərçivəsində media nümayəndələrinə tədbir məkanının konfransa hazırlıq vəziyyətinə gətirilməsi istiqamətində görülən işlər barədə geniş məlumat verilib, ərazidə icra edilən tikinti-quraşdırma işlərinin yekun tamamlanma mərhələsində olduğu və tədbir məkanının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına (UNFCCC) tələb olunan tarixdə təhvil veriləcəyi bildirilib.

Media qurumlarının rəhbərləri və jurnalistlər konfransın keçiriləcəyi Olimpiya Stadionunun həm Mavi, həm də Yaşıl zonalarına baş çəkməklə tədbir məkanında yaradılmış infrastruktur, təmin edilən texnologiyalar, müxtəlif təyinatlı zona və məkanlarla tanış olublar. Qonaqlar konfransın gedişində media nümayəndələrinin səmərəli işinin təşkili üçün tələb olunan şəraitin yaradıldığı Media Mərkəzinə də baxış keçiriblər. Qeyd olunub ki, indiyədək konfransın işıqlandırılması üçün dünyanın ən nüfuzlu media qurumları da daxil olmaqla, 2700-ə qədər media nümayəndəsi akkreditasiyadan keçib və hazırda qeydiyyat prosesi davam edir. 6325 kvadratmetr sahəni əhatə edən mərkəzdə 1200 media nümayəndəsinin eyni anda işləyə bilməsi üçün hər cür şərait təşkil olunub.

Mediatur çərçivəsində həmçinin qeyd edilib ki, cari tarixə olan məlumatlara əsasən, COP29-da iştirak üçün qeydiyyatdan keçən müxtəlif ölkə nümayəndələrinin ilkin sayı artıq 28 000 nəfər təşkil edir. COP tədbirlərinə xas olaraq əksər nümayəndə heyətlərinin tədbirə daha yaxın tarixlərdə qeydiyyat üçün müraciətetmə tendensiyası nəzərə alınaraq, davam edən qeydiyyat prosesi ərzində bu rəqəmlərin yaxın həftələrdə dinamik artımının müşahidə ediləcəyi bildirilib.

Xüsusilə vurğulanıb ki, COP29 konfransının təşkili zamanı inklüzivlik və müyəssərliyin təmin olunması əsas prioritetlərdən biri kimi götürülüb. Tədbir məkanının hər kəsə əlçatan olması üçün tikinti və quraşdırma işlərinin bütün mərhələlərində müvafiq tələblər nəzərə alınıb.

Sonda media nümayəndələrini maraqlandıran suallar ətraflı şəkildə cavablandırılıb.

# Baş prokuror Vyanada işgüzar səfərdədir

## Baş Prokurorluq COP29-la bağlı Vyanada təşviqat tədbiri keçirib

Oktyabr 17-də baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Vyanaya işgüzar səfər edib.



Azərbaycanın Baş Prokurorluğu və BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən "Cinayətin qarşısının alınması və ədalət mühakiməsi yolu ilə insanları və planeti qorumaq - Vyanadan (UNTOC-COP12) Bakıya (UNFCCC- COP29)" adlı xüsusi sessiya keçirilib.

Tədbirdə xarici ölkələrin Vyanada akkreditə olunmuş səfirliklərinin, Avstriya və Taylandın Baş Prokurorluğunun, Beynəlxalq Antikorrupsiya Akademiyasının və Beynəlxalq Prokurorlar Assosiasiyasının rəhbər vəzifəli şəxsləri iştirak ediblər. Tədbiri giriş sözü ilə açan BMT-nin Baş katibinin müavini, BMTNCİ-nin İcraçı direktoru və Vyana ofisinin rəhbəri Qada Vali ölkəmizdə noyabr ayında keçiriləcək ən böyük iqlim konfransı - COP29-a hazırlıq çərçivəsində Azərbaycan sədrliyi tərəfindən görülən işləri yüksək qiymətləndirib.

Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-a ən yüksək səviyyədə aparılan hazırlıq işlərinin yekunlaşma ərəfəsində olduğunu bildirib.

Eyni zamanda COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu və BMTNCİ tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən 15 noyabr tarixində keçiriləcək "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksəksəviyyəli sessiya barədə iştirakçılara məlumat verilib.

Tədbirdə COP29-un promo-çarxı nümayiş etdirilib. Daha sonra Baş Prokurorluğun idarə rəisləri Elnur Musayev və Erkin Əlixanov ölkəmizdə ekoloji cinayətlərlə mübarizədə görülən tədbirlər və müsbət nailiyyətlər, habelə Beynəlxalq Prokurorlar Assosiasiyasının ölkəmizdə keçirilmiş 29-cu illik konfransının nəticələri, eləcə də COP 29 çərçivəsində təşkil olunacaq yüksəksəviyyəli sessiya barədə məlumat veriblər.

Səfər çərçivəsində baş prokuror Kamran Əliyev və BMTNCİ-nin İcraçı direktoru Qada Vali arasında ikitərəfli görüş keçirilib. Baş prokuror tərəfindən Azərbaycan hökuməti ilə BMT arasında əlaqələrin yüksək səviyyəsindən məmnunluq ifadə olunaraq ölkəmizin hüquq-mühafizə orqanları ilə BMTNCİ arasında transmilli cinayətkarlığa qarşı mübarizədə əməkdaşlığın uğurla davam etdirildiyi qeyd olunub. Qada Vali COP29 çərçivəsində Azərbaycan Prokurorluğu ilə birgə təşkil olunacaq tədbirlə bağlı görülmüş hazırlıq işlərini yüksək qiymətləndirərək Baş prokurora təşəkkürünü bildirmişdir.

Həmçinin səfər çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyinin rəhbərliyi ilə görüş keçirilib. BƏƏ-nin Baş nazirinin müavini - daxili işlər naziri şeyx Saif bin Zayed əl Nəhyanın salamları baş prokuror Kamran Əliyevə çatdırılaraq COP29 çərçivəsində təşkil olunacaq yüksəksəviyyəli sessiyada BƏƏ tərəfindən həmsədrlik edilməsinə dair razılıq verilməsinə görə Azərbaycan tərəfinə təşəkkür ifadə olunub.

Görüşlərdə Azərbaycan Respublikasının Avstriyadakı fövqəladə və səlahiyyətli səfiri Rövşən Sadıqbəyli iştirak edib.

Nümayəndə heyətinin Avstriya Respublikasına işgüzar səfəri başa çatıb.

# Narkomaniya ilə mübarizə istiqamətində silsilə tədbirlər keçirilir

Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2024-cü il üçün birgə Tədbirlər Planına uyğun olaraq silsilə tədbirlər keçirilir.



Tədbirlər Planı çərçivəsində oktyabrın 16-da İmişli, 17-də Bərdə, 18-də isə Qazax rayonlarında tədbirlər olub.

Tədbirlərdə müasir müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

İmişli rayonunda "Narkomaniya bəşəriyyət üçün təhlükə mənbəyidir" mövzusunda keçirilən tədbirdə YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, İmişli Rayon İcra Hakimiyyəti (RİH) başçısının birinci müavini, RİH yanında Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyanın sədri Mirzə Quliyev, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev və Səhiyyə Nazirliyi Sumqayıt Şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov, Bərdə rayonunda "Mənəvi və fiziki sağlamlıq gələcəyimizin qarantıdır" mövzusunda keçirilən tədbirdə YAP Bərdə rayon təşkilatının sədri Faqət Şadlinskaya, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev, Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov, Bərdə Rayon İcra Hakimiyyətinin (RİH) Hüquq şöbəsinin məsləhətçisi, RİH yanında Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyanın katibi Natiq Səfərov, Qazax rayonunda "Milli-mənəvi dəyərlərimiz sərhəd tanımayan təhlükəyə qarşı ən güclü silahdır" mövzusunda keçirilən tədbirdə YAP Qazax rayon təşkilatının sədri Anar Nəbiyev, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev və Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov çıxış ediblər.

Çıxışlarda narkomaniyaya qarşı sistemli mübarizənin vacibliyindən və bu istiqamətdə maarifləndirici tədbirlərin əhəmiyyətindən bəhs olunub. Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nda maarifləndirmə məsələlərinə xüsusi yer və önəm verildiyi diqqətə çatdırılıb.

Gənclərin çoxsaylı sualları cavablandırılıb, tədbir iştirakçılarına narkomaniya ilə mübarizənin təşviqi məqsədilə əyani vəsaitlər paylanıb.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# İstanbulda XİN rəhbərlərinin "3+3" formatında üçüncü görüşü olub

Oktyabrın 18-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Respublikasının İstanbul şəhərinə işgüzar səfəri çərçivəsində "3+3" regional məşvərət formatının görüşündə iştirak və çıxış edib.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, çıxışda ölkəmizin təhlükəsizlik, iqtisadiyyat, ticarət, energetika, nəqliyyat-kommunikasiyalar, ətraf mühitin mühafizəsi, təbii və texnogen fəlakətlər və sair istiqamətlər üzrə mövcud çağırışların regional əməkdaşlıq imkanlarına çevrilməsinə yönələn baxışı, o cümlədən postmünaqişə dövründə regional sülh və normallaşma prosesi üzrə mövqeyindən ətraflı bəhs olunub.

Ceyhun Bayramov "3+3" formatının görüşünə evsahibliyinə görə qardaş Türkiyə Respublikasına təşəkkür edib, mövcud çağırışlarla mübarizədə ölkəmizin regional əməkdaşlıq və bu kimi formatlar çərçivəsində məsləhətləşmələrə xüsusi əhəmiyyət verdiyini diqqətə çatdırıb.

Xarici qüvvələrin regionda öz təhlükəli gündəlikləri, o cümlədən ziddiyyətli hərbiləşdirmə ilə məşğul olmaqla, geosiyasi eskalasiya və bölücü xətləri regionumuza proyeksiya cəhdlərini artırması fonunda regional fəaliyyət və dialoqun daha da vacib olduğu vurğulanıb.

Mövcud şəraitdə bölgə dövlətlərinin beynəlxalq hüququn prinsipləri, xüsusilə suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, daxili işlərə qarışmama əsasında regionumuza sahib çıxmasının, bölgəmizin problemlərinin həll yollarını məhz region çərçivəsində axtarmasının, regional təhlükəsizliyimizi bölünməz anlayış olaraq qəbul etməsinin əhəmiyyəti qeyd olunub.

Ölkəmizin müstəqilliyinin bərpa olunmasından bəri bölgə dövlətləri ilə qarşılıqlı hörmət, maraqlar balansı və legitim təhlükəsizlik narahatlıqları nəzərə alınmaqla qarşılıqlı faydalı əməkdaşlıq etdiyi, bunun nəticəsində Bakı-Tbilisi-Qars, Şimal-Cənub dəhlizi kimi bir sıra regional, o cümlədən qlobal əhəmiyyətli layihələrin həyata keçirildiyi bildirilib. Birgə layihələrimizin Naxçıvan Muxtar Respublikasını da əhatə etməsi, xüsusilə İran ərazisindən keçərək Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikasını birləşdirən kommunikasiyaların tezliklə tamamlanmasına dair ümidvarlıq ifadə edilib.

Keçmiş münaqişənin yekunlaşması, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpası ilə regional əməkdaşlıq üçün açılan yeni imkanların fonunda Azərbaycanın Ermənistanla dayanıqlı sülh quruculuğu prosesinin davam etdirilməsi və irəlilədilməsinə dair qətiyyəti bir daha təsdiq olunub.

Sülh prosesinin qarşısında duran maneələrin aradan qaldırılmasının, xüsusilə Ermənistanın təcavüz və işğalının bir daha təkrarlanmayacağı və sülhün daxili siyasi və hüquqi vəziyyətdən asılı olmayacağına zəmanət verən zəruri konstitusiya dəyişikliklərinin vacibliyi vurğulanıb. Mövcud problemlərin gözardı edilməsi ilə dayanıqlı sülh quruculuğunu təxirə salan "yarımçıq sülh"ün Ermənistan tərəfindən təbliğatının "gizli gündəm"in mövcudluğuna dair sual doğurduğu qeyd edilib.

# Azərbaycanın və Türkiyənin XİN rəhbərləri qlobal təhlükəsizlik problemlərini müzakirə ediblər

Oktyabrın 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İstanbul şəhərinə işgüzar səfəri çərçivəsində Türkiyənin xarici işlər naziri Hakan Fidanla görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Türkiyə müttəfiqliyindən irəli gələn məsələlər, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, habelə qlobal təhlükəsizlik problemləri müzakirə olunub.

Bölgədə və dünyada sürətlə dəyişən təhlükəsizlik vəziyyətinin fonunda "3+3" formatı kimi məşvərət mexanizmlərinin əhəmiyyətinin daha da artdığı, bölgəmiz üçün ortaq təhdidlərlə mübarizədə əməkdaşlığın vacibliyi qeyd olunub. Bu istiqamətdə Azərbaycan-Türkiyə müttəfiqliyinin, regional və beynəlxalq platformalar çərçivəsində qarşılıqlı dəstək və həmrəyliyin əhəmiyyəti diqqətə çatdırılıb.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, habelə Azərbaycan-Ermənistan normallaşma prosesi barədə ətraflı məlumat verən nazir Ceyhun Bayramov sülh prosesinin qarşısında duran çağırışların hələ də qalmaqda olduğunu bildirib. Ermənistan konstitusiyasında ölkəmizə qarşı ərazi iddialarının davam etdirilməsinin, habelə rəsmi İrəvan tərəfindən bu istiqamətdə sistematik işlərin görülməsi yerinə problemin gözardı edilməsinin narahatlıq mənbəyi olaraq qaldığı diqqətə çatdırılıb.

Ceyhun Bayramov həmçinin həmkarını BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyimiz, görülən hazırlıq işləri barədə məlumatlandırıb.

Türkiyənin qardaş Azərbaycanın bölgədəki sülh və quruculuq səylərini hər zaman dəstəklədiyi, habelə prosesin tezliklə yekunlaşmasına dair ümidvarlıq ifadə olunub.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Ermənistan xarici işlər nazirləri sülh sazişi üzrə danışıqları davam etdirməklə bağlı razılığa gəliblər

Oktyabrın 18-də Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri Ararat Mirzoyan arasında İstanbulda "3+3" regional məşvərət platforması çərçivəsində görüş keçirilib.



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, tərəflər Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş ilə bağlı danışıqları davam etdirib, ən qısa zaman ərzində onun yekunlaşdırılması və bağlanması üçün daha çox səy göstərmək istiqamətində razılıq əldə ediblər.

Tərəflər Türkiyənin qonaqpərvərliyini təqdir ediblər.

# BTC, CQBK, BTQ, TANAP, indi də "yaşıl enerji" dəhlizi...

## Bunlar Azərbaycanı və Gürcüstanı bir-birinə daha sıx bağlayır

**Azərbaycan və Gürcüstan bir-birinin yaxın qonşusu, sınanmış dostu, etibarlı tərəfdaşıdır. Hər iki ölkə müstəqillik qazandıqdan sonra bu münasibətləri xalqlarımızın milli maraqlarını şərtləndirən, maddi rifahına xidmət edən layihələr daha da möhkəmləndirmişdir. Bu gün iki dövlət arasında olan strateji əhəmiyyətli siyasi münasibətlər həm də çoxsaylı iqtisadi layihələrlə dəstəklənir.**



Azərbaycanın nəhəng neft-qaz kəmərləri və nəqliyyat-kommunikasiya xətləri Qərbə Gürcüstandan keçərək istiqamətlənir. Obrazlı desək, həmin polad neft-qaz xətləri və dəmir yolları bu iki ölkəni möhkəm kəmər kimi bir-birinə daha sıx bağlayır.

İlk dövrlər "Əsrin müqaviləsi" çərçivəsində hasil olunan neftin dünya bazarlarına çatdırılmasında 1999-cu ildə istifadəyə verilən Qərb İxrac Boru Kəməri (Bakı-Supsa marşrutu) mühüm rol oynadı. Lakin artan neft həcmləri daha qlobal bir kəmərin çəkilməsi zərurətini yaradırdı. Müəllifi Ümummilli Lider Heydər Əliyev olan bu kəmərin də dünya bazarına yolu etibarlı qonşunun ərazisindən keçdi. Belə ki, 1998-ci ildə Ankarada Azərbaycan, Gürcüstan və Türkiyə Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin inşa edilməsi haqqında bəyannamə imzaladılar. 1999-cu ildə İstanbulda ATƏT-in zirvə görüşü zamanı isə xəttin çəkilişi ilə bağlı saziş imzalandı. Sazış Azərbaycanın, Gürcüstanın, Türkiyənin, Qazaxıstanın və Amerika Birləşmiş Ştatlarının o vaxtkı prezidentlərinin imzaları ilə təsdiqləndi. 2002-ci il sentyabrın 18-də Bakı yaxınlığındakı Səngəçal terminalında kəmərin təməli qoyuldu və bu möhtəşəm tədbirdə Gürcüstanın dövlət başçısı da bizimlə idi. Daha sonra həm Azərbaycanda, həm də Gürcüstanda kəmərin keçəcəyi ərazilərə borular daşınmağa və digər işlər görülməyə başladı.

Açığını demək lazımdır ki, bütün bunları gözü götürməyənlər də var idi. Layihənin mühüm bir mərhələsində - maliyyələşmə məsələləri həll edilərkən BTC-nin bədxahları yenidən baş qaldırdılar. Bir sıra qeyri-hökumət təşkilatları tikintiyə mane olmaq üçün növbəti səbəblər uydururdular. Bu dəfə kəmərin Gürcüstanın "Borjomi" mineral su mənbəyinə guya ekoloji cəhətdən zərbə vuracağı fikrini ortaya atdılar. Bu da layihənin Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi sənədlərinin imzalanmasını gecikdirirdi. Hətta müxtəlif qruplar kəmərin tikintisini maliyyələşdirəcək beynəlxalq qurumların ofisləri qarşısına toplaşaraq onun çəkilişinə etiraz edirdilər. Gürcüstan Respublikası dövlətinin və hökumətinin layihəni dəstəklədiyi, artıq işlərə start verildiyi bu məqamda sözügedən məsələ müəmma doğururdu. Deməli, burada da erməni "əl"i varmış.

O zaman AŞPA-nın sədr müavini olan İlham Əliyev məsələnin nədən və haradan qaynaqlandığını açıqladı. Belə ki, ermənilər BTC-nin reallaşma mərhələsinə qədəm qoyduğundan narahat olub internetdə sayt açmışdılar və Beynəlxalq Maliyyə Korporasiyasına, Dünya Bankına, digər beynəlxalq maliyyə qurumlarına layihə haqqında əks məlumat göndərirdilər. Onların əsas məqsədi Gürcüstanda kəmərin keçdiyi ərazilərdə gərginlik yaratmaq və bununla marşrutun dəyişdirilməsinə nail olmaq idi. Borjomi söhbətini ortaya atmaqla kəmərin yolunun Gürcüstanın əsasən ermənilər yaşayan Axalkalaki rayonundan keçməsinin mümkün olacağını güman edirdilər.

Lakin bu bəd niyyətlərin heç biri baş tutmadı. BTC layihəsi uğurla tamamlandı.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin 1768 kilometrlik yolunun bir hissəsi bu ölkədən keçir və uğurla fəaliyyət göstərir. 2004-cü ilin oktyabrında kəmərin Azərbaycan və Gürcüstan hissələri birləşdirilərkən Prezident İlham Əliyev demişdir: "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi həm Azərbaycan üçün, həm Gürcüstan üçün, həm də bütün region üçün çox vacibdir. Bu, ölkəmizə yeni imkanlar yaradacaqdır, xalqlarımız üçün yeni şəraitin yaradılmasını təmin edəcəkdir. Əlbəttə ki, bu, ölkələrimizə böyük həcmdə maliyyə vəsaitinin cəlb olunmasına gətirib çıxaracaqdır. Eyni zamanda bu iqtisadi məsələlərlə yanaşı, regional təhlükəsizlik məsələlərinə də layihə öz töhfəsini verəcəkdir".

İndi bunlar bir reallıqdır. BTC özündən sonra daha neçə-neçə layihəyə yol açıb. Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəməri başlanğıcını Səngəçal terminalından götürərək Türkiyə sərhədinədək Azərbaycanda və Gürcüstanda BTC ilə eyni marşrut boyu uzanır. BTƏ-nin ayrılmaz hissəsi olan Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) ümumi uzunluğu 691 kilometrdir. O, Azərbaycanda 443, Gürcüstanda 248 kilometr məsafə qət edir. Gürcüstan-Türkiyə sərhədində CQBK-yə 280 kilometrlik boru kəməri qoşulur ki, bununla Azərbaycan qazı Ərzuruma çatdırılır. Səngəçal-Ərzurum marşrutu ilə uzanan bu xətt bütövlükdə Bakı-Tbilisi-Ərzurum kəməri adlanır. Qeyd edək ki, CQBK Azərbaycan qazını Gürcüstana 2006-cı ildə çatdırıb.

"Cənub qaz dəhlizi"nin təməlini də əslində elə BTƏ yaradıb. Azərbaycandan İtaliya torpağınadək 3500 kilometrlik məsafə boyu uzanan, üç kəmərdən ibarət olan və indi artıq yeni interkonnektorlarla şaxələnən bu dəhlizin bir seqmenti də genişləndirilmiş CQBK-dir.

Bu gün Azərbaycan 10-dək ölkəyə qaz ixrac edir. Bu mavi yanacağın dünyaya yolu Gürcüstandan keçir. Yaxın gələcəkdə bu ölkələrin sayı artacaq, çünki Azərbaycanın enerji resurslarına olan tələbat ildən-ilə çoxalır. Əlbəttə, bizim həm resurslarımız, həm sərmayə qoymaq üçün maliyyə vəsaitimiz var və Gürcüstan kimi etibarlı dostumuz var ki, tranzit imkanlarımız genişlənsin. Belə olan halda enerji layihələrimiz bundan sonra da bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edəcək və burada Gürcüstanla Azərbaycan yenə də etibarlı tərəfdaş kimi çıxış edəcəklər.

Bakı-Tbilisi-Qars dəmir yolunun polad magistralları iki ölkə arasında əməkdaşlıq və tərəfdaşlığı daha da möhkəmləndirib. Bu birgə layihəmizin əhəmiyyəti getdikcə artır. Çin və Mərkəzi Asiya ölkələrindən quru yolla daşınan yüklərin ən qısa müddətdə Avropaya çatdırılmasında BTQ dəmir yolu xəttinin əhəmiyyəti olduqca böyükdür. Asiyadan gələn yüklərin Azərbaycan üzərindən biraşırımlı əməliyyatla Avropaya daha sürətli çatdırılması BTQ-nin regional nəqliyyat şəbəkəsindəki əhəmiyyətini daha da önə çıxarır.

İndi Azərbaycan və Gürcüstan "yaşıl enerji" sahəsində də geniş əməkdaşlığa başlayıblar. Məlum olduğu kimi, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş imzalanıb.

Əlaqələrimizin geniş gündəliyə malik olduğu bu il martın 16-da Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin ölkəmizə səfəri zamanı özünü bir daha aydın göstərdi.

Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidze mətbuata bəyanatlarında ilk növbədə ölkələrimizin icra etdiyi birgə nəqliyyat və enerji layihələrinin də önəmini vurğuladılar.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze mətbuata bəyanatında gələcək üçün mühüm planların olduğunu da qeyd etdi: "Bizim birlikdə təməlini qoyduğumuz bir sıra layihələr var və onlar strateji əhəmiyyət daşıyır. Gələcək üçün də çox böyük planlarımız var. Biz cənab Prezidentlə bir sıra layihələri müzakirə etdik, orada birgə iştirak imkanlarımız var. Bu sahədə işlər bizim üçün də çox önəmlidir. Eyni zamanda ticarət məsələsini müzakirə etdik. Azərbaycan Gürcüstanın ilk beşlikdə yer alan ticarət tərəfdaşıdır və biz əminik ki, bu rəqəmlər getdikcə artacaq. Nəqliyyat, energetika sahələrində də çox mühüm potensialımız var və cənab Prezident artıq bunu qeyd etdi. Bu işlər davam etdiriləcək. Qarşılıqlı səfərlər davam edəcək. Nümayəndə heyətlərinin görüşləri davam edəcəkdir ki, bu sahələrdə də bizim əməkdaşlığımız dərinləşdirilə bilsin. Biz bu əməkdaşlığı irəliyə aparmağa tam şəkildə hazırıq".

Şübhə yoxdur ki, qarşıda duran böyük planlar sıx əməkdaşlıq və tərəfdaşlıq şəraitində yerinə yetiriləcək. Yaxşı tərəfdaşlıq həm də yaxşı qonşuluqdan qaynaqlanır. Mehriban qonşuluq etmək üçün isə gərək həm də yaxın dost olasan. Xoşbəxtlikdən Azərbaycan və Gürcüstan məhz yaxşı qonşu, dost və tərəfdaşdırlar.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Qərb sülh formuluna qarşı çıxır



"Son dövrlər Ermənistanın və Qərbdəki havadarlarının iki ölkə arasında Azərbaycan tərəfindən irəli sürülmüş və beynəlxalq hüquqa uyğun formada tərtib edilmiş, hər iki dövlətin milli maraqlarını ehtiva edən sülh müqaviləsinin bəzi müddəalarını istisna edərək imzalanmasında israrlı davranması, əslində, regionda dayanıqlı sülhün bərqərar olunmaması istiqamətində səylərdən başqa bir şey deyil. Azərbaycanın Vətən müharibəsində və antiteror tədbirlərində qələbəsinin ardınca regionda sülh və sabitlik üçün unikal tarixi imkan yarandığı, məhz Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkələrimiz arasında bölgədə dayanıqlı sülh vəd edən dialoqa start verildiyi məlumdur".

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. O bildirib ki, ötən dövr ərzində məhz Azərbaycanın qətiyyəti ilə sülh prosesində danışıqların effektivliyinin artırılması üçün sərhədlərin delimitasiya və demarkasiya məsələsi sülh danışıqlarından ayrılıb və bu da prosesdə effektli nəticələrə gətirib çıxarıb. Həmçinin Azərbaycan tərəfi 30 illik uğursuz təcrübəyə istinad edərək vasitəçisiz danışıqlara üstünlük verərək proseslərin gedişatında digər dövlətlərin iştirakı olmadan ikitərəfli danışıqlarda nəticə etibarilə ilkin uğurlara nail olub.

Deputat qeyd edib ki, otuz illik işğal və təcavüz dönəmində Azərbaycan və Ermənistanı davamlı olaraq sülhə tələsdirən, bununla da Bakını erməni işğalı ilə barışmağa, münaqişəni donmuş vəziyyətdə saxlamaqla regionda təzyiq imkanlarını qorumağa çalışan Qərb imperializmi regionda sülh arzu etmədiyi üçün iki ölkə arasında danışıqların effekt verdiyini görərək pozucu təsirlərə başlayıb: "Qərb Ermənistanı sürətlə silahlandırmaqla, habelə müxtəlif beynəlxalq platformalarda İrəvanı yeni münaqişəyə təşviq etməklə əldə olunmaqda olan uğurlu sülh formuluna təhdid yaratmağa başlayıb. Lakin Prezident İlham Əliyevin qətiyyəti, eyni zamanda dövlətimizin siyasi və iqtisadi cəhətdən tam müstəqilliyi bizə bu təhdidləri neytrallaşdırmağa, kənar qüvvələrin təcavüzkar meyillərini regionda zərərsizləşdirməyə imkan verdi. Bu prosesdə Azərbaycanın qarşısında hər hansı arqument qoya bilməyən Qərb imperializmi çıxış yolunu məhz Azərbaycanın israrlı olduğu sülh prosesində manipulyasiyalara yol açmaqda gördü".

B.Məhərrəmov vurğulayıb ki, hazırda Azərbaycan və Ermənistan arasında məhz ölkəmizin təşəbbüsü və beynəlxalq hüquqa istinad etməklə formalaşdırdığı şərtlər əsasında sülh sazişi üzrə danışıqlar gedir. Hər iki tərəfin açıqlamalarına görə bu saziş layihəsi üzrə müddəaların təxminən 80 faiz hissəsi artıq razılaşdırılıb. Azərbaycan tərəfi isə haqlı olaraq bu müqaviləyə vahid kimi baxaraq bölgəyə sülh və sabitlik vəd edən sazişin yalnız tam şəkildə imzalanacağı təqdirdə effekt verəcəyi qənaətindədir. Həqiqətən də rəsmi İrəvanın Azərbaycanın ərazi bütövlüyünü ehtiva edən müddəalara razılıq verərək paralel şəkildə konstitusiya islahatlarını istisna edən status-kvonu dəstəkləməsi heç bir formada səmərəli ola bilməz, çünki Ermənistan konstitusiyası hazırda özündə Azərbaycana qarşı ərazi iddialarını açıq formada ehtiva edir. Əgər Ermənistan imzaladığı yarımçıq sülh müqaviləsində, hətta Azərbaycanın ərazi bütövlüyünü tanıdığını rəsmən bəyan edib həmin müqaviləni imzalasa belə, bu beynəlxalq sənəd Ermənistan parlamentində məhz konstitusiyaya zidd olduğu üçün ratifikasiya edilə bilməz. Bu isə sülh prosesinin dondurulmasından başqa bir şey deyil, yəni imzalanan sənədə baxmayaraq, Ermənistan istənilən an hüquqi qaydada bu müqaviləni ləğv edərək, yaxud Ermənistan parlamenti bu sənədin ratifikasiyasından imtina edərək, üstəlik, bunu konstitusiyaya əsaslanıb reallaşdıraraq bölgəni yenidən münaqişəyə sürükləyə bilər.

Deputat bildirib ki, Azərbaycan imzalanacaq sülh müqaviləsinin həm hüquqi, həm də faktiki baxımdan etibarlı şəkildə olmasını arzulayır və bu, Ermənistan konstitusiyasından və digər qanunvericilik aktlarından Azərbaycana münasibətdə ərazi iddialarını ehtiva edən normativ müddəaların çıxırılmasını tələb edir: "Ermənistan isə Azərbaycanın beynəlxalq hüquqa əsaslanan bu praktik və hüquqi yanaşmasını görməzdən gələrək yenidən güc toplayıb revanşist əhvalı dirçəltmək, bölgədə işğal dövrünün status-kvosunu bərpa etmək məqsədilə vaxt qazanmaq istəyir və sülh müqaviləsi adı altında heç bir effektiv potensiala malik olmayan oyuncaq bir sənədi imzalamaqla sülhpərvərlik imitasiyası etməklə məşğuldur. Ermənistan hakimiyyəti, eyni zamanda Azərbaycan üzərində informasiya savaşında müəyyən xal qazanmağı hədəfləyir, belə ki bu gün havadarlarının, o cümlədən, ABŞ, Fransa və bu ölkələrin marionetinə çevrilmiş bir sıra Qərb dairələrinin Azərbaycanı Ermənistanın israr etdiyi şərtlərlə yarımçıq sülh müqaviləsini imzalamağa çağırması fonunda belə bir ab-hava yaratmağa çalışılır ki, sanki Ermənistan sülh arzulayır, Azərbaycan isə sülhdən yayınmaqla bölgəni yeni münaqişə və müharibəyə təhrik edir", - deyə siyasətçi əlavə edib.

Deputat təəssüflə qeyd edib ki, bir sıra beynəlxalq qurumlar, o cümlədən, insan haqları və demokratiya pərdəsi altında fəaliyyət göstərən təsisatlar bu prosesdə Ermənistan və havadarları üçün rupor rolunu oynamaqda və Azərbaycan ətrafında təcavüzkara xas çəmbər yaratmaqda xüsusi canfəşanlıq göstərməkdədir. Lakin bu tip uyğunsuz və heç bir beynəlxalq normaya sığmayan cəhdlərlə Azərbaycanı nəyəsə məcbur etmək, yaxud möhtərəm cənab Prezidentin də dediyi kimi, dövlətimizin iradəsinə təsir etmək mümkün deyil. Bölgədə hərbi-siyasi yolla yeni reallıq yaradan və bu regionun əsas hərbi-siyasi güc mərkəzinə çevrilən Azərbaycan məhz beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərə əsaslanaraq elə bir status-kvo formalaşdırıb ki, bu prosesin əksinə gedən istənilən qüvvə məğlubiyyətə və özünü ifşaya məhkumdur.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın sülh şərtləri dəyişməzdir

Azərbaycanın istər qlobal, istər regional rakursda hər zaman dəqiq, aydın və konkret siyasəti olub. Respublikamıza beynəlxalq münasibətlər sistemində ehtiram gətirən siyasi meyarlardan biri məhz budur.



Bu yanaşma Ermənistanla münasibətlərin normallaşdırılması prosesində də özünü göstərir. Cənubi Qafqazda sülhün təmin edilməsinə, qarşılıqlı etimad mühitinin yaradılmasına nail olunması bu gün Bakının qarşıya qoyduğu əsas məqsədlərdən biridir.

### Müqavilənin bütün bəndləri eyni dəyərə malikdir

Vətən müharibəsinin başa çatmasından ötən 4 ilə yaxın dövrün mənzərəsi də göstərir ki, rəsmi Bakı sülhə nail olunması üçün bütün imkanları səfərbər edir. O cümlədən sülh sazişinin əsasında dayanacaq prinsipləri də Azərbaycan təqdim edib. Ermənistan rəsmiləri sözdə sülhə tərəfdar olduqlarını bildirsələr də, yaxın dövrə qədər törətdikləri hərbi təxribatlarla bunu tormozlayıblar. İndi isə Ermənistan sülh sazişinin yarımçıq imzalanmasına çağırışlar etməklə, sülhə qarşı çıxır.

Xatırladaq ki, Ermənistan tərəfi sülh sazişi layihəsində öz əksini tapması zəruri olan müddəaları çıxarıb və bununla da layihənin imzalanmağa hazır olduğunu iddia edib. Lakin Azərbaycanın şərtləri dəyişməzdir. Belə ki, iki ölkə arasında real və davamlı sülh müqaviləsinin imzalanmasının əsas şərti başda "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran Ermənistanın müstəqillik bəyannaməsinə açıq şəkildə istinad edən Ermənistan konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarına son qoyulmasıdır. Ermənistan rəsmilərinin "sülh sazişi" layihəsini razılaşdırılmamış müddəalar çıxarılmaqla imzalanması çağırışı, bununla ikitərəfli münasibətlərdə mövcud problemlərin həllini növbəti mərhələyə saxlamaq cəhdləri qəbuledilməzdir.

Oktyabrın 14-də Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Julyen de Freponla söhbət zamanı Prezident İlham Əliyev bu məsələyə münasibət bildirərək dedi ki, sülh müqaviləsinin bütün bəndləri eyni dəyərə malikdir, birini digərindən ayırmaq olmaz. Prezident İlham Əliyev bu baxımdan Ermənistan hökumətinin "bu vaxtadək nə barədə razılaşdırılıbsa, ona imza atılsın, razılaşdırılmamış müddəalar növbəti mərhələlərə saxlanılsın" qəribə təklifini tamamilə reallıqdan kənar hesab etdiyini bildirdi və bu cür yanaşma presedentinin ona məlum olmadığını vurğuladı.

### İtirən yalnız Ermənistan olacaq

Qeyd etdiyimiz kimi, Ermənistan rəsmiləri yalnız özlərinin başa düşdükləri irrasional yanaşmaları ilə sülh prosesini əngəlləməklə məşğuldurlar. Aydın olan odur ki, İrəvanın sülh sazişinin öz maraqlarına uyğun şəkildə imzalanmasına cəhd göstərməkdə məqsədi odur ki, gələcəkdə Azərbaycana qarşı ərazi iddialarını davam etdirə bilsin.

Ümumiyyətlə isə Ermənistan rəsmilərinin hər bir açıqlamalarının mərkəzində məkr, reallıqları təhrif etmək dayanır ki, bütün bunlar da sülh prosesinin inkişaf etdirilməsinə əhəmiyyətli dərəcədə mane olur. Ermənistanın baş naziri Nikol Paşinyanın oktyabrın 12-də "Sülh qovşağı: təhlükəsizlik və demokratiyanın vəhdəti" adlı forumda çıxışında 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla bağlı səsləndirdiyi iddialar, reallıqları təhrif etmək cəhdləri bir daha bunu təsdiqləyir. Məsələyə münasibət bildirən Azərbaycanın Xarici İşlər Nazirliyi respublikamızın tarixi və beynəlxalq hüquqi çərçivədə mövcud olan ərazilərinə qarşı əsassız iddialarından, tarixin saxtalaşdırılmasından əl çəkməyən, beynəlxalq hüquq prinsiplərini kobudcasına pozan, yürütdüyü təcavüz siyasəti səbəbindən düşdüyü vəziyyətdən nəticə çıxarmayan Ermənistan rəhbərliyini heç bir çərçivəyə sığmayan, reallıqları təhrif edən və nəticə etibarilə beynəlxalq ictimaiyyəti yanıltmağa yönələn açıqlamalardan çəkinməyə çağırıb.

Görünən odur ki, sülh üçün yaranmış əlverişli şəraitdən istifadə etməyən Ermənistan münasibətlərin normallaşdırılmasına xidmət etməyən sülh oyunbazlığı ilə məşğuldur. Bundan itirən isə yalnız Ermənistanın özü olacaq.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# MDB PA-nın komissiya iclası keçirilib

Oktyabrın 18-də Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının (MDB PA) Mədəniyyət, informasiya, turizm və idman üzrə daimi komissiyasının videokonfrans formatında iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, tədbirdə MDB PA-da Milli Məclisin nümayəndə heyətinin üzvləri - parlamentin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu və Göydəniz Qəhrəmanov iştirak ediblər.

Onlayn iclasda MDB-nin iştirakçısı olan dövlətlər üçün "Rəqəmsal media resursları mühitində elektron kommunikasiya haqqında", "Mesenatlıq və xeyriyyəçilik fəaliyyəti haqqında", "Uşaqların sağlamlığına və inkişafına zərər vuran məlumatlardan qorunması haqqında", "Su obyektlərində mədəni irs abidələrinin dövlət mühafizəsinin təmin edilməsi haqqında" və digər model qanun layihələri ilə bağlı müzakirələr aparılıb.

İclasda təşkilati məsələlərə də baxılıb, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu komissiya sədrinin müavini vəzifəsinə seçilib.

*"Azərbaycan"*

# Cəbrayılda yeni dövran, xoşbəxt həyat başlayıb





**◆ Biz qayıtdıq, Vətən!**

**Böyük qayıdışın yeni ünvanı Cəbrayıl şəhərindəyik...**

**Dağların arasında məskən salan şəhərdə əsl qələbəlik var. Zəfər bayrağı ilə bəzədilmiş evlər qapılarını açıb yurd sevinci yaşayan doğma insanları bağrına basırdı... Kimi sevincdən göz yaşı tökür, kimi "Gözlərimə inanmıram", kimi "Ölmədim, bu günü də gördüm", kimi isə "Torpağında ölməyə gəldim, Cəbrayıl!" ifadələri ilə yurd həsrətinin bitdiyini söyləyir.**

**Bir sözlə, həsrətin bitdiyi, doğma yurda qovuşmalarının sevincini cəbrayıllılar özlərinə məxsus ifadə edirdilər. Hamının üzündə xoşbəxtlik, məmnunluq hissi var idi.**

## "İlham Əliyev torpaqlarımızı azad edib bizə cənnət yaratdı"

Yeni mənzillərinə köçən sakinlər əşyalarını maşınlardan düşürüb evlərinə daşıyır, onlardan bir neçə gün öncə gələnlər isə yardım edir, həmyerlilərinə gözaydınlığı verirdilər.

Bu maraqlı mənzərəni seyr etmək, cəbrayıllıların yurd sevincini bölüşmək, doğma ocaqlarında ilk qonaqları olmaq bizim də qismətimizə düşdüyündən özümüzü bəxtli hesab edirik.

### "Prezident İlham Əliyev üzərimizdəki ləkəni təmizlədi, arzumuzu gerçəkləşdirdi"

Qarşısında dayandığımız birinci binaya daxil olub mənzillərdən birinin qapısını döyürük. Yenicə təzə evinə köçən Bahar Ağayeva qapını açır və xoş təbəssümlə bizi içəri dəvət edir. Çay süfrəsi ətrafında öncə Ağayevlər ailəsinin 30 illik taleyi ilə maraqlanırıq. Bahar xanım dərindən köks ötürüb danışmağa başlayır: "Cəbrayıl işğal olunanda, qaçqın, köçkün düşəndə 20 yaşım vardı. BDU-nun tələbəsi idim. Gənc idim, arzularım, xəyallarım vardı. Toraqlarımız işğal olmaqla hər şey alt-üst oldu... O illəri yada salmaq, xatırlamaq çox çətindir. Ev yox, valideynlər, qohum-əqrəba, bütövlükdə bir el yurdundan, yuvasından didərgin düşmüşdü. Nəinki hansısa arzunu, istəyi reallaşdırmaq barədə fikirləşmək, yaşamağa belə ümidimizi itirmişdik...

Qəribə səslənməsin, həyat bizə şərtlərini diktə etdikcə, biz də qəbul etmək məcburiyyətində qalırdıq. Amma nə qədər çətin olsa da, elə həyatın diktə etdiyi tələblərə uyğun yaşamağın çəmini tapdıq. İş yerimi dəfələrlə dəyişməli oldum. Necə deyim, oradan-ora, buradan-bura daşındıq...

Həyat isə davam edirdi. Ailə qurdum. Uşaqlarımız dünyaya gəldi. Belə deyək ki, hər şeyimiz olsa da, doğma yurdumuz yox idi. Adımız qaçqın idi. Allahdan bircə istəyim vardı: Cəbrayılımıza qayıtmaq, burada işləmək... Müəllim kimi Cəbrayıla qayıdıb sinif otağına daxil olmaq ən böyük arzum idi.

Çox şükür, arzularımız gerçək oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyev qüdrətli ordusu ilə Qarabağı, Şərqi Zəngəzuru işğaldan azad etdi. Dualarımız qəbul olundu. 27 il işğalda qalan Cəbrayıl 7 günə azad edildi. İgid döyüşçülərimiz 27 illik yolu 7 günə qət etdilər. Ordu, əsl Sərkərdə, Müzəffər Ali Baş Komandan belə olar. Var olsun prezidentimiz! Məni ən böyük arzuma çatdırdı. İndi çox xoşbəxtəm. Torpağımın, Vətənimin xilaskarı bu doğma yurdda gözəl, 4 otaqlı mənzilin açarlarını mənə öz əli ilə təqdim etdi. 30 illik ağrı-acı, sıxıntılar axır ki, canımızdan çıxdı...

### İndi özümü ömrünün baharını yaşayan Bahar kimi hiss edirəm

İndi özümü ömrünün baharını yaşayan Bahar kimi hiss edirəm. Ermənilər toraqlarımızı işğal etməklə ömrümüzün baharını, arzu, istəklərimizi də əlimizdən almışdılar. Üç övladım, gəlinim var. Gənclik arzularımı indi həyata keçirmək imkanı qazanmışam. Burada möhtəşəm məktəbimiz var. Bəlkə də respublikamızda bu gözəllikdə ikinci bir məktəb yoxdur. Açılışını da Prezidentimiz özü etdi. 950 yerlik bir məktəbdir, hələlik 129 şagirdimiz var. Köç gəldikcə şagirdlərin də sayı artır.

Prezidentimizə Qarabağda aparılan geniş quruculuq işlərinə görə minnətdarlığımı bildirdim. Əlbəttə bu, dövlətimizin qüdrətindən xəbər verir. Tək Cəbrayıl yox, bütün Qarabağ, işğaldan azad olunmuş toraqlarımızın hamısı böyük tikinti meydanına çevrilib".

Bahar xanımın səmimi fikirlərini dinlədikdən sonra yeni mənzillərində hər zaman xoş sədalar eşitmələrini, xeyir işlər görmələrini arzulayıb digər ünvana üz tuturuq.





**Bahar Ağayeva:**

- Çox şükür, arzularımız gerçək oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyev qüdrətli ordusu ilə Qarabağı, Şərqi Zəngəzuru işğaldan azad etdi. Dualarımız qəbul olundu. 27 il işğalda qalan Cəbrayıl 7 günə azad edildi. İgid döyüşçülərimiz 27 illik yolu 7 günə qət etdilər. Ordu, əsl Sərkərdə, Müzəffər Ali Baş Komandan belə olar. Var olsun prezidentimiz! İndi çox xoşbəxtəm. Torpağımın, Vətənimin xilaskarı bu doğma yurdda, gözəl, 4 otaqlı mənzilin açarlarını mənə öz əli ilə təqdim etdi. 30 illik ağrı-acı, sıxıntılar axır ki, canımızdan çıxdı...



### "Biz ölüb yenidən dirilənlərdənik..."

Elə qapının zəngini vurmaq istəyirik ki, liftdən bir neçə şəxs çıxır və böyük sevinclə "bura bizim evimizdir" deyirlər. Bəlli olur ki, bura Fətullayevlər ailəsinin yeni mənzilidir. Övladları ilə birlikdə məktəbdən gəlirlər.

Ailənin böyüyü Anar Fətullayev şəhər məktəbində müəllim kimi çalışır. Elə söhbətə də Anar müəllim başlayır:

- 1993-cü ilin avqustun 23-də mənfur düşmən yalnız torpaqlarımızı işğal etmədi, həm də bizi mənəvi cəhətdən öldürdü. Evimizi, yurdumuzu, yaşayış yerlərimizi xarabazarlığa çevirdi. Biz 30 il mənəvi zülm içində yaşadıq. Yurdsuzluğun əzabını çəkdik. Alnımızın ortasında qaçqın damğası daşıdıq...

Haraları gəzmədik - İmişli, Sabirabad, Bakı...

Nəfəsimiz gedib gəlsə də, əlacsızlıqdan yaşasaq da, ruhumuz bu torpaqlarda qalmışdı. Müzəffər Ali Baş Komandan təkcə Qarabağı azad etmədi. Ümumiyyətlə, itirilmiş nəyimiz vardısa, özümüzə qaytarıb bizi dünyaya müzəffər xalq kimi tanıtdı.

Şükür ki, indi doğma Cəbrayılda, öz evimizdəyik. Özüm məktəbdə hərbi fəndən dərs deyirəm. Evimdə iki əsgər böyüyür. Oğlanlarım Elşadla, Rəşad deyirlər ki, bu dövlətin borcunu qaytarmaq mümkün deyil. Çalışacağıq, elə yaşayaq, elə işləyək, elə vətəndaş olaq ki, qalib Azərbaycanımızın adına layiq olaq.

Anar Fətullayevin həyat yoldaşı Fidan Sərməstova söhbətə qoşulur: "Elşadla, Rəşad dərs əlaçılarıdır. Sevinirik ki, bizim Qarabağ Universitetimiz var. Oğlanlarımın arzusu Qarabağ Universitetində oxumaqdır.

Prezidentlə görüşdə Qarabağa, işğaldan azad olunmuş torpaqlara, doğma yurda qayıdan vətəndaşlara qayğıya görə təşəkkür etdik. Dövlətimlə, Prezidentimlə qürur duyuruq. Cənab Prezidentin qətiyyətlə "Heç kim bizim daxili işimizə qarışa bilməz" sözləri bizi qürurlandırır. Bunu yalnız qüdrətli dövlətin qətiyyətli lideri deyə bilər. Bu sözlər bizim kimi vətəndaşların dövlətimizin gücünə, qüdrətinə olan inamını daha da artırır. Qarabağın xilaskarı, bu torpaqlara yenidən həyat verib bizi evlə, işlə təmin edən Prezidentimizə "Yaşa, var ol!" deyirəm.

Bundan sonra yoldaşımla birlikdə, övladlarımın oxuduğu məktəbdə çalışacağam. Evim, işim, gözəl həyatım - bunları mənə verən qüdrətli dövlətim var.

Hər gün evimin qapısın açıb içəri girəndə Allaha, Prezidentimizə dua edirəm. Hər dəfə qapımı açıb həyətə düşəndə, bu dağları, bu möhtəşəm yolları, bu gözəlliyi görüb "Yaşa, Azərbaycanım!" deyirəm".

Fətullayevlər ailəsinin sevincini paylaşmaq, xoş sözlərini eşitmək bizə müsbət enerji verir. Onlara yeni həyatlarında yeni-yeni uğurlar arzulayıb sağollaşırıq.





**Fidan Sərməstova:**

- Qarabağın xilaskarı, bu torpaqlara yenidən həyat verib, bizi evlə, işlə təmin edən prezidentimizə "Yaşa, var ol!" deyirəm.

Hər gün evimin qapısın açıb içəri girəndə Allaha, Prezidentimizə dua edirəm. Hər dəfə qapımı açıb həyətə düşəndə, bu dağları, bu möhtəşəm yolları, bu gözəlliyi görüb "Yaşa, Azərbaycanım!" deyirəm".

### "Ömrümüz boyu cənab İlham Əliyevə duaçı olacağıq"

Liftlə birinci mərtəbəyə enib həyətə yenicə qədəm qoymuşduq ki, qarşımıza nurani simalı bir ağsaqqal çıxır. Ömrünü pedaqoji fəaliyyətə həsr etmiş, el ağsaqqalı Siracəddin Hüseynov Bakıdan jurnalistlərin gəldiyini eşidib "izimizə" düşüb, "soraq verib" bizi tapdığını deyir. Elə həyətdəcə söhbətləşirik:

"Ay oğul, yaxşı ki, sizi gördüm. Ürəyim doludu sözlə. Prezidentlə görüşdə də bir-iki kəlmə dedim. Qoy sizin qəzetin vasitəsilə ürək sözlərimi dövlətimizin başçısına çatdırım. Şükür Allaha ki, indi öz evimizdə, öz yurdumuzdayıq. Ömrüm müəllimliklə keçib. 73 yaşım var. Həyatımı şagirdləri öyrətməyə həsr etsəm də, qaçqınlıq da bizə dərs verdi. Görmədiklərimizi gördük, bilmədiklərimizi həyat bizə öyrətdi.

Xalqımızdan, dövlətimizdən çox razıyam. 30 il dövlət qayğımıza qaldı. Çörəyimizi, suyumuzu verdi. Ata 18 yaşına çatan övladını ayırır ki, get, özünə həyat qur, müstəqil yaşa. Amma dövlət bizə bunu etmədi, axıra kimi yanımızda oldu...

Müzəffər Ali Baş Komandan İlham Əliyev torpaqlarımızı azad edib bizə yeni cənnət yaratdı. Həyatım boyu mən belə rahatlıq görməmişdim. Allah bu torpaqları düşməndən azad edən balaları qorusun. Allah şəhidlərimizə rəhmət etsin. Allah Qarabağı ağbəxtli edən Prezidentimizi bizə çox görməsin. Bu cür şərait, gözəllik görmək özü bir xoşbəxtlikdir. Bunu da dövlətimiz, Prezidentimiz bizə hədiyyə etdi.

Var olsun qüdrətli Azərbaycan dövləti! Çox sağ olsun Prezidentimiz! Bundan sonra Cəbrayılda xoşbəxt, firavan həyatımız başlayır. Ömrümüz boyu cənab İlham Əliyevə duaçı olacağıq, onun siyasətini dəstəkləyəcəyik".

Söhbətimizi yekunlaşdırıb yeni salınmış şəhəri gəzib dolaşırıq. Möhtəşəm binalar, sosial binalar, ictimai-iaşə obyektləri tikilib. Bu mənzərəni seyr etmək, bir qərinəyə yaxın zamandan sonra yurduna qayıdan soydaşlarımızın sevinclərinə şərik olmaq, Cəbrayılda həyatın yenidən qaynadığını görmək bizləri də qürurlandırır.





**Siracəddin Hüseynov:**

- Prezidentlə görüşdə də bir-iki kəlmə dedim. Qoy sizin qəzetin vasitəsilə ürək sözlərimi dövlətimizin başçısına çatdırım. Şükür Allaha ki, indi öz evimizdə, öz yurdumuzdayıq. Xalqımızdan, dövlətimizdən çox razıyam. 30 il dövlət qayğımıza qaldı.

Müzəffər Ali Baş komandan İlham Əliyev torpaqlarımızı azad edib, bizə yeni cənnət yaratdı. Həyatım boyu mən belə rahatlıq görməmişdim. Allah Qarabağı ağbəxtli edən Prezidentimizi bizə çox görməsin. Bu cür şərait, gözəllik görmək özü bir xoşbəxtlikdir. Bunu da dövlətimiz, Prezidentimiz bizə hədiyyə etdi.

*Rəşad BAXŞƏLİYEV,*
*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

*Bakı-Cəbrayıl-Bakı*







# Kərimin xüsusi təyinatı...

## ...Vətən, Qarabağ və Zəfər idi

◆Vətən oldu oğullar!



**Həyatda gözlənilməz hadisələr qaçılmaz olduğuna görə onunla tez-tez rastlaşırıq. Bu günlərdə Ucar rayonunun Alpout kəndinə torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə şəhid olmuş Əliyev Kərim Məhəmmədəli oğlunun valideynləri ilə görüşə gedərkən də təsadüfi bir hadisə ilə qarşılaşdıq. Bizim onun doğmalarını ziyarət etməyimiz şəhidin ad günü ilə üst-üstə düşmüşdü. İkinci Qarabağ müharibəsində şəhid olmasaydı, həmin gün Kərimin 26 yaşı tamam olacaqdı. Artıq üç ildir ki, valideynləri ad gününü onsuz qeyd edirlər.**
**Həyətdə məclis qurulmuşdu. Kərimin ad günü şərəfinə ehsan süfrəsi açmışdılar. Məclisin yuxarı hissəsində 44 günlük Vətən müharibəsinin şəhidlərinə həsr olunmuş "Əfsanəvi taborun şəhidləri", "Şəhidlər ölməz - Vətən bölünməz", "Ürəkləri fəth edən şəhidlər" adlı plakatlar asılmışdı.**

### Ata da, oğulları da Qarabağ müharibəsinin iştirakçıları olublar

Əvvəlcə şəhidin atası Məhəmmədəli Əliyevlə görüşdük. Gözlərindən kədər süzülən ataya dərin hüznlə başsağlığı verdik. Öyrəndik ki, Məhəmmədəli Əliyev 1992-1994-cü illərdə Qarabağ uğrunda gedən döyüşlərdə iştirak edib. Müharibənin od-alovundan keçib əsgər kimi üzərinə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəlib.





Həmin günlərdən söz açan Məhəmmədəli Əliyev dedi: "1992-ci ildə erməni qəsbkarları Qarabağda çox fəallaşmışdılar. Havadarlarına arxalanan qəsbkarlar aramsız olaraq azərbaycanlılar yaşayan kəndlərə hücum edir, silahsız, köməksiz qalmış sakinləri öldürür, evləri yandırıb darmadağın edirdilər. Bax belə çətin vaxtlarda evdə otura bilməyib könüllü olaraq döyüşlərə yollandım. Şuşa, Laçın, Tərtər, Goranboy, Qubadlı, Füzuli, Xocavənd və digər istiqamətlərdə gedən əməliyyatlarda iştirak etdim. Biz bütün gücümüz və bacarığımızla çalışırdıq ki, erməni qəsbkarlarının hücumlarını dayandıraq. Çünki hücumları dayandırmasaydıq, düşmən Qarabağın azərbaycanlılar yaşayan kəndlərinin hamısını işğal edib yandıracaqdılar. Erməni qəsbkarları ən müasir silahlarla təchiz olunduqlarına görə irəliləyirdilər. Biz isə silah-sursat sarıdan çətinlik çəkirdik. 1994-cü il mayın 12-də cəbhədə atəşkəs elan olundu. Bundan sonra bizi ordu sıralarından tərxis etdilər. Qayıdıb kəndimizə, evimizə gəldim. Doğma Qarabağımızın və onun ətrafındakı rayonların erməni işğalında qalması məni çox kədərləndirirdi. Bu vəziyyətlə heç cürə barışmaq istəmirdim. Əgər Qarabağ uğrunda müharibə yenidən başlasaydı, yenə də döyüşlərə yollanacaqdım. Amma tale elə gətirdi ki, Qarabağ uğrunda döyüşlərə mən yox, oğlanlarım Kərimlə Rəsul getdi. Rəsul müharibədən sağ-salamat qayıtdı, Kərimsə şəhid oldu. Nə etmək olar, qismətdən qaçmaq mümkün deyil..."

Şəhid atası ilə söhbətdən öyrəndik ki, oğlu Kərim Əliyev onun bir vaxtlar Birinci Qarabağ müharibəsi günlərində vuruşduğu Füzulidə, Cəbrayılda, Xocavənddə döyüşlərdə olub. Sanki atasının bu yerlərdə illər əvvəl yarımçıq qalmış döyüşlərini davam etdirib. Ata da, oğul da ayrı-ayrı zamanlarda, müxtəlif illərdə eyni amal, eyni məqsəd naminə - Qarabağın azadlığı uğrunda vuruşublar.

### Sonuncu döyüşü Xocavənddə oldu

Şəhid Kərim Əliyevin ömür və döyüş yolunu vərəqlədik. 1998-ci il avqustun 31-də Ucar rayonunun Alpout kəndində anadan olub. 2004-2015-ci illərdə kənddəki orta məktəbdə təhsil alıb. 2016-cı ildə 18 yaşı tamam olanda Kərim Əliyev yaşıdları ilə bərabər ordu sıralarına, Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirməyə yollanıb. Xidmətinin ilk günlərindən başlayaraq hərbi sirləri dərindən öyrənib. Çöl təlimləri zamanı hədəfləri dəqiq vuraraq bacarığı və çalışqanlığı ilə fərqlənib. 2018-ci ildə xidmətini başa vuraraq doğmalarının yanına qayıdıb. Xidmətdən döndükdən sonra evdə çox oturmayıb. Hərbçi olmaq arzusu ilə yenidən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi kiçik gizir rütbəsində Xüsusi Təyinatlı Qüvvələrin sıralarına daxil olub. 2020-ci il sentyabrın 27-də erməni işğalçılarının təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi yenidən alovlanıb. Düşmən hücumunun qarşısını almaq üçün onun xidmət etdiyi ordu hissələri döyüşə atılıb. Qısa müddət ərzində işğalçıların hücumlarının qarşısı qətiyyətlə alınıb.

Ürəyi Vətən eşqi ilə döyünən kiçik gizir Kərim Əliyev ön sıralarda vuruşub, böyük hünər və qəhrəmanlıq göstərib. Bu cəsur əsgərin döyüş yolu Cəbrayıldan, Füzulidən və Xocavənddən keçib. Həmin rayonların ərazilərinin erməni işğalçılarından təmizlənməsi uğrunda gedən döyüşlərdə igidliklə, cəsarətlə vuruşub. Təəssüflər olsun ki, onun döyüş yolu çox qısa olub. 19 oktyabr 2020-ci ildə Kərim Xocavənd rayonunun Qırmızıbazar kəndi uğrunda gedən döyüşlərdə düşmən gülləsinə tuş gəlib. Həm döyüş, həm də ömür yolu yarımçıq qalıb. Yaxınları, doğmaları oktyabrın 24-də Kərimi Alpout kəndində torpağa tapşırıblar.

44 günlük Vətən müharibəsində göstərdiyi igidliyə görə Əliyev Kərim Məhəmmədəli oğlu Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb.

### Kərimin otağı

Otağı indi Kərimin ev-muzeyinə çevrilib. Burada ona həsr olunmuş guşə düzəldilib. Guşəyə Kərimin müxtəlif illərdə çəkdirdiyi şəkilləri, şəhidlər haqqında yazılmış kitablar, nə vaxtsa ona verilmiş



hədiyyələr qoyulub. Onun bir vaxtlar axşamlar yuxuya getdiyi, səhər ertədən oyandığı çarpayısı da otaqdadı. Çarpayının üstünə səliqə ilə üçrəngli bayrağımızı səriblər. Bura gələnləri Kərimin böyüdülmüş şəkli qarşılayır. Şəkil o qədər canlı görünür ki, deyirsən bəs elə indicə dil açıb danışacaq, iştirakçısı olduğu döyüşlərdən söz açacaq...

Kərimin anası İlhamə xanımla görüşürük. Gözləri nəmli ana bizimlə bərabər oğlunun şəkillərinə baxa-baxa deyir: "Kərim ailəmizin sonbeşiyi idi. Evdə hamı onu çox istəyirdi. Çünki şən, mehriban uşaq idi. Əsgərlikdən qayıtdıqdan sonra



"hərbçi olacağam" - deyərək orduya yollandı. Deyirdi ki, nəyin bahasına olursa olsun, biz torpaqlarımızı qəsbkarlardan azad etməliyik. Qarabağ müharibəsi başlayanda Kərim də döyüşlərə yollandı. Bir gün səhər-səhər Kərimdən zəng gəldi. Adətən, o, bu vaxtlar telefon açmazdı. Səsindən hiss etdim ki, kefi kökdü. Onunla danışanda atəş səsləri eşitdim. Soruşdum ki, Kərim, bala, haradasan, bu güllə səsləri haradan gəlir? Dedi ki, ana, qorxma, narahat olma, mən Qarabağda döyüşdəyəm. Zəng etdim ki, səndən halallıq alım. Haqqını halal et. Əgər, şəhid olsam, göz yaşları töküb ağlama, saçlarını yolma. Oğullar Vətəni qorumaq üçün doğulur. Dözümlü ol, möhkəm dayan. Kədərin, ağrının qarşısında heç vaxt qəddini əymə. Ölüm xəbərimi eşitsən, bil ki, qəhrəman kimi şəhid olmuşam. Mənimlə bütün həyatın boyu iftixar duyacaqsan. Dedim ki, bala, mən sizinlə həmişə qürur duymuşam, fəxr etmişəm. Çalış ki, mənə bu acıları yaşatmayasan.

Arada yenə də Kərim zəng vurub danışırdı. Amma sonra onun zəngləri kəsildi. Çox nigaran qaldım. Oktyabrın 20-də böyük oğlum Rüstəm zəng vurdu. O da döyüşlərdəydi. Hiss etdim ki, nəsə səsində narahatçılıq var. Çünki Rüstəm heç vaxt belə həyəcanlı danışmazdı. Dedi ki, ana, Kərim yaralanıb onu evə gətiririk. Ana hissiyyatı ilə duydum ki, bu yaralanmaq deyil... Soruşdum ki, Rüstəm, bala, mənə təsəlli verən sözlər söyləmə, düzünü de, Kərim sağdı, yoxsa şəhid olub? Bu sorğumdan Rüstəmin səsi sanki bir anlıq uzaqlara gedib eşidilməz oldu. Sonra səsi titrəyə-titrəyə dedi ki, özünü ələ al, Kərim şəhid olub. Sarsıldım, Kərimli bütöv dünyam min yerə parçalandı...

### Doğmaları onunla həmişə fəxr edəcəklər

Guşədəki şəkillərə baxa-baxa şəhidlər haqqında yazılmış kitabları vərəqləyirik. Kərimin atası Məhəmmədəli bizə yaxınlaşıb deyir ki, şəhid haqqında kitab yazmaq müqəddəs işdir. Gərək belə müqəddəs işlər peşəkar insanlara tapşırılsın. Amma təəssüf ki, bəzən belə olmur. Buna görə də şəhidlər haqqında yazılan kitablarda bağışlanmaz səhvlər gedir. Kərimin otağına qoyduğumuz bu kitabların ikisində oğlumun ölüm tarixi düzgün yazılmayıb.



Şəhidlər ölməzdir. Onlar daim ürəklərdə, qəlblərdə və yaddaşlarda yaşayırlar. Şəhidin qardaşı Rüstəm Əliyev də hərbçi olub. 44 günlük Vətən müharibəsində iştirak edib. Xatirələrini çözələyən Rüstəm qardaşı haqqında çox hüznlü danışdı: "Kərim kiçik qardaşımdır. Amma əməlcə, məsləkcə məndən böyükdür. Kərim valideynlərinin başını Tanrı yanından uca edən, tarix yazan qəhrəmandı. Mən də Vətən müharibəsinin iştirakçısıyam. Amma məndən fərqli olaraq Kərim şəhidlik zirvəsinə ucaldı. Mən ömür boyu qardaşımın qəhrəmanlığı ilə fəxr edəcəm. Kərim fəxr etməli, qürur duyulmalı qardaşdır, ölməzlik yolunun yolçusudur. Mənə elə gəlir ki, ən böyük ucalıq da bax elə budur".

Həm xidmət, həm də döyüşçü yoldaşı olmuş gizir Ayar Abbasov Kərimlə iştirak etdikləri əməliyyatlardan söz açdı: "Heç vaxt unutmayacağım əziz dostumu Kərim Əliyevlə xidmətə 2019-cu ilin dekabr ayında Xüsusi Təyinatlı Qüvvələrdə eyni qrupda başlamışdıq. 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda biz onunla birgə təlimdəydik. Elə cəbhə xəttinə - Füzuli rayonuna da həmin gün təlimdən çıxıb getdik. Biz ön xəttə yetişəndə artıq torpaqlarımızın azadlığı uğrunda gərgin döyüşlər gedirdi. Bölməmiz gözləmədən rayonun Qaraxanbəyli kəndi istiqamətindən əks-hücuma keçdi. Əməliyyatların gedişindən hiss etdik ki, ermənilər bu istiqamətdə xeyli döyüş texnikası və canlı qüvvə cəmləyiblər.

Çox şiddətli, ağır döyüşlər gedirdi. Silahlar bir an olsun belə susmur, atəş səsləri yeri-göyü yerindən oynadırdı. Döyüşün qızğın çağında qrup komandirimiz kapitan Kamil Şirinov şəhid oldu. Kamillə Kərim çox yaxın dost idilər. Komandirin şəhid olması onu daha çox kədərləndirdi. O, göz yaşlarını saxlaya bilmirdi. Elə bu kədərli anlarında Kərim söz verdi ki, Kamilin qisasını düşmənlərdən almaq üçün son damla qanına qədər vuruşacaq. Döyüşçü dostum verdiyi sözə kişi kimi əməl etdi. Xatırlayıram ki, Hadrut istiqamətində döyüşərkən ağacın arxasında gizlənən erməni quldurunun bizə atəş açmaq istədiyini gördü. Dərhal qumbaranı çəkib, qəsbkarın üstünə atdı, onu yerindəcə məhv etdi. Həmin ərazidə gizlənə-gizlənə qaçan başqa bir erməni silahlısını yaxın məsafədən dəqiq atəşlə güllələyib öldürdü. Düşməni öldürəndə dedi ki, komandirimin qisasını aldım..."

Gizir Ayar Abbasov bir anlıq fikrə gedəndən sonra Cəbrayıl rayonu istiqamətində apardıqları döyüşlərdən söz açdı. "Qaraxanbəylidə mühasirə şəraitində vuruşurduq. Buna görə də verilən əmrə uyğun olaraq geri çəkilib Cəbrayıl rayonunun ərazisində döyüşə girdik. Ordumuz düşmənə sarsıdıcı zərbələr endirirdi. Oktyabrın 3-də demək olar ki, Cəbrayılın mərkəzi düşməndən azad edilmişdi. Üç gün orada vuruşduqdan sonra torpaqları düşməndən azad edə-edə Hadrut qəsəbəsinə gedib çatdıq. Hadrut uğrunda gərgin döyüşlər getdi... Kərimlə son döyüşümüz Xocavənd rayonunun Qırmızıbazar kəndi istiqamətində oldu. Əsgər dostumuzun nəyə qadir olduğunu bu döyüşlərdə daha yaxından gördük. Sözün həqiqi mənasında, Kərim əfsanəvi qəhrəman idi. Qrupumuza Xocavənddəki böyük strateji əhəmiyyətə malik olan yüksəkliklərdən birini azad etmək tapşırılmışdı. Yüksəkliyin ətəkləri şumlanmış əkin yerləri idi. Düşmənin postu hündür olduğuna görə bütün hərəkətimizi müşahidə edə bilirdi. Verilən məlumata görə, azad edəcəyimiz yüksəklikdə düşmənin haradasa 600 nəfərə yaxın canlı qüvvəsi cəmləşmişdi. Gərgin döyüşlər getdi. Oktyabrın 17-də düşmən snayperlə məni və başqa bir hərbi yoldaşımızı yaraladı. Bir neçə gündən sonra hospitalda özümə gəlib ayılanda Kərimin şəhid olduğunu eşitdim və çox sarsıldım".

### Şəhidlər həmişə ehtiramla anılırlar

Döyüşçü yoldaşı Mahir Məmmədov da Kərimli günlərindən söz açdı: "20 il XTQ-də xidmət etmişəm. Təəssüf ki, Kərim Əliyev kimi cəsur bir hərbçini əvvəllər tanımamışam. Qarşılaşdığım gündən onun mərd, cəsur bir hərbçi olduğunu görmüşəm. Döyüşlər zamanı bu gəncin göstərdiyi çox igidliklərinin şahidi olmuşam. Kərimlə ilk dəfə Füzuli rayonunun Qaraxanbəyli kəndi uğrunda gedən döyüşlərdə çiyin-çiyinə vuruşduq. Elə ilk dəqiqələrdən onu cəsarətli, igid bir əsgər kimi gördüm. Mən Xocavənd rayonundakı yüksəklik uğrunda gedən döyüşdə ağır yaralandım. Sonralar öyrəndim ki, əvvəlcə öldüyümü zənn edib məni "morq"a qoyublar. Nə yaxşı ki burada çalışanlardan biri nəfəsimin gedib-gəldiyini hiss edib. Ondan sonra məni reanimasiyaya yerləşdirmişdilər. Oktyabrın 23-də hospitalda özümə gəlib gözümü açan kimi Kərimi soruşdum. Təəssüf ki, dostumun şəhid olduğunu eşitdim. Bu üzücü, kədərli xəbər ürəyimi ağrıtdı, qəlbimi göynətdi. Kərim kimi qəhrəman oğullar heç vaxt ölmürlər ".





Şəhid Kərim Əliyevin yaxınlarının, doğmalarının, döyüşçü yoldaşlarının və dostlarının cəsur döyüşçü haqqında söylədiklərini maraqla dinlədik. Eşitdiyimiz qürur dolu sözlərdən Qarabağ uğrunda gedən döyüşlərdə böyük cəsarətlə vuruşmuş Kərim Əliyev gözümüzdə hünərin və rəşadətin ən yüksək zirvəsinə ucaldı. Onun kimi igid, mübariz və döyüşkən şəhid oğullar heç vaxt bu ucalıqdan enməyəcəklər. Çünki onların yerləri əbədi olaraq zirvələrdədir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

---

ZƏFƏR gündəliyi
19 oktyabr
2020-ci il

# İlham ƏLİYEV:
## "Ağıllarını başlarına yığmasalar, onların sonu çox acınacaqlı olacaq"

*Gecə saatlarında bütün cəbhəboyu döyüşlər davam edib.*
*Gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində, eləcə də Araz çayı boyu müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları aparılıb. Düşmən tərəfindən bölmələrimizin müdafiə mövqeləri atıcı silahlar, minaatanlar və toplardan atəşə tutulub. Azərbaycan Ordusunun fəaliyyətləri nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları və 11 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.*

### Erməni hərbi birləşmələri geri çəkiliblər

Bir çox istiqamətdə döyüş mövqelərini itirən Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında döyüş tapşırığı icra edən taborun komandiri şəxsi heyətlə birlikdə geri çəkilib. Alayın müdafiə sahəsində yerləşən 63-cü tank taborunun qərargah rəisi məhv edilib, 1-ci taborun komandiri və onun müavini Gevorq Makaryan isə yaralanıblar.

5-ci dağatıcı alayın müdafiə sahəsindəki taborun şəxsi heyətinin bir qismi məhv edilib, digərləri isə döyüş mövqelərini özbaşına tərk edərək qaçıblar. Ölənlər arasında tabor komandirinin müavini mayor Hayk Stepanyan da olub. Alayın bölmələrində ərzaq, yanacaq və döyüş sursatlarının çatışmazlığı barədə məlumat əldə edilib.

### Prezidentdən növbəti müjdəli xəbər




Prezident İlham Əliyev xalqa müjdəli xəbər verib. Ali Baş Komandan rəsmi "X" səhifəsində yazıb: "Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri azad edilmişdir. Qarabağ Azərbaycandır!"

### Ali Baş Komandan DSX-nin hərbi qulluqçularını təbrik edib

Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin rəisi (DSX) general-polkovnik Elçin Quliyevi Xudafərin körpüsündə Azərbaycan bayrağının qaldırılması və DSX-nin iştirakı ilə bir neçə yaşayış məntəqəsinin azad edil-



məsi münasibətilə təbrik edib və təbriklərinin bütün şəxsi heyətə çatdırılmasını tapşırıb. General-polkovnik E.Quliyev DSX-nin şəxsi heyətinin Ali Baş Komandanın bütün tapşırıqlarını bundan sonra da layiqincə yerinə yetirəcəyini məruzə edib.

### Tovuz və Daşkəsən rayonları atəşə tutulub

Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycanla dövlət sərhədində növbəti dəfə vəziyyəti gərginləşdirməyə cəhd göstərib. Saat 11:10-dan başlayaraq Berd rayonu istiqamətindən Tovuz rayonu, Vardenis rayonu istiqamətindən isə Daşkəsən rayonu ərazisindəki Azərbaycan Ordusunun döyüş mövqeləri iriçaplı silahlardan atəşə tutulub.

### Müdafiə Nazirliyi sosial şəbəkə istifadəçilərinə müraciət edib

Müdafiə Nazirliyi sosial şəbəkə istifadəçilərinə müraciət edib. Müraciətdə qeyd edilibki, son günlər bəzi sosial şəbəkə istifadəçiləri əməliyyatların aparıldığı istiqamətlə və cari vəziyyətlə bağlı müxtəlif şəxsi fikirlər paylaşaraq hadisələri qabaqlamağa çalışırlar.

Nazirlik bildirib ki, bu cür addımlar həm məxfilik rejiminin pozulmasına, həm də hərbi qulluqçularımızın həyatının təhlükəyə atılmasına səbəb ola bilər: "Bütün bunları nəzərə alaraq sosial şəbəkə istifadəçilərini və KİV nümayəndələrini rəsmi surətdə öz təsdiqini tapmamış məlumatları yaymamağa və yalnız Müdafiə Nazirliyinin rəsmi məlumatlarına istinad etməyə çağırırıq".

### Ermənistan razılaşdırılmış müvəqqəti humanitar atəşkəs rejimini pozub




"Ermənistan silahlı qüvvələri razılaşdırılmış müvəqqəti humanitar atəşkəs rejimini kobudcasına pozaraq oktyabrın 18-də saat 00:02-dən sonra Azərbaycanın yaşayış məntəqələrini və döyüş mövqelərini ağır artilleriyadan atəşə tutub".

Bu barədə Prezident İlham Əliyev özünün rəsmi "X" hesabında bildirir.

Dövlət başçısı qeyd edir ki, bu çirkin əməllər nəticəsində ölən və yaralananlar var: "Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək bir neçə yaşayış məntəqəsini işğaldan azad edib".

### Müzəffər Ali Baş Komandandan Ermənistana növbəti dərs



Prezident İlham Əliyev Rusiyanın TASS İnformasiya Agentliyinə videomüsahibə verərək Ermənistanın elan olunan atəşkəsi növbəti dəfə pozmasını faktlara əsasən izah edib.

İlham Əliyev deyib ki, Moskva danışıqlarından sonra Azərbaycan üzərinə götürdüyü öhdəliklərə əsaslanıb, həmin öhdəlikləri yerinə yetirməyə çalışıb. Lakin təəssüf ki, Ermənistan atəşkəs rejimini kobud şəkildə pozub: "Danışıqlardan sonra heç 24 saat keçməmiş Gəncə şəhərinə hücum edildi. Gecə vaxtı - yatmış Gəncə şəhərinin yaşayış məhəllələrinə məqsədyönlü şəkildə zərbə endirildi. Birinci hücumdan sonra, - iki hücum olub, - həlak olanlar və yaralananlar hədsiz çox idi. Yəni Ermənistan atəşkəsi nümayişkaranə şəkildə pozdu. Beləliklə, o, vasitəçilərə hörmətsizlik, Moskvada belə uzun danışıqlardan sonra öz üzərinə götürdüyü öhdəliklərə hörmətsizlik göstərdi".

Prezident bir daha Ermənistan rəhbərliyinə sərt xəbərdarlıq edib: "Əgər ağıllarını başlarına yığmasalar, onların sonu çox acınacaqlı olacaq. Biz baza prinsiplərinə tərəfdarıq, hesab edirəm ki, nizamlama mümkündür. Lakin bunun üçün erməni tərəfi elə indi, nə qədər ki gec deyil, nə qədər ki qarşımızda diz çöküb, bu prinsipləri qəbul etmək və münaqişəni qaynar fazadan siyasi nizamlama mərhələsinə keçirmək üçün onun hələ vaxtı var".

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*




AZERBAIJAN COP29

Yaşıl dünya naminə həmrəylik ili 2024



## Naxçıvan COP29-a hazırlaşır

**Azərbaycanın COP29 kimi mühüm beynəlxalq tədbirə evsahibliyi əlahiddə rəmzi məna daşıyır. COP tədbirləri iqtisadi-siyasi qüdrəti olan, bu qlobal platformanın məntiqinə uyğun siyasət aparan ölkələrdə keçirilir.**





# Naxçıvan "yaşıl enerji"nin mərkəzinə çevrilir

### Prezidentin dəstəyi ilə muxtar respublikada energetika sektoru qlobal innovasiyalara uyğun təkmilləşdirilir

### Yaşıl dünya naminə "yaşıl enerji"

Gündən-günə daha da çirklənən dünyada təmiz mühiti qorumaq məqsədilə Azərbaycan öz üzərinə mühüm vəzifə götürüb. Karbon emissiyasının azaldılması üçün Azərbaycan ciddi addımlar atır. Bu istiqamətdə "yaşıl enerji" əhəmiyyətli rol oynayır. Azərbaycanda ümumi enerji istehsalında "yaşıl enerji"nin payı 14 faizdir. Naxçıvan Muxtar Respublikasında isə bu rəqəm təqribən 50 faizdir.

Naxçıvan Muxtar Respublikasında bir gündə 130 000 kubmetr həcmində təbii qaza qənaət edilir. Məsələn, oktyabrın 11-də muxtar respublikanın 947 508 kv/saat elektrik enerjisinə tələbatı tam "yaşıl enerji" hesabına ödənilib. Digər günlərlə müqayisədə təqribən 130 min kubmetr həcmində təbii qaza qənaət edilib, həmin gün karbon emissiyası sıfıra düşüb.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində bu kimi uğurların əldə edilməsi muxtar respublikada alternativ enerji mənbələrindən daha səmərəli istifadəyə səbəb olacaq. Son illərdə qurulan alternativ və bərpaolunan enerji stansiyaları bunun bariz nümunəsidir.

Müasir dünyada enerji resursları siyasi-iqtisadi güc amilinə çevrilir. Bu kontekstdə Azərbaycan Avropanın enerji təhlükəsizliyində vacib rol oynayır. Amma elə enerji istehsalına nail olmalıyıq ki, ətraf mühitə zərər vurmasın. Azərbaycan bu istiqamətdə mühüm siyasət aparır. COP29 kimi əhəmiyyətli tədbirin ölkəmizdə keçirilməsi də buna misadır.

Azərbaycanın, o cümlədən onun bir hissəsi olan Naxçıvanın dünya "yaşıl enerji"sinə ciddi töhfələri var. Prezident İlham Əliyev dünya energetika sektorunda strateji düşüncə sahibi kimi qəbul olunur. Onun aparıcı ölkələrin rəhbərləri və dünyanın nüfuzlu enerji şirkətlərinin təmsilçiləri ilə davamlı müzaikrələri bu sahədə mühüm əhəmiyyət daşıyır.

Azərbaycan adətən neft ölkəsi kimi tanınır. Xeyli Avropa ölkəsini neft və qaz ilə təchiz edən ölkəmiz həmişə bu qitə üçün etibarlı tərəfdaş olub. Hətta ən çətin vaxtlarda belə Azərbaycan Avropanın enerji təminatında tərəddüd etməyib.

Ümumiyyətlə, ölkəmiz bütün beynəlxalq müqavilələrə sadiqdir. Paris sazişinin tələbinə görə 2030-cu ilə qədər ölkəmizdə "yaşıl enerji"nin payı 30 faizə çatdırılacaq.

Azərbaycan xüsusilə də energetika sektorunda uğurlu investisiya siyasəti aparır. Ölkəmizin xarici şirkətlətlə əməkdaşlıqda böyük təcrübəsi formalaşıb.

### Naxçıvanda enerji istehsalında yeni imkanlar

Prezident İlham Əliyev enerji siyasətində xarici investorlarla əməkdaşlığı əhəmiyyətli hesab edir. Naxçıvanda dünya enerji nəhənglərindən Total Energies, Czech Engineering, Nobel Energy, Masdar, ACWA Power, China Energy, Notus və digər şirkətlərlə "yaşıl enerji" layihələrinin reallaşdırılması üçün görüşlər keçirilir. Bu istiqamət üzrə yol xəritəsi hazırlanır.







Bu enerji investisiyalarının hamısı bərpaolunan və alternativ enerji sektoruna yönəldilib. Əslində, enerji nəhənglərinin Naxçıvana can atmasında bir məqam da vardır: Günəşli saatların çoxluğuna görə Naxçıvan dünyada əhəmiyyətli yerlərdən birini tutur.

Muxtar respublikada 2 İES, 5 SES, 3 GES, 1 KES, 1 Hibrid stansiya mövcuddur. Bunların ümumi generasiya gücü 244.8 MVt təşkil edir. Muxtar respublikanın Azərbaycanla quru əlaqəsi olmadığı üçün İran ilə bu sahədə sinxron rejimdə işləyir. Eyni zamanda Türkiyə ilə 100 MVt ötürmə gücü olan xətlər mövcuddur. Bu xətlər vasitəsilə enerji ixracı üçün Türkiyə tərəfi ilə müzakirələr yekunlaşıb. Yaxınlarda xətlərin istismarı üçün müqavilə bağlanacağı gözlənilir.

Ərazicə kiçik olan Naxçıvanda böyük enerji layihələri planlaşdırılır. Stansiyaların mövcud 244.8 MVt-lıq generasiya gücünü yaxın illərdə 1500 MVt-a çatdırmaq mükün olacaq. Bu o deməkdir ki, Naxçıvanda enerji istehsalı 5 dəfə artacaqdır.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda bu istiqamət üzrə aşağıdakı tədbirlər nəzərdə tutulur: Alternativ və bərpaolunan enerji mənbələrinin inkişaf etdirilməsi; dövlət-özəl tərəfdaşlığı ilə yeni enerji layihələrinin həyata keçirilməsi; yeni istilik elektrik stansiyasının tikintisi.

Dövlət proqramına əsasən "yaşıl enerji" istehsalı üçün 7992 ha ərazi ayrılıb. Artıq investisiya prosesi başlayıb. Yerli və xariçi şirkətlərlə memorandum imzalanıb. İndi bir neçə layihə üzrə "Texniki-iqtisadi əsaslandırma"lar təhlil edilir. Stansiyaların tikinti prosesinin başlanmasına az qalıb. COP29 tədbirinə qədər stansiyaların təməlatma mərasiminin olacağı planlaşdırılır. Bəzi şirkətlərə "yaşıl enerji" istehsalı üçün dövət tərəfindən 1000 ha ərazi ayrılıb.

Göründüyü kimi, Naxçıvanda energetika sektorunda ciddi investisiya imkanları mövcuddur. Naxçıvanın "yaşıl enerji" konsepsiyası, bölgənin enerji sektorunda yeni bir dövrün başlanğıcıdır. Bu konsepsiya gələcək nəsillər üçün daha yaşıl və təmiz mühit yaratmaq üçün önəmli addımdır. Bu məqsədlərə nail olmaq üçün, dövlət və özəl sektorlar birgə səylər göstərirlər.

***Tural MURTUZƏLİYEV,***
***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti rəisinin müavini***

# "Yaşıl mənbə"lərə mediatur təşkil edilib

**Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti COP29 tədbirləri çərçivəsində və Naxçıvanın "yaşıl enerji" zonası elan olunması ilə əlaqədar "yaşıl enerji" təşəbbüslərini təbliğ etmək, bu sahədə görülən işləri ictimaiyyətə çatdırmaq məqsədilə media nümayəndələri üçün mediatur təşkil edib.**

**Mediatur çərçivəsində muxtar respublikada qurulan və istismar olunan müxtəlif alternativ və bərpaolunan enerji stansiyalarına səfər olub.**











Xidmətin rəis müavini, rəis vəzifələrini müvəqqəti icra edən Məhərrəm Abbasov media təmsilçiləri qarşısında çıxış edərək Naxçıvanın "yaşıl enerji" potensialından söz açıb. Rəis müavininin sözlərinə görə, bu gün Naxçıvandakı stansiyaların generasiya gücü 244.8 MVt-dır. Amma yaxın illərdə 1500 MVt güc əlavə olunaraq enerji istehsalının 5 dəfə artırılması planlaşdırılır.

O, dövlət proqramına əsasən "yaşıl enerji" istehsalı üçün 7992 ha ərazi ayrıldığını qeyd edib: "Artıq investisiya prosesi başlayıb. Yerli və xarici şirkətlərlə memorandum imzalanıb. İlkin mərhələdə gücü 30 meqavat olan yeni günəş-elektrik stansiyası tikiləcək. Artıq bu stansiyasının tikilməsi üçün 688 hektar ərazi də ayrılıb".

Daha sonra media nümayəndələri Culfa Külək-Elektrik və Külək-Günəş Hibrid-elektrik stansiyalarına səfər ediblər. Stansiyaların sahə müdiri Ayaz Hüseynov qeyd edib ki, Culfada 3.3 hektar sahədə yerləşən və gücü 1.1 Mvt olan külək günəş-elektrik stansiyası yaradılıb. Stansiyada gücü 280 Vatt olan 3520 ədəd günəş panelləri və 20 ədəd gücü 50 kvt olan invertorlar quraşdırılıb. Həmçinin 12 ədəd gücü 10 Kvt olan külək turbini və 12 ədəd invertor quraşdırılıb. Hibrid-elektrik stansiyası ötən il 1 milyon 600 min Kvt/saat enerji istehsal edib.

Ərazidə, eyni zamanda ümumi gücü 0.3 Mvt olan külək-elektrik stansiyası da yerləşir. Stansiyada 10 ədəd gücü 30 Kvt olan külək turbini və 30 Kvt gücündə olan invertor quraşdırılıb. Bu stansiya ANE şirkəti və yerli mütəxəssislər tərəfindən ərsəyə gətirilib.

Jurnalistlər daha sonra Araz Su-Elektrik Stansiyası ilə tanış olublar. Məlumat verilib ki, stansiya Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilib istismara verilib. Stansiyanın ümumi generasiya gücü 22 meqavatdır. Araz dəryaçasının nominal su tutumu 1 milyard 250 milyon kubmetrdir, xüsusi hallarda qısa müddətdə 1 milyard 320 milyon kubmetrə qədər su yığıla bilər.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Bakıda keçiriləcək COP29 fəaliyyət konfransı olmalıdır



"Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) ölkələr inkişaf etməkdə olan ölkələrin ehtiyaclarına həqiqətən cavab verən beynəlxalq iqlim maliyyəsi üçün yeni hədəf barədə razılığa gəlməlidirlər. COP29 iqlim maliyyəsinin qlobal iqtisadiyyatı, milyardlarla insanın həyatını və dolanışıq vəsaitlərini iqlim dəyişmələrinin kədərləndirici nəticələrindən xilas etmək üçün əsas olduğunu qəbul edən fəaliyyət konfransı olmalıdır".

AZƏRTAC xəbər verir ki, bu barədə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (BMT İDÇK) icraçı katibi Saymon Stil Brukinq İnstitutunun Qlobal İqtisadiyyat və İnkişaf Proqramının onlayn tədbirində çıxışı zamanı bildirib.

"Bu yeni hədəfin necə görünəcəyini təxmin etmək mənim vəzifələrimə aid deyil. Amma aydındır ki, dövlətin maliyyələşdirilməsi onun əsas elementinə çevrilməlidir. Həmin vəsaitlərin mümkün qədər çox hissəsi pulsuz və ya güzəştli əsaslarla verilməli və bu, daha çox ehtiyacı olanlar üçün əlçatan olmalıdır", - deyə o qeyd edib.

İcraçı katib qeyd edib ki, mümkün olduqca daha çox özəl vəsait cəlb edərək və maliyyə bazarlarına "yaşıl investisiya"ların sərfəli olması barədə siqnallar göndərərək, iqlim maliyyələşdirilməsinin effektivliyini təmin etmək çox vacibdir.

# Amerikalı ekspert Azərbaycana qarşı çirkin kampaniya aparan "The Economist" nəşrini tənqid edib

Amerikalı ekspert Piter Teys Paraqvayın "Radio Kaaguaz 640 AM" radiosunun efirində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 haqqında danışıb.

AZƏRTAC xəbər verir ki, jurnalist İsidoro Bernalın suallarını cavablandıran ekspert noyabr ayında Bakıda keçiriləcək COP29 iqlim konfransı ilə bağlı məsələlərə toxunub.

Piter Teys AIDA fondunun (Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Beynəlxalq İnkişafa Yardım Agentliyi - red.) Paraqvayda iki dövlət ibtidai məktəbinin rekonstruksiyasının maliyyələşdirilməsinə əvəzsiz töhfəsini qeyd edib. O əlavə edib: "Onu da qeyd etmək istərdim ki, Paraqvay Milli Konqresinin keçmiş üzvləri Esmerita Sançes de Da Silv və Nikolas Benites Saquyer Paraqvay ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın inkişafı istiqamətində Azərbaycan hökuməti ilə sıx əlaqələr qurublar. Onlar Azərbaycanın milli maraqlarını və ərazi suverenliyini müdafiə ediblər. Paraqvay ilə Azərbaycan arasında tərəfdaşlıq iki ölkənin iqtisadi və ticarət əlaqələrinin möhkəmlənməsində böyük rol oynayan səfir Rəşad Aslanovun fəaliyyəti dövründə inkişaf edib".

Piter Teys Bakıda keçiriləcək iqlim sammiti ərəfəsində Azərbaycana qarşı çirkin kampaniya aparan "The Economist" nəşrini tənqid edib.

# "Yer kürəsi uşaqların gözü ilə" beynəlxalq fotomüsabiqəsi başlayır

Azərbaycanda IDEA İctimai Birliyinin dəstəyi ilə "Yer kürəsi uşaqların gözü ilə" adlı beynəlxalq fotomüsabiqə elan edilib. Fotomüsabiqə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) həsr olunur.




AZƏRTAC xəbər verir ki, layihə dünyaşöhrətli fotoqraf, "Reza Visual Academy"nin təsisçisi Reza Deqatinin təşəbbüsü ilə baş tutur.

"Yer kürəsi uşaqların gözü ilə" təkcə fotomüsabiqə deyil, eyni zamanda gələcək nəslin ətraf mühitə dair maarifləndirmədə və təbliğatda yol göstərməsi üçün fəaliyyət göstərməsinə çağırışdır. Müsabiqəyə dünyanın hər yerindən 18 yaşına qədər uşaq və yeniyetmələr təbiətin gözəllikləri, çirklənmə və iqlim dəyişikliyinin yaratdığı problemlər barədə fərqli baxışlarını fotolar vasitəsilə təqdim etməyə dəvət olunur.

"Mən təbiəti sevirəm, çirklənmədən qorxuram" devizi altında keçirilən müsabiqə gəncləri ətraf mühitə sevgilərini və planetimizin gələcəyi ilə bağlı narahatlıqlarını əks etdirən cəlbedici fotoşəkillər çəkməyə təşviq edir.

Qalib gələn fotoşəkillər COP29 çərçivəsində noyabrın 11-dən etibarən Bakıda Heydər Əliyev Mərkəzində sərgiləcək.

# Azərbaycanın növbəti idman nailiyyəti, diplomatik uğuru

## III MDB Oyunlarına ölkəmizin evsahibliyi barədə qərar dövlətimizə olan inamın ifadəsidir



**Azərbaycan dövləti ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi özünün ali konstitusion niyyətlərindən biri kimi müəyyən edib. Çoxşaxəli tarazlaşdırılmış xarici siyasət həyata keçirən respublikamız bütün dövlətlərlə suverenliyə və ərazi bütövlüyünə hörmət, sərhədlərin toxunulmazlığı və daxili işlərə qarışmama kimi beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsipləri əsasında dostluq münasibətlərinin qurulmasında maraqlıdır və buna nail olmaq üçün səy göstərir. Respublikamız dünyanın əksər ölkələri ilə belə münasibətlər qurmuşdur və əməkdaşlığı inkişaf etdirməkdədir.**

Azərbaycan Müstəqil Dövlətlər Birliyi çərçivəsində də əməkdaşlıq münasibətlərinin saxlanılmasında, MDB ölkələri ilə ikitərəfli əsaslarda iqtisadi, siyasi, hüquqi və humanitar sahələrdə münasibətlərin inkişaf etdirilməsində maraqlıdır.

Məlumdur ki, 1991-1992-ci illərdə xarici siyasət sahəsində ölkəmizin beynəlxalq aləmdə mövqelərinin möhkəmləndirilməsinə yönəldilmiş ardıcıl kursun hazırlanıb həyata keçirilməməsi, bəzi dövlət rəhbərlərinin beynəlxalq, regional və dövlətlərarası münasibətlərlə bağlı məsuliyyətsiz bəyanatları Azərbaycanın beynəlxalq nüfuzuna olduqca mənfi təsir göstərirdi. Bu özünü bəzi qonşu dövlətlərlə münasibətdə xüsusilə büruzə verirdi. Ermənistanla müharibə getdiyi bir şəraitdə yaxın qonşularımızdan Rusiya, İran, Mərkəzi Asiya respublikaları ilə münasibətlər keçmiş iqtidarın məsuliyyətsiz bəyanatları üzündən gərginləşmişdi. Ulu Öndər Heydər Əliyevin yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına 29 dekabr 2000-ci il tarixli müraciətində də ifadə olunduğu kimi, "ilk növbədə yaxın xariclə münasibətləri qaydaya salmaq, əlaqələri bərpa etmək lazım gəlirdi. Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması bu yöndə atılmış ilk addımlardan biri idi".

Ölkəmiz 21 dekabr 1991-ci ildə Alma-Atada Rusiya, Ukrayna və Belarusiya ilə birlikdə MDB-yə qoşulmaq haqqında razılığa gəlsə də, bu qərar rəsmiləşməmiş, yalnız 1993-cü ilin sentyabrında Ümummilli Lider Heydər Əliyevin parlamentə sədrliyi dövründə bu sənədin ratifikasiya edilməsi ilə MDB-nin tamhüquqlu üzvü olduq. Beləliklə, məhz Ulu Öndərin səyləri ilə bu quruma daxil olan keçmiş sovet respublikaları ilə birbaşa ikitərəfli əlaqələrin möhkəmləndirilməsi istiqamətində ardıcıl iş aparıldı. Xüsusən də Rusiya və 1993-cü ilin sonuna qədər Azərbaycanla kəskin münasibətlərə malik olan Mərkəzi Asiya respublikaları ilə əlaqələrin köklü surətdə yenidən qurulması üçün yeni forma və vasitələrdən istifadə edildi. Müstəqil Dövlətlər Birliyi ölkələri ilə iqtisadi əməkdaşlıq məsələlərinə yüksək diqqət yetirildi.

Prezident İlham Əliyevin respublikamıza rəhbərliyi dövründə isə MDB çərçivəsində əməkdaşlıq yeni mərhələyə qədəm qoydu, ölkəmiz üçün bu təşkilat bir çox sahələrdə uğurlu əməkdaşlığı reallaşdırdığı platforma olmaqla yanaşı, həm də Azərbaycanın üzləşdiyi təhlükəsizlik problemlərinə tərəfdaş dövlətlərin diqqətini cəlb etmək üçün əlverişli foruma çevrildi. Xüsusən Vətən müharibəsi və antiterror tədbirləri zamanı biz MDB çərçivəsində əməkdaşlığın önəmini praktik formada hiss etdik. Bu mənada Azərbaycan MDB ilə bərabərhüquqlu və faydalı əməkdaşlığa xidmət edən tərəfdaşlığın müxtəlif aspektlərdə genişləndirilməsində maraqlı və qətiyyətlidir. MDB Oyunlarının Azərbaycanda keçirilməsi barədə qərar da ilk növbədə bu aspektdən qiymətləndirilməlidir.

III MDB Oyunlarının Azərbaycanda keçirilməsi barədə qərar bu ilin aprel ayında verilib. Prezident İlham Əliyevin 10 iyul 2024-cü il tarixli sərəncamı ilə MDB Oyunları kimi əhəmiyyətli bir idman tədbirinin ölkəmizdə keçirilməsi üçün xüsusi Təşkilat Komitəsi yaradılıb.



Cənab Prezidentin oktyabr ayında baş tutan Rusiya səfəri zamanı, Moskvada MDB Dövlət Başçıları Şurasının iclasında da bu məsələ diqqət mərkəzində olub, dövlət başçımız 2023-cü ildə Minskdə uğurla keçmiş II MDB oyunları münasibətilə Belarusu təbrik edərək, növbəti ildə Azərbaycanın 10-dan çox şəhərində keçiriləcək bu oyunların Gəncəni ölkəmizin idman paytaxtına çevirəcəyini qeyd edib.

Bəs III MDB Oyunlarının Azərbaycanda keçirilməsi bizə nə vəd edir, yaxud bundan gözləntilərimiz nə olmalıdır? Bildiyimiz kimi, bu oyunlar ilk dəfə 2020-ci ildə planlaşdırılsa da, dünyada baş vermiş COVID-19 pandemiyası ilə əlaqədar təxirə salınmışdı. 2021-ci ilin sentyabr ayında Kazan şəhərində 9 ölkənin iştirakı ilə baş tutan oyunlarda idmançılarımızın qazandığı 16-sı qızıl olmaqla, ümumilikdə 60 medalla Azərbaycan yekunda 4-cü yeri tutmuşdur.

2023-cü ildə isə Belarusun evsahibliyi etdiyi II MDB Oyunları Minsk şəhərində reallaşmış, hətta təşkilata üzv olmayan ölkələrin könüllü iştirakına icazə verilmişdi. 6 mindən çox idmançının iştirakı ilə baş tutan bu oyunlarda, 10-u qızıl olmaqla, ümumi 62 medal qazanmaqla Azərbaycan yekunda ötən oyunlardakı kimi 4-cü yerə layiq görülmüşdü.

Minskdə baş tutan oyunlardan sonra Rusiya Prezidenti Vladimir Putin nitqində qeyd etmişdi ki, dünya idman tədbirlərinin siyasiləşməsi idman anlayışının süqutunu yaxın edir. Bu səbəbdən MDB Oyunları bütün idmançılarla ədalətli davranacaq və siyasiləşmədən davam edəcək. Belə prinsipial məqamda, qütbləşmənin dərinləşdiyi bir dövrdə III MDB Oyunlarına Azərbaycanın evsahibliyi barədə qərarın verilməsi ilk növbədə MDB coğrafiyasında ölkəmizə olan inamın göstəricisidir. Sirr deyil ki, bu və buna bənzər tədbirlərin təşkili qlobal arenada ölkəmizin imicinə birbaşa müsbət təsir edir. Bu oyunların Azərbaycana həvalə edilməsi ilk növbədə Prezident İlham Əliyevin ifadə etdiyi kimi, ölkəmizin sabitlik və təhlükəsizlik adası olmasının və MDB çərçivəsində bu reallığın tam formada qəbul edildiyinin göstəricisidir.

III MDB Oyunları, həmçinin mühüm idman hadisəsi olmaqla, Azərbaycanda idman hərəkatı üçün önəmli mərhələ sayılmaqla həm də xalqımızın mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin təbliği, eləcə də ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi baxımından önəm kəsb edəcək. Həmçinin Avroviziya, Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Formula-1 və COP29 kimi tədbirlərin ardınca ölkəmizə növbəti dəfə beynəlxalq tədbirə evsahibliyinin etimad göstərilməsi Azərbaycan gəncliyində milli özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intellektual potensialın inkişaf etdirilməsinə müsbət təsirini göstərəcək. Bu, eyni zamanda Azərbaycan Respublikasının hazırda məruz qaldığı ədalətsiz siyasi hücumlar fonunda informasiya müharibəsində ciddi qələbəsi və haqq səsinin bir daha dünyaya çatdırılması üçün önəmli platforma kimi çıxış edəcək. İqtisadi kontekstdən yanaşdıqda isə III MDB Oyunları Azərbaycanın mövcud gündəliyinə müvafiq olaraq turizm potensialına əsaslı təsir etməklə qeyri-neft sektorunda daha da hərəkətlənməyə səbəb olacaq.

Yuxarıda qeyd etdiyimiz aspektlərdən yanaşsaq, III MDB Oyunları tam mənada siyasi və iqtisadi uğur, habelə diplomatik dividenddir. Bu situasiya, eyni zamanda Azərbaycanın yaxın tarixdə keçdiyi müstəsna inkişaf yolu və bu sayədə belə böyük tədbirlərə evsahibliyi etmək gücünün bəyanı, Azərbaycan xalqının fundamental dəyər və məqsədləri, habelə ölkəmizdə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların tam təmin edildiyi siyasi kursun uğurudur.

***İbrahim ZAHİDLİ,***
***EU Business School Geneva məzunu***

# Almatıda "Alpamış Batır" dastanına həsr olunmuş beynəlxalq elmi-nəzəri konfrans keçirilib



Oktyabrın 17-18-də Qazaxıstanın Almatı şəhərindəki Dostluq Evində Qazaxıstan Respublikasının UNESCO və ICESCO üzrə Milli Komissiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Qazaxıstanın Qeyri-Maddi Mədəni İrs üzrə Milli Komitəsi və Muxtar Auezov adına İncəsənət və Ədəbiyyat İnstitutunun birgə təşkilatçılığı ilə "Türk xalqlarının mənəvi irsi dünya sivilizasiyası kontekstində: "Alpamış Batır" dastanı" mövzusunda beynəlxalq elmi-nəzəri konfrans keçirilib.

Türk Mədəniyyəti və İrsi Fondundan AZƏRTAC-a bildirilib ki, tədbirdə çıxış edən fondun prezidenti Aktotı Raimkulova rəhbərlik etdiyi təşkilatın türk mədəniyyətinin və irsinin beynəlxalq aləmdə tanıdılması istiqamətində genişmiqyaslı fəaliyyətlərindən söz açıb. O, fond tərəfindən həyata keçirilən layihələrin bərpa və muzeyləşdirmə, elmi-tədris, təhsil və yaradıcılıq istiqamətlərində mühüm rol oynadığını vurğulayıb. Həmçinin fondun aktual layihələri sırasında "Türk Dünyasının Mədəni İrsinin qorunması haqqında" Konvensiyası, ortaq türk mədəni irs obyektlərinin çoxdilli kataloqu - "TurkHeritage", ümumtürk dəyərlərinin geniş şəkildə işıqlandırıldığı silsilə sənədli filmlərin yayımlandığı "TURKDISCOVERY" rəqəmsal platformasına diqqəti çəkib.

"Türk dünyasının klassik qəhrəmanlıq dastanlarından olan "Alpamış Batır" dastanı bu gün ortaq dəyərimizə çevrilib. "Alpamış Batır" türk xalqlarının dəyərli və bədii yadigarı hesab olunur. O, qədim dövrlərin adət-ənənələrini, idrakını, dünyagörüşünü, gerçəkliyini aydın şəkildə təsvir edir. "Alpamış Batır" dastanı türk xalqlarına birliyi, mənəviyyatı aşılayan milli iftixara çevrilib. Odur ki, bugünkü tədbir gənc nəslin milli şüurunun formalaşması, inkişafı, türk xalqlarının kimliyinin və birliyinin qorunub saxlanması baxımından mühüm əhəmiyyət kəsb edir", - deyə Aktotı Raimkulova vurğulayıb.

Konfrans çərçivəsində Türk Mədəniyyəti və İrsi Fondu ilə Muxtar Auezov adına İncəsənət və Ədəbiyyat İnstitutunun birgə əməkdaşlığı çərçivəsində qazax, rus və ingilis dillərində nəşr olunan "Alpamış Batır" dastanının təqdimatı keçirilib. Bu nəşrin müxtəlif dillərdə yayımlanmasında məqsəd türk xalqlarının ortaq mənəvi irsini yaşatmaq, eləcə də geniş beynəlxalq auditoriyaya çatdırmaqdır.

Konfrans panel və sessiyalarla davam etdirilib. Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan və Rusiya Federasiyasından (Ufa, Kazan, Novosibirsk) tanınmış alimlər məruzələr söyləyiblər.

Həmçinin konfrans çərçivəsində "Alpamış Batır" dastanının UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi üçün beynəlxalq ekspertlər tərəfindən namizədliyinin irəli sürülməsi ilə bağlı müzakirələr aparılıb.

Beynəlxalq konfransda türkdilli dövlətlərdən, eləcə də digər xarici ölkələrdən alimlər - dilçilər, tarixçilər, filosoflar, dastançılar, folklorşünaslar, ədəbiyyatşünaslar, sənətşünaslar, mədəniyyətşünaslar, ali təhsil müəssisələrinin professorları iştirak ediblər.

Keçmişdən bu günə

# Mərkəzi Park, "Qüllə"abidəsi, "Orta əsrlərə aid su quyuları"





**Bu gün qədim Bakının istənilən səmtinə yolu düşənlər yeni göydələnlər, rahat magistral yollar, körpülər, keçidlər, göz oxşayan parklar, fontanlar, istirahət guşələri, qalereyalar və yerli tarixi abidələrlə rastlaşa bilərlər.**







Belə məkanlardan biri də şəhərin köhnədən "Sovetski" deyilən ərazisində salınan Mərkəzi Park və burada qədim Bakıya ilk dəfə içməli su çəkilişi barədə tarixi özündə əks etdirən "Qüllə" abidəsidir. Xatırladaq ki, Prezident İlham Əliyevin birbaşa göstərişinə, habelə Nazirlər Kabinetinin müvafiq qərarlarına uyğun olaraq bu ərazidə abadlıq və yenidənqurma işlərinə 2013-cü ilin noyabr ayında start verilib və işlər mərhələlərlə icra olunmaqdadır.

### Sakinlərin və turistlərin mədəni istirahətinə yüksək xidmət

Azərbaycan Prezidentinin "Bakı şəhərinin Yasamal rayonu ərazisində Füzuli meydanının ətrafındakı yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması və abadlıq işlərinin aparılması ilə bağlı bəzi tədbirlər haqqında" 2016-cı il 4 avqust tarixli sərəncamından sonra bu ərazidə işlər yeni mərhələyə qədəm qoymuşdur. Mərkəzi Park Qış Bulvarının davamı olaraq Azərbaycan Dövlət Akademik Milli Dram Teatrından Nəriman Nərimanov prospektinədək, Nizami metrostansiyasının yaxınlığından Balababa Məcidov, Abdulla Şaiq və Süleyman Rəhimov, Vidadi, Murtuza Muxtarov, Mirzağa Əliyev küçələrinin əhatə etdiyi əraziləri özündə birlədirməklə Hüseyn Cavid bağının yaxınlığına doğru böyüməkdədir.

Ərazi orijinal layihə əsasında yüksək səviyyədə abadlaşdırılıb, müasir tələblərə uyğun yeni istirahət parkı salınıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2019-cu il mayın 22-də Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın açılışında iştirak ediblər.

Avstriyanın məşhur memarı Yans Hoffmanın layihələndirdiyi Mərkəzi Parkın ən mühüm xüsusiyyəti Nəriman Nərimanov prospektindən Heydər Əliyev Sarayınadək olan ərazidə piyadalara yol keçmədən maneəsiz hərəkət imkanının yaradılmasıdır. Parkda gəzintidə olanlar, vaxtilə həmin ərazinin yaxınlığında yaşamış, indi isə uzaq ölkələrdən, böyük şəhərlərdən doğma Bakını ziyarətə gələnlər bu mənzərə ilə rastlaşanda gözlərinə inana bilmirlər. Parkda bütün yaş qruplarından olan insanlar üçün 7 istirahət və oyun meydançası, şahmat, nərd və idman qurğuları, 9 fəvvarə, balacalar üçün yelləncəklər, futbol meydançası və sairə var. Parkda yaşıllıqları suvarmaq üçün 6.5 kilometrdən çox sahədə damcılama üsulu tətbiq edilmiş, drenaj xəttlər çəkilmişdir. Parkın ərazisində əkilmiş ümumilikdə 2.500-dən



çox 19 növ ağac, 157 mindən artıq gül və kol bitkiləri göz oxşayır.

### Prezident İlham Əliyevin tövsiyəsi ilə ucaldılan ilk su "Qüllə" abidəsi

Günün bütün vaxtlarında Mərkəzi Parkda istirahətə və gəzintiyə gələnlərlə rastlaşmaq mümkündür. Onların arasında turistlər çoxluq təşkil edir. Burada vaxtlarını səmərəli keçirən insanlar, xüsusən də əcnəbi vətəndaşlar Bakıya ilk dəfə içməli su çəkilişi haqqında məlumatı özündə əks etdirən, ictimaiyyət arasında "Su Qülləsi" kimi tanınan "Qüllə" abidəsi və "Orta əsrlərə aid su quyuları" önündə xatirə şəkli çəkdirməkdən xoşhal olurlar. Xatırladaq ki, 1917-ci il yanvarın 22-də Şollar-Bakı su kəmərinin təntənəli açılışı olmuşdur. Kəməri bu gün "İçərişəhər" metrostansiyası qarşısında heykəli ucalan millət atası Hacı Zeynalabdin Tağıyev özü işə salmışdır. Bu münasibətlə şəhərin məhəllələrində və məscidlərdə qurbanlar kəsilmiş, ehsanlar verilmişdir. "Qüllə" abidəsinin içərisində öz vəsaiti hesabına Sollar suyunun Bakıya çəkilməsində böyük xidmətləri olmuş xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin portretinin görüntüsü tamaşa edənlərdə böyük məmnunluq doğurur.

Bakının qədim tarixini xatırladan abidədən məlum olur ki, köhnə Bakının atributlarından olan bu cür su qüllələri XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakıya Şollar su kəmərinin çəkilişi ilə əlaqədar şəhərin müxtəlif məhəllələrində tikilib və yerli sakinlər arasında "Qüllə" kimi tanınıb. Bunlar uzun illər əhalinin içməli su ilə təminatında mühüm rol oynayıb. "Qüllə"lərdən ötən əsrin 50-ci illərinədək istifadə edilib.

### Bakı sakinlərinin su təchizatını təmin edən "Orta əsrlərə aid su quyuları"

"Orta əsrlərə aid su quyuları" isə İçərişəhər ətrafında məhəllələrdə Təzəpir məscidinin və Mərkəzi Parkın yerləşdiyi bu ərazilərdə salınmışdır. XX əsrin əvvəllərində Şollar su kəməri çəkilənədək Bakını su ilə bu cür quyular və vahid kəhriz sistemi təmin etmişdir. Bu quyuların bir neçəsindən indi də yaşıllıqların salınmasında, o cümlədən Mərkəzi Park ərazisində aparılan suvarma işlərində istifadə edilir.

### Gözəlləşən Bakı

Son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq şəhər sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni-yeni yaşıllıq zolaqlarının salınması, qədim tarixi memarlıq nümunələrinin bərpası, müasir göydələnlərin tikilib istifadəyə verilməsi paytaxtımızı daha da abadlaşdırıb. Bütün bunlar Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirib. Bunu istər paytaxt sakinləri, istərsə də şəhərimizin qonaqları dəfələrlə vurğulayırlar.

Əminliklə demək olar ki, noyabrda keçiriləcək COP29 beynəlxalq tədbir iştirakçıları və qonaqları tarixiliklə müasirliyi özündə ehtiva edən Bakının simasını daha da gözəlləşdirən, paytaxt sakinlərinin və turistlərin mədəni istirahətinə xidmət ünvanına çevrilən Mərkəzi Parkda gəzintidən zövq alacaqlar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# REGİONLAR

## Masallıda Milli Qəhrəmanın ad günü qeyd edilib

**Masallının Sərçuvar kəndində Azərbaycanın ilk Milli qəhrəmanlarından olan Səfəralı Qurban oğlu Məmmədovun anadan olmasının 61-ci ildönümü qeyd edilmişdir.**

1963-cü ildə doğulan Səfəralı Məmmədov 1983-cü ildə hərbi xidmətini başa vurduqdan sonra Rusiyanın Krasnovodsk şəhərində daxili işlər sistemində çalışmışdır. Təhsilini Bakı Xüsusi Orta Milis Məktəbində davam etdirən S.Məmmədov 1990-cı ildə həmin məktəbi bitirərək leytenant rütbəsi almışdır. S. Məmmədova Bakı Hava Limanında iş təklif edilsə də o, Qarabağ müharibəsində iştirak etməyə üstünlük vermişdir. Ağdam rayonunda taqım komandiri kimi döyüşlərdə iştirak edən



S.Məmmədovun son döyüşü 1992-ci il fevralın 16-da olmuşdur. Azğınlaşmış erməni işğalçılarının Xocavənd rayonunun Qaradağlı kəndinə hücum zamanı insanları vəhşicəsinə qətlə yetirdikləri bir zamanda S. Məmmədovun başçılıq etdiyi dəstə düşmən yaraqlılarını məhv edərək irəliləməyə başlamışdır. Lakin onun idarə etdiyi maşın qumbaraatanla vurulmuş və igid döyüşçü həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli sərəncamı ilə Məmmədov Səfəralı Məmmədova "Azərbaycanın Milli Qəhrəmanı" (ölümündən sonra) adı verilmişdir.

Milli Qəhrəman doğulduğu Sərçuvar kəndində dəfn olunmuşdur. Masallı şəhərində küçələrdən birinə və təhsil aldığı məktəbə qəhrəmanın adı verilmiş, məktəbin həyətində büstü qoyulmuşdur.

## Laçın və Ağalıda daha bir qrup sakinə özünüməşğulluq proqramı çərçivəsində aktivlər təqdim olunub

### Füzuli şəhərinə köçürülən sakinlərdən isə 1000-dən çox şəxsin məşğulluğu təmin edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunan ərazilərimizdə özünüməşğulluq proqramının icrası işlərini davam etdirir.**

Laçın rayonuna və Zəngilanın Ağalı kəndinə köçürülən sakinlərdən daha bir qrup şəxsə agentlik tərəfindən özünüməşğulluq proqramı çərçivəsində aktivlər verilib.

Laçın rayonunda aktivlərin təqdim edilməsi tədbirində iştirak edən Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Sadiq Əliyev, Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Hüseyn Quliyev proqram iştirakçıları ilə görüşüb, həmin sakinlərin yeni qurduqları təsərrüfatlara dair planları ilə maraqlanıblar.

Verilmiş avadanlıqlar hesabına proqram iştirakçıları un məmulatları istehsalı, qadın gözəllik salonu, dərzi sexi, kişi bərbərxanası, dönərxana və broyler inkubatoru xidmətləri üzrə kiçik biznes sahələrini yaradıblar.

Beləliklə, Böyük qayıdış proqramı çərçivəsində doğma yurdlarına köçürülən sakinlərdən özünüməşğulluq proqramı vasitəsilə kiçik təsərrüfatları yaradılan şəxslərin sayı artıq 131-ə çatıb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun möhtəşəm Zəfər qazandığı 44 günlük Vətən müharibəsinin 21-ci günü - 2020-ci il oktyabrın 17-si Füzuli şəhərinin və ətraf kəndlərinin erməni işğalından azad edildiyi gün kimi tariximizə yazılıb. Dövlət başçısının 2023-cü il 31 iyul tarixli sərəncamına əsasən, 17 Oktyabr - Füzuli Şəhəri Günü kimi qeyd edilir.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunan ərazilərimizə köçürülən sakinlərin aktiv məşğulluq proqramları ilə əhatə olunması işlərini aparır. Füzuli şəhərinə köçürülən sakinlərdən də artıq 1018 nəfərin məşğulluğu təmin edilib.

Özünüməşğulluq proqramı çərçivəsində həmin sakinlərdən 35 nəfəri üçün kiçik təsərrüfatlar qurulub, yaxın günlərdə daha bir qrup sakin üçün də təsərrüfatlar yaradılacaq. Sakinlərdən 28 nəfər isə peşə hazırlığı kurslarına cəlb edilib.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Şirvanda Vətən müharibəsi şəhidinin xatirəsi anılıb

**Şirvanda Vətən müharibəsi şəhidi Elvin Sarvan oğlu Şıxəliyevin anım günü tədbiri keçirilib.**



Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, Dövlət Təhlükəsizliyi Xidmətinin Şirvan şəhər şöbəsinin rəisi Mehman Qasımov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şirvan şəhər şöbəsinin rəisi Ramil Əhmədov, şəhid ailələri, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri anım tədbirindən öncə Elvin Şıxəliyevin və digər şəhidlərin məzarları ziyarət olunub, ruhlarına dualar oxunub.

Çıxış edən İ.Abbasov şəhidin ailəsinə səbir diləyib, belə vətənpərvər oğul böyütdükləri üçün minnətdarlığını bildirib. Vətən müharibəsinin Azərbaycanın tarixinə qızıl hərflərlə yazıldığını bildirən natiq 44 günlük savaşda qəhrəmanlıq göstərmiş Azərbaycan Ordusunun şücaətindən danışıb. Vurğulayıb ki, bu zəfər torpaqlarımızın işğaldan azad olunması və ölkəmizin ərazi bütövlüyünün təmin olunması baxımından tarixi bir hadisədir. ŞİH-in başçısı qeyd edib ki, Şirvan şəhəri də daxil olmaqla ölkəmizdə şəhid ailələri və müharibə əlilləri dövlət başçısının hərtərəfli diqqət və qayğısı ilə əhatə olunub, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətlərində zəruri tədbirlər görülüb.

Digər çıxış edən natiqlər də 44 günlük Vətən müharibəsindən, şəhidlərimizin qəhrəmanlıq nümunələrindən, Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşlara və şəhid ailələrinə dövlət tərəfindən göstərilən yüksək diqqət və qayğıdan danışıblar.

Şəhid Elvin Şıxəliyev 1995-ci il iyunun 6-da Şirvan şəhərində dünyaya göz açıb. Şəhər 18 nömrəli tam orta məktəbi bitirən Elvin Vətən müharibəsi başlayan gündən ön sıralarda olub, Füzuli, Cəbrayıl, Xocavənd və Hadrut istiqamətlərində gedən döyüşlərdə iştirak edib, 14 oktyabr 2020-ci il tarixdə şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Cəlilabadda "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində müşavirə keçirilib

**Cəlilabadda "Yaşıl dünya naminə həmrəylik ili" ilə bağlı rayonda görülən işlər və qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilib. Tədbirdə rayonun icra strukturlarının, idarə və təşkilatların rəhbərləri, RİH-in şəhər və kənd inzibati ərazi dairəsi üzrə nümayəndələri və bələdiyyə sədrləri iştirak ediblər.**

RİH başçısı Rafiq Cəlilov çıxışında Prezident İlham Əliyevin 25 dekabr 2023-cü il tarixli sərəncamı ilə Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinin cəmiyyətin qarşısında mühüm vəzifələr qoyduğunu vurğulayaraq ətraf mühitin qorunması və mühafizəsi sahəsində hər bir vətəndaşın üzərinə böyük məsuliyyət düşdüyünü qeyd etmişdir. R.Cəlilov eyni zamanda gələn ay Bakıda keçiriləcək COP29-la bağlı oktyabrın 1-dən ölkəmizdə "İqlim aylığı" elan olunduğunu, bu müddət ərzində atmosfer havasına tullantı atan müəssisələrdə qaz-toztutucu qurğuların işlək vəziyyətə gətirilməsi, əhali arasında maarifləndirmə işlərinin aparılması, ərazilərdə tullantıların, quru otların və xəzəllərin yandırılmaması, mövcud olan bərk məişət tullantıları poliqonlarında yanma, tüstüləmə hallarına yol verilməməsi üçün aidiyyəti qurumlara müvafiq göstərişlər vermişdir.




"Yaşıl dünya naminə həmrəylik ili" ilə bağlı rayonda keçirilən tədbirlərdən, iməcilik və ağacəkmə aksiyalarından bəhs edən RİH-in başçısı cari il oktyabr ayının 18-dən 28-dək Ələt-Astara yolunun Cəlilabad rayonunun ərazisindən keçən 19 kilometrlik hissəsində həmişəyaşıl ağacların əkiləcəyini elan etmiş və müşavirə iştirakçılarını həmin aksiyada fəal iştirak etməyə çağırmışdır.

Tədbirdə iştirak edən idarə və təşkilat rəhbərləri ətraf mühitin qorunması və yaşıllaşdırma aksiyalarının davamlı olmasının ölkəmiz üçün mühüm əhəmiyyət kəsb etdiyini bildirmişlər.

*"Azərbaycan"*

## "Ağıllı kənd"lər sırasına biri də qoşulur

### Füzulinin Dövlətyarlı kəndinə həyat yeni keyfiyyətdə qayıdacaq

**Azərbaycanın bu payızı başqa payızdır. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, müxtəlif sərgilər Azərbaycanın işgüzar imicinə payız rəngi qatır. Xüsusən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının gələn ay keçiriləcək 29-cu sessiyası (COP29) qlobal tədbir kimi Azərbaycan tarixinin yaddaşına əbədi yazılacaq.**

Bir neçə gün öncə baş tutan ikigünlük "Xəzər İnşaat Həftəsi"ni də payız sərgisi hesab etmək olar. Məlumat üçün bildirək ki, ilk dəfə 2003-cü ildə keçirilən bu tədbir tikinti və infrastruktur sahəsində böyük maraqla qarşılanır. Mühüm tədbirləri bir ad altında birləşdirən "Xəzər İnşaat Həftəsi" dünyanın bir sıra ölkələrində fəaliyyət göstərən tikinti sektorunun tanınan şirkətlərini bu dəfə də "Bakı-Ekspo" Mərkəzində bir araya gətirmişdi. 22 ölkədən 370-dən artıq şirkətin yer aldığı tədbir çərçivəsində Azərbaycan Beynəlxalq Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı "Rebuild Karabakh", 29-cu Azərbaycan Beynəlxalq İnşaat "BakuBuild", 16-cı Beynəlxalq İstilik, Havalandırma, Kondisionerləşdirilmə, Su təchizatı, Santexnika və Üzgüçülük Hovuzu "Aquatherm Baku", eləcə də 12-ci Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat "Road&Traffic" sərgiləri ziyarətçilər tərəfindən maraqla qarşılandı.

Təşkilatçıları "Caspian Event Organisers", "Iteca Caspian" və onların beynəlxalq tərəfdaşları olan "ICA Events" və "Caspian Event Management FZ-LLC" şirkətləri olan sərgi işğaldan azad edilən torpaqlar üçün investisiyaların həcmini artırmaq, xarici şirkətlərin Qarabağın inkişafında, infrastrukturunun bərpasında, mülki obyektlərin tikintisində iştirakını gerçəkləşdirmək yönündə atılan növbəti addım idi. Təqdim olunan innovativ məhsullar, xidmətlər və həllərin müxtəlifliyi Qarabağda birgə layihələrin həyata keçirilməsi üçün müxtəlif sənaye sahələrinin nümayəndələri arasında yeni müqavilələr bağlamaq imkanı yaratdı.

"Xəzər İnşaat Həftəsi" çərçivəsində Azərbaycan Beynəlxalq Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı "Rebuild Karabakh" işğaldan azad olmuş ərazilərimizin bərpasına həsr edilən yeganə və ilk ixtisaslaşmış sərgi idi. Sərgi həm də bir çox dövlət qurumları və nazirliklər tərəfindən dəstəklənən özəl sektor-dövlət tərəfdaşlığını möhkəmləndirmək üçün cəlbedici və səmərəli biznes platforması idi. Xatırladaq ki, "Rebuild Karabakh" ilk dəfə ənənəvi "Xəzər İnşaat Həftəsi"nin bir hissəsi olaraq 2021-ci ilin oktyabrında "Bakı-Ekspo" Mərkəzində keçirilmişdir. O zaman üç gün ərzində "Xəzər İnşaat Həftəsi"nə gələn ziyarətçilər dünyanın 17 ölkəsindən 279 şirkətin məhsulları ilə tanış olmuşdular.

"Rebuild Karabakh" sərgisi bu il 4-cü dəfə idi ki, təşkil edilmişdi. Sərginin məqsədi düşmən əsarətindən qurtulan əzəli və əbədi yurd yerlərimizdəki müsbət dəyişiklikləri dünya ictimaiyyətinə çatdırmaq, eləcə də Qarabağ və Şərqi Zəngəzurun bərpası proseslərinə təşkilatları və müəssisələri cəlb etmək idi. Sərgidə dünyanın müxtəlif ölkələrinə məxsus şirkətlər regionun biznes imkanları ilə tanış olaraq yeni əməkdaşlıq imkanları qazandılar. Tədbir məzmun və iştirakçılar baxımından da əvvəlkilərdən fərqli olaraq bəzi yenilikləri ilə yadda qaldı.



Təqdim olunan ekspozisiyalar və müzakirə mövzuları bərpa-quruculuq işlərini, həmrəyliyi və ekoloji davamlılığı nəzərdə tuturdu. Burada investisiyalar, ekologiya, energetika, informasiya texnologiyaları, inşaat, inşaat materialları, kənd təsərrüfatı, kimyəvi məhsulların topdansatışı, mədənçilik, nəqliyyat, təhlükəsizlik, yol tikintisi üzrə bölmələr ziyarətçilərin marağına səbəb olmuşdu. Sərgilənən innovativ məhsullar, xidmətlər və həllərin müxtəlifliyi Qarabağda birgə layihələrin həyata keçirilməsi üçün müxtəlif sənaye sahələrinin nümayəndələri arasında yeni müqavilələr bağlamaq fürsəti vermişdi. Məhz həmin fürsət sərgi iştirakçılarının panel müzakirələrdə gördükləri iş barədə məlumat vermələrinə zəmin yaratmışdı. Məsələn, belə müzakirələrin birində Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktorunun müavini Səbuhi Abdullayev məlumat verdi ki, Füzulinin Dövlətyarlı kəndində hazırlıq işləri tamamlanıb və bu kənd "ağıllı kənd" layihəsi kimi sistemləşdiriləcək.Tikintinin 1-ci mərhələsində kənddə 450 fərdi evin inşası nəzərdə tutulur. Kənddə alternativ enerji mənbələrindən, "yaşıl enerji"dən istifadə ediləcək. Burada məktəb, uşaq bağçası, kənd meydanı, bazar və digər infrastruktur obyektləri də inşa olunacaq: "Cuvarlı, Qarğabazar, Qoçəhmədli və Dədəli kəndlərində isə layihələndirmə işləri davam edir. Həmçinin Pirəhmədli kəndində bərpa işlərinə başlanılır. Füzuli şəhərinin mərkəzində, Zəfər yolunun kənarında salınan çoxmənzilli binalarda 822 ailə məskunlaşıb. Bu isə 3132 nəfər sakin deməkdir. Şəhərdə 38 çoxmərtəbəli bina, eləcə də 846 mənzildən ibarət 4, 5 , 6 və 7 mərtəbədən ibarət evlər inşa edilib. Baş plana uyğun olaraq şəhərdaxili yolların uzunluğunun 87 kilometrdən çox olması nəzərdə tutulub".

Məlumat üçün bildirək ki, 2021-ci il aprelin 26-da Prezident İlham Əliyev Zəngilan rayonuna səfəri zamanı 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin təməlini qoymuşdu. Bununla da işğaldan azad olunmuş ərazilərdə müasir çağırışlara cavab verən, beynəlxalq standartlara əsaslanan yeni quruculuq modelinin tətbiqinə başlanılmışdı. İndi həmin kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri əhalinin xidmətindədir, turizm infrastrukturu formalaşıb. Həmçinin bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin olunub.

"Xəzər İnşaat Həftəsi" çərçivəsində "Rebuild Karabakh" sərgisi bir daha göstərdi ki, yaxın zamanlarda bərpası başa çatacaq "ağıllı kənd" Dövlətyarlıya və digər yaşayış məskənlərinə həyat yenidən qayıdacaq, özü də müasir keyfiyyətdə.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## "Qızlar iqlim fəaliyyətinin mərkəzində"

**BMT-nin Əhali Fondunun Azərbaycan nümayəndəliyinin təşkilatçılığı, COP29-un İqlim üzrə Gənclər Çempionunun və "Forest School Azerbaijan"ın dəstəyi ilə Lənkəran şəhərində "Qızlar iqlim fəaliyyətinin mərkəzində" adlı düşərgə təşkil olunmuşdur.**

Ölkənin müxtəlif regionlarından 25-dək yeniyetmə qızın qatıldığı düşərgənin keçirilməsində məqsəd qızlarda təcrübəyə əsaslanan öyrənmə, liderlik və açıq hava məşğələləri vasitəsilə iqlim dəyişikliyinə qarşı mübarizə mövzusunda həssas yanaşma formalaşdırmaqdan ibarət idi.

Düşərgənin davam etdiyi 3 gün müddətində qızlar "İqlim dəyişikliyi və gender", "Qızların iqlim dayanıqlılığında rolu", "İqlim fəaliyyətlərində liderlik" və digər mövzular üzrə təlimlərdə iştirak etmişlər. Bununla yanaşı, "Forest School" təhsil konsepsiyası çərçivəsində "Yerli ekosistemlərin öyrənilməsi", "Ekoloji fərqlilik" kimi sosial, emosional, fiziki və intellektual istiqamətli müxtəlif sessiya və fəaliyyətlərə qoşulmuşlar. Düşərgədə iştirak edən yeniyetmə qızlar həmçinin ekoloj davamlılığı öz icmalarında necə tətbiq və təşviq edəcəklərini öyrənərək bu istiqamətdə qrup müzakirələri və simulyativ oyunlarda iştirak etmişlər.



Tədbir BMT-nin Əhali Fondunun noyabr ayında Bakıda toplaşacaq COP29 konfransına hazırlıq çərçivəsində həyata keçirilmişdir.

*S.CAVADOV,*
*"Azərbaycan"*





# Mədəniyyət





● Böyük sənətkarlar

## Əsrin dahisi, sənətin fədaisi

### Bu il görkəmli rəssam Səttar Bəhlulzadənin 115 illik yubileyi tamam olur

**Səttar Bəhlulzadə anadan rəssam doğulmuşdu. Onun təxəyyülü, dünyagörüşü, fikri, duyğusu, bir sözlə, bütün həyatı rənglər dünyası ilə bağlı olmuşdur. Hamı onun hüdudsuz sənət eşqi ilə dolu tablolarına tamaşa etməkdən doymur. Tamaşaçının nəzərləri tabloların işıq selinə bələnib rəssamın sirli-sehrli dünyasına yol alır, o ülvi aləmdə rahatlıq tapır, xoşbəxtliyə qovuşur. S.Bəhlulzadə haqqında çox yazılıb, çox deyilib. Amma rəssamın yaratmış olduğu sənət əsərlərinin bədii estetik mahiyyətini, sənətkarlıq xüsusiyyətlərini hələ də axıradək açmaq mümkün olmayıb. Çünki bu, əsl sənətdir, ülvi Səttar dünyasıdır, ilahi eşqin qüdrətilə yaradılmış canlı, əfsanəvi, ecazkar təbiət aləmidir. Tamaşaçı bu əsərlərə baxıb nə görürsə, necə görürsə, özünü necə hiss edirsə, elə odur.**



S.Bəhlulzadə Azərbaycan incəsənət tarixində öz yerini tutmuş fövqəladə yaradıcılıq qabiliyyətinə malik şəxsiyyətlərdəndir. Onun əsərləri özündə milli və bəşəri ənənələrin bütöv şəkildə təcəssüm olunması ilə seçilir. Ötən əsrin ortalarından musiqi sahəsində Vaqif Mustafazadə novator kimi qəbul olunursa, rəngkarlıq sahəsində bu "titulun" daşıyıcısı Səttar Bəhlulzadədir.

S.Bəhlulzadə 15 dekabr 1909-cu ildə Bakının Əmircan kəndində - Abşeron yarımadasında dünyaya göz açıb. Təhsilini Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda almışdı. Müəllimi məşhur rəssam Əzim Əzimzadənin təqdimatı ilə "Kommunist" qəzetində işləmişdi. S.Bəhlulzadə həmçinin Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda məşhur rəssamlar V.Favorski, L.Bruni və Q.Şeqaldan dərs almışdır. Təhsil illəri - qürbət ölkə, ayrı-ayrı millətlərin nümayəndələri ilə ünsiyyət gələcək rəssamın yaradıcılıq yolunun müəyyənləşməsində, həyat təcrübəsinin formalaşmasında müstəsna rol oynamışdı.

İkinci Dünya müharibəsinin başlanması ilə təhsilini yarımçıq qoyub vətənə dönən rəssam müharibə illərində Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Bu dövrdə dünyada çox çətin proseslər baş verirdi. Savaş ölkəni iflic vəziyyətinə salmışdı. Aclıq, səfalət, qorxu Səttargilin də ailəsində ağır vəziyyət yaratmışdı. Ancaq bütün bunlara rəğmən xalqın əzmkarlıq ruhu ölməmişdi. Həyatın bütün sahələrində düşmən üzərində qələbə naminə çox güclü təbliğat aparılırdı. Bu mənada incəsənətin, o cümlədən də rəssamlığın üzərinə böyük yük düşürdü. Beləliklə, S.Bəhlulzadə o zaman bir çox rəssamlar kimi hansısa müasir hərbiçini, dövlət xadimini yox, sırf xalqımızın keçmiş qəhrəmanlıq ənənələrini, tarixi şəxsiyyətlərini təsvir etməklə həm özünün milli köklərə sayğısını, həm də tarixi qəhrəmanlıq obrazları ilə düşmənə qalib gəlmək əzmini aşılayırdı. S.Bəhlulzadə nənin "Babək üsyanı", "Fətəli xan", "Bəzz qalasının müdafiəsi", "Xəttat Mirəli Təbrizi" və sairə əsərlərini belə nümunələrdən saymaq olar.

"Bəzz qalasının müdafiəsi" adlı əsəri kolorit zənginliyi, obrazların gözə çarpıcılığı, kompozisiyanın bitginliyi ilə diqqəti cəlb edir. Təəccüb doğuran və diqqətçəkən məqam bundadır ki, rəssam yaradıcılığının ilk dövrlərində tarixi janra, gerçəkçi üsluba üstünlük verir. Bunu tarixi şəraitin, dövrün hakim qaydalarının təsiri kimi də izah etmək olar. Digər tərəfdən, yaradıcılığa yenicə başlayan rəssamdan o dövr üçün başqa nə isə gözləmək də düzgün olmazdı. Rəssam tarixi janrda yaratdığı əsərlərin ona uğur gətirməyəcəyini, onun yaradıcılıq dünyasının, bədii estetik dünyagörüşünün təzahüründə, bu janrın bədii imkanlarının məhdudluğunu duyur və sadalanan cəhətlərin açıqlanması istiqamətində özünün uğurlu axtarışlarını aparır və sonradan ona dünya şöhrəti qazandıracaq mənzərə janrında ölməz əsərlərini ərsəyə gətirməyə başlayır.

S.Bəhlulzadə bir rəssam kimi özünü mənzərə janrında təsdiq etmiş və bu istiqamətdə ölməz sənət inciləri yaratmışdır. Hələ Orta əsr Avropa incəsənətində bu ciddi janr kimi qəbul olunmurdu. Biz Azərbaycan təsviri sənətində müasir tipli ilk mənzərə nümunələrinə Azərbaycan professional rəssamlıq sənətinin banisi Bəhruz Kəngərlinin yaradıcılığında rast gəlirik. Əslində isə sənət ustasının hansı janrda, hansı üslubda işləməsindən asılı olmayaraq, son nəticədə əsl sənət əsəri yaradacağı təqdirdə tamaşaçı tərəfindən müsbət qarşılanacağı şəksizdir.






S.Bəhlulzadənin yaradıcılığının 1950-ci illərin axırlarınadək olan işləri - "Dənizkənarı bulvar", "Xaçmaz yolunda", "Qudyalçay vadisi", "Qudyalçay sahili", "Qızbənövşəyə gedən yol", "Payız", "Yaşıl xalı", "Bağlararası", "Əmsar bağında", "Yuxarıdaşaltı", "Çiçəklər" və başqa əsərləridir. Bu işlərdə hələ rəssam realistik ifadə vasitələrindən tam olaraq uzaqlaşa bilməyib. Lakin bu işlərin hər biri müstəqil baxılır, diqqəti cəlb edir, insanı düşündürür və sevilir.

S.Bəhlulzadə təbiətin vurğunu, sənətinin "dəlisi", hisslərinin azad ifadəçisi, düşüncələrini rənglərlə ifadə etməyi bacaran rəssam - filosof olmuşdur. Ötən əsrin 50-ci illərindən sonra, yəni 60-cı illərdə artıq S.Bəhlulzadənin axtarışlarla dolu yaradıcılığı yüksələn xətlə inkişaf etmişdir. Bu dövrdə rəssam artıq öz üslubunu, öz dəst-xətini yaratmışdır. Bu dövrdən etibarən rəssamın əsərlərində kompozisiya, kolorit, işıq-kölgə, perspektiva həlli tamamilə onun daxili aləminin, rəssam bədii təxəyyülünün diktəsinə tabe etdirilmişdir. "Xəzər üzərində axşam" (1959), "Xəzər gözəli" (1961), "Torpağın arzusu" (1963), "Kəpəzin göz yaşları" (1965), "Azərbaycan nağılı" (1970), "Corat yemişləri" (1971), "Əfsanəvi torpaq" (1971), "Naxçıvan dağları" (1973), "Naxçıvan" (1974), "Axşamçağı Ordubad dağlarında" (1974) və sairə bunu görmək olar. Böyük sənətkar Azərbaycanı qarış-qarış gəzmişdi. Rəssamın bütün əsərlərinin mövzusunu Azərbaycan təbiəti təşkil edir: meşələr, göllər, dağlar, çaylar, çəmənliklər və Xəzər dənizinin görüntüyə gətirilən guşələri.

S.Bəhlulzadənin əsərlərinin bir qismini isə Azərbaycan təbiətinin yetirdiyi nemətlər təşkil edir. O, Azərbaycan təbiətini təsvir edirdi. Konkret olaraq müşahidə etdiyi, gəzib-gördüyü, təmas zamanı hiss edilən maddi materiyanı bədii biçimdə kətanda əks etdirirdi. Özü də necə, hansı şəkildə?! Təbii ki, rəssam təxəyyülündən süzərək (bədii obrazlar vasitəsilə), özünəməxsus rəng effektləri yaratmaqla (kolorit, işıq-kölgə vasitələri ilə). Bir çoxları rəssamın yaradıcılığından söhbət açarkən nədənsə Azərbaycan təbiətindən, güldən, çiçəkdən və sair elementlərdən danışmağa başlayırlar. Bu, hələ Səttar Bəhlulzadə yaradıcılığının səciyyəvi xüsusiyyətləri demək deyil. Rəssamın 1960-cı illərdən sonra yaratdığı hər hansı bir əsərinə tamaşa etsək, orada real təbiət təsvirinə - materiyaya rast gəlmək mümkünsüzdür. Çünki mövzu hələ mahiyyət demək deyil. Düzdür, rəssam mövzu olaraq Azərbaycan təbiətini seçmişdir, ancaq mahiyyət etibarı ilə rəssamın yaratdığı əsərlər Azərbaycan təbiətinin zahiri mahiyyətindən qat-qat yüksəkdə dayanır. Dünyaca ünlü rəssam Van Qoq bir müddət Fransada - Arlda yaşayıb yaratmışdır. Elə rəssamın yaradıcılığının çiçəklənməsi də bu dövrü əhatə edir. Ancaq buna baxmayaraq, heç zaman Van Qoqu "təbiət, gül-çiçək rəssamı" adlandırmırlar. Ömründə bircə dəfə də olsun Arlda olmayan tamaşaçı çox rahatlıqla rəssamın yaratdığı duyğulandırıcı əsəri seyr edir, onu özünə doğma sayır.

S.Bəhlulzadənin əsərləri bu cür yüksək bədii dəyərə malik olmasaydı, onu dünya səviyyəsində qəbul etməzdilər. Rəssamın UNESCO çərçivəsində 90 illik yubileyinin qeyd edilməsi və əsərlərindən ibarət fərdi sərgisinin təşkil olunması, 2009-cu ilin "Səttar Bəhlulzadə ili" elan edilməsi onunla bağlı ən yüksək dəyərləndirmənin göstəricisidir. Çox təəssüflər olsun ki, vaxtı ilə bəzi obyektiv və subyektiv səbəblərdən Səttar Bəhlulzadə şəxsiyyətinə və onun yaradıcılığına düzgün qiymət verilməyib.

Böyük sənətkarın yaradıcılığı onun əsərlərinin ozamankı şöhrətinə, populyarlığına və müasirliyinə layiq şəkildə geniş tamaşaçı auditoriyalarına çatdırılmayıb və sərgi salonlarında nümayiş olunmayıb. Nə yaxşı ki bütün bunlara baxmayaraq sözün əsl mənasında rəssam heç zaman ruhdan düşməmiş, gərgin yaradıcılıq axtarışlarından uzaqlaşmamış, yaradıcılıq ideallarını süni maneələrə və ucuz şöhrət naminə qurban verməmiş və əsərlərinin əhvali-ruhiyyəsində tamaşaçısına bunu hiss etdirməmişdi. Lakin Ümummilli Lider Heydər Əliyevin şəxsi təşəbbüsü və göstərişi ilə S.Bəhlulzadə yaradıcılığı diqqət mərkəzində saxlanılmış və bunun nəticəsi olaraq rəssama Dövlət mükafatı verilmişdi. Ümummilli Lider bu barədə 1994-cü ildə S.Bəhlulzadənin 85 illik yubiley gecəsindəki çıxışı zamanı deyib: "Mən onu yaxşı tanıyırdım. 60-cı illərin əvvəllərində Səttar Bəhlulzadə ilə şəxsi münasibətim var idi və mən Azərbaycana rəhbərlik edərkən onun sənətini sevdiyimə və bir insan kimi ona hörmət etdiyimə görə bu böyük rəssamla təmaslarım olmuşdur. O, qeyri-adi bir insan idi..." Müstəqillik illərində Ümummilli Lider Heydər Əliyev və onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev sənətkarın həyat və fəaliyyətinin təbliği məqsədilə bir neçə sərəncam imzalayıblar.

Həm Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamından həm də UNESCO-nun qərarından sonra S.Bəhlulzadə yaradıcılığının təbliği istiqamətində sözün əsl mənasında, təqdirəlayiq addımlar atılmışdır. Bütün bu sadalananlar, əslində, indiki nəslin onun xatirəsi və sənətkarlığı qarşısında hesabatı kimi də qiymətləndirilə bilər. Yubileylə bağlı keçirilən ən müxtəlif tədbirlər-sənətkar haqqında çəkilən film, təşkil olunan elmi konfranslar, sərgilər və çap olunan kitab həm də bütün mənəvi irsimizin ən layiqli daşıyıcılarından biri olan Səttar Bəhlulzadə adlı sənət zirvəsinə ehtiramımızın ifadəsidir. Hələ sağlığında Səttar Bəhlulzadə bu haqqa layiq olub. Bənzərsiz sənəti ilə xalqına başucalığı, özünə isə ölməzlik qazanıb...

*Əsəd QULİYEV,*
*sənətşünas,*
*Rəssamlar İttifaqının üzvü*

● Tikdim ki, izim qala

## Şəkidə Dadanovların mülkü

### Bura ənənəvi memarlığın gözəl nümunəsi olmaqla yanaşı, bölgə turizminə də mühüm töhfələr verir

**Şəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində yerləşən və dövlət tərəfindən qeydiyyata alınmış yaşayış evlərinin əksəriyyəti şəhərin tanınmış ailələrinə və sənayeləşmə dövrünün sahibkarlarına məxsus olub.**



XIX əsrin sonu XX əsrin əvvəllərində Dadanovlar ailəsi Şəkidə tütün istehsalı və ticarəti ilə məşğul idilər. Həsən Dadanovun oğullarından biri Məşədi Xəlil Dadanov Şəkinin xeyriyyəçi sahibkarlarından Məmməd Sadıq Əliyevin qızı Tükəzban xanımla ailə qurduqdan sonra ticarət əlaqələrini daha da genişləndirmişdi. Bölgənin bir çox imkanlı ailələri kimi Dadanovlar da əldə etdikləri gəlirlə məhz bu tarixi şəhərə sərmayə qoymuş, yan-yana beş bina - yaşayış evləri, ticarət kontoru və sairə inşa etmişlər. Dadanovlara məxsus beş ayrıca tikili Şəkinin M.F.Axundzadə prospektində karvansaralardan qala divarlarına doğru qalxan yolda öz memarlıq quruluşu ilə diqqəti çəkir. Ənənəvi Şəki memarlığına uyğun inşa olunmuş, "Dadanovların evi" kimi tanınan mülkdə hər binanın özünəməxsus görkəmi ümumi kompleksin zənginliyinə mühüm təsir göstərir, xüsusi bir ahəng yaradır.

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi Şəki "Yuxarı Baş" Milli Tarix Memarlıq Qoruğunun əməkdaşları Zəminə Rəsulova və Sehran Məmmədovla söhbətimizdə bildirdilər ki, XIX əsrdə sənayeləşmə və iqtisadi inkişaf Şəkinin memarlığında da yüksəlişə səbəb olmuş, nəticədə ənənəvi memarlıq ünsürlərini özündə qorumaqla dövrün yeniliklərindən təsirlənmiş iki, bəzən üçmərtəbəli yeni tipli binalar meydana gəlmişdir. Nisbətən qiymətli sayılan qırmızı bişmiş kərpic memarlıqda inşaat materialı olmaqla yanaşı, dekorativ elementə çevrilmiş, tikililərin fasad hissəsində müxtəlif kompozisiyaların yaradılmasına rəvac vermişdi: "XIX əsrin sonu XX əsrin əvvəllərində Şəkidə şəhərtipli hasarsız, birbaşa küçəyə açılan yaşayış evləri meydana çıxdı. Bunun nəticəsi olaraq artıq binaların yalnızca bir tərəfinə deyil, küçəyə baxan bütün tərəflərinə əsas fasad kimi yanaşılırdı. Şəkidə fasadlar cəmiyyətin estetik zövqünün formalaşmasında mühüm rol oynamış, bir-birindən yaraşıqlı binaların inşasına səbəb olmuşdur. XIX əsrin sonu XX əsrin əvvəllərində Şəkidə tütün istehsalı ilə məşğul olan ailənin yaşayış və ticarət fəaliyyəti üçün ayrıca binalardan təşkil edilmiş mülk təqribən 6500 kvadratmetr ərazidə yerləşir. Binalardan dördü M.F.Axundzadə prospektinin şərq, biri isə qərb tərəfində inşa edilib. XX əsrin əvvəllərində tikilmiş mülkün memarı Rza Qafarovdur".

Hazırda Şəki şəhər İnteqrasiya təlimli internattipli gimnaziya kimi fəaliyyət göstərən mülk ümumilikdə 39 otaqdan ibarətdir. Binalar çaydaşı və kərpiclə inşa olunmuş, damı rənglənmiş qara dəmirlə örtülmüşdür. "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 noyabr 2021-ci il tarixli qərarına əsasən, mülkə aid beş binanın hər biri yerli əhəmiyyətli abidə kimi dövlət tərəfindən qeydiyyata alınmışdır.

S.Məmmədov dedi: "Birnömrəli tikilinin ümumi sahəsi 609 kvadratmetr olub 10 otaqdan ibarətdir. Dövlət tərəfindən qorunur. Binanın ümumi görkəminə Şəki memarlığına xas sütunlu eyvanlar əlavə yaraşıq verir. Hər üç mərtəbədə pəncərə açırımlarının daş və kərpic kombinasiyasından yaradılmış dekorativ elementləri fasadın özünəməxsus görkəmini formalaşdırmışdır. Fasad həllində pəncərə haşiyələri və pəncərələrarası doldurucu elementlər ümumilikdə müəyyən bir kompozisiya yaradır".

Z.Rəsulova isə söhbət zamanı bildirdi: "Mülkə daxil olan 2 nömrəli evin sahəsi 218 kvadratmetrdir, üç otaqdan ibarətdir. Fasad həllində rus memarlığının təsiri hiss olunur. Ümumi sahəsi 763 kvadratmetr olan üçüncü bina üçmərtəbəlidir və on iki otağı var. Binanın fasadının iki tərəfdən küçəyə baxması, üçüncü tərəfinin isə küçədən aydın görünməsi səbəbilə kompozisiyasına xüsusi diqqət yetirilmişdir. Mülkə aid dördüncü binadan vaxtilə tütün-maxorka fabriki kimi istifadə olunub. Digər binalarla oxşar fasad elementləri və eyvanı var. Beşinci bina isə mülkün ən sadə binasıdır. Buna baxmayaraq, onun da pəncərə aşırımlarında Şəki memarlığına məxsus ünsürlərə yer verilib".

Sehran müəllim vurğulayır ki, zamanla aparılan bərpa işləri tarixi binaların görkəminə ciddi zərər verməmiş, ümumi fasad kompozisiyası günümüzə qədər qorunub saxlanılmışdır. Aparılan araşdırmalar zamanı müəyyən olunub ki, tarix boyu osmanlı, Qacar, rus memarlığının təsirinə məruz qalan Şəki öz ənənəvi xalq memarlığını formalaşdıra bilib və müəyyən bir üslub yaradılıb. Maddi-mədəni irsimizin bir parçası olan bu mülkün mühafizəsi və gələcək nəsillərə ötürülməsi olduqca vacibdir. Dadanovlar mülkünün qorunub saxlanılması Şəkinin dayanıqlı turizm potensialına töhfə olmaqla yanaşı, ənənəvi memarlığın da yaşadılması deməkdir.

***Qurban MƏMMƏDOV,***
***"Azərbaycan"***

## "Qadınım" tamaşası nümayiş olunacaq



Azərbaycan Dövlət Akademik Musiqili Teatrının yaradıcı kollektivi dekabrın 16-da Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında çıxış edəcək.

Teatrdan bildirilib ki, qastrol səfəri zamanı türk dünyasının tanınmış yazıçı-dramaturqu Tuncər Cücənoğlunun "Matryoşka" pyesi əsasında hazırlanan "Qadınım" tamaşası nümayiş olunacaq. Səhnə əsərində Əməkdar artist Nigar Şahmuradova, gənc aktyorlar Əmrah Dadaşov və Gültac Əlili, teatrın xor və balet heyəti iştirak edəcəklər.

Tamaşanın quruluşçu rejissoru İradə Gözəlova, rəssamı Vüsal Rəhim, xormeysteri Məlahət Qasımova, musiqi tərtibatçısı Əmrah Dadaşovdur.

## Caz Festivalı Munir Hossnun konserti ilə açılıb

**Yenilənmiş "Jolly Joker" məkanında "XIX Baku Jazz Festival"nın açılışı olub. Festival görkəmli braziliyalı basçı Munir Hossnun konserti ilə başlayıb.**




Açılışa çoxsaylı mədəniyyət xadimləri və caz həvəskarları toplaşıblar. Gecəni caz proqramları və festivallarının tanınmış aparıcısı Tofiq Həsənsoy açıb. Daha sonra festivalın təşkilatçısı və bədii rəhbəri Rain Sultanov və Braziliyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Manuel Monteneqro çıxış ediblər.

Səhnəyə çıxan Munir Hossn Azərbaycanda olmaqdan və caz festivalında iştirak etməkdən şad olduğunu bildirib. Sənətçi dəvətə və səmimi qəbula görə təşkilatçılara təşəkkür edib. Braziliyalı basçı ilə birlikdə ELAS qadın qrupu çıxış edib: Mayte Gonzales (piano), Mariana Pilatos (fleyta), Yissi Qarsiya (zərb alətləri), Mişel Velkons (zərb alətləri). Konsert başa çatdıqdan sonra braziliyalı sənətçi azərbaycanlı musiqiçilərlə birlikdə cem-sessiya təşkil edib.

# Dünyada 1,1 milyard insan yoxsulluq içində yaşayır

## Müharibə şəraitində olan ölkələr yoxsulluğun bütün aspektləri üzrə ən yüksək göstəricilərə malikdirlər

Dünyada 1,1 milyard insan həddindən artıq yoxsulluq şəraitində yaşayır. Onların demək olar ki, yarısı - 455 milyon nəfəri münaqişələrin olduğu və ya qeyri-sabitliyin hökm sürdüyü ölkələrdədir. Bu barədə BMT-nin 17 oktyabr - Yoxsulluğun Aradan Qaldırılması Beynəlxalq Günü ilə bağlı dərc edilmiş hesabatında məlumat verilir.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) və Oksford Universiteti 6,3 milyard insanın yaşadığı 112 ölkə ilə bağlı son on illik statistikanı təhlil edib və 20 ölkədə əlavə sorğu keçirib. İşin nəticələrinə əsasən çoxölçülü və ya ifrat yoxsulluğun qlobal indeksi üzrə yenilənmiş hesabat hazırlanıb.

Eyni zamanda hesabatın müəllifləri münaqişələrin təsirinə məruz qalan ölkələrdə məlumatların toplanmasının problemli olduğunu vurğulayıblar. Mövcud sübutlar yoxsulluğun və münaqişənin bir-biri ilə əlaqəli olduğunu göstərir.

Məsələn, müharibə şəraitində olan ölkələrdə orta hesabla əhalinin 34,8 faizi yoxsulluq şəraitində yaşadığı halda, münaqişələrin olmadığı ölkələrdə əhalinin yalnız 10,9 faizi yoxsuldur. UNDP-nin rəhbəri Axim Ştayner bildirib ki, son illərdə münaqişələr intensivləşib və bu, milyonlarla insanı evlərindən didərgin salıb, həyatlarını məhvə sürükləyib, onları dolanışıqdan məhrum edib.

Müharibə şəraitində olan ölkələr çoxölçülü yoxsulluğun bütün aspektləri arasında ən yüksək göstəricilərə malikdirlər və bu, münaqişənin həssas təbəqəyə dağıdıcı təsirini göstərir. Məsələn, münaqişədən təsirlənən ölkələrdə yoxsulların 25 faizindən çoxu elektrik enerjisindən məhrumdur, daha sabit regionlarda isə bu göstərici 5 faizdir. Oxşar fərqlər uşaq ölümü, qidalanmaya çıxış və uşaqların təhsili kimi sahələrdə də müşahidə olunur.

Münaqişədən ən çox təsirlənən ölkələrdə yoxsulluğun azaldılması da ləng gedir. Hesabatda xüsusilə Əfqanıstanın təlatümlü dövründə yoxsulların sayının 2015-2023-cü illər arasında 5,3 milyon artdığı qeyd olunur.

Açıqlanan məlumatlara görə, yoxsulların yarıdan çoxu 18 yaşınadək uşaqlardır. Qlobal miqyasda uşaqların 27,9 faizi, böyüklərin isə 13,5 faizi yoxsulluq içində yaşayır.

Eyni zamanda 828 milyon yoxsul insanın lazımi sanitar şəraiti, 886 milyon insanın isə mənzil şəraiti yoxdur.

BMT-nin məlumatına görə, 76 ölkə isə ən azı bir müddət ərzində yoxsulluğu azalda bilib. Yalnız doqquz ölkədə (Benin, Kamboca, Komor adaları, Esvatini Krallığı, Keniya, Mozambik, Filippin, Tanzaniya və Trinidad və Tobaqo) yoxsulluğun əhəmiyyətli dərəcədə azalması müşahidə edilmişdir.

Çoxölçülü yoxsulluq təkcə vəsait çatışmazlığına deyil, həm də müəyyən xidmətlərə çıxışın olmamasına aiddir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Müstəqilliyin Bərpası Gününə həsr olunmuş tədbir keçirilib

Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 18 Oktyabr - Müstəqilliyin Bərpası Gününə həsr olunmuş tədbir keçirilib. Tədbir institut tələbələrinin iştirakı ilə baş tutub.



İlahiyyat fakültəsinin dekanı, tədbirin moderatoru, dosent Elnurə Əzizova 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib. Bildirib ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir və ölkə vətəndaşları üçün əlamətdar gündür. E.Əzizova bu səpkili seminar və tədbirlərə tələbələrin fəal surətdə qatılmasını tövsiyə edib, belə tədbirlərin onların şəxsiyyət kimi formalaşmasında oynayacağı mühüm rolu diqqətə çəkib.

Dekan qeyd edib ki, Ulu Öndərin layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin apardığı uğurlu, məqsədyönlü daxili və xarici siyasət dövlətimizin daha da güclənməsinə, Azərbaycanın regionun liderinə çevrilməsinə gətirib çıxarıb.

İlahiyyat fakültəsi İslamşünaslıq kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru, dosent Rəşad Mustafa çıxış edərək tarixboyu dünyada öz dövlətini, onun müstəqilliyini qoruyan xalqlardan nümunələr gətirib, onların hansı çətinliklərlə üzləşdiyini diqqətə çatdırıb.

R.Mustafa Azərbaycanın müstəqillik tarixinə nəzər salıb. Cümhuriyyət dövrünü, bu mərhələdə aparılan mübarizələri, ortaya çıxan problemləri xatırladıb. İstər sovet dövrü, istərsə də müstəqilliyimiz bərpa olunandan sonrakı vaxtda dövlət-din münasibətlərinə diqqət çəkib. Məruzəçi dövlət müstəqilliyimizin əhəmiyyətindən, Azərbaycanın siyasi, iqtisadi, mədəni sahələrdə qazandığı nailiyyətlərdən geniş bəhs edib. Ölkəmizin suverenlik qazandığı yeni bir dönəmin başlanğıcına - 44 günlük Vətən müharibəsinə diqqət çəkərək, savaşdan sonrakı dövrdə Qarabağın dirçəliş tarixinə də nəzər yetirib.

Tədbir müzakirələrlə davam edib.

*"Azərbaycan"*

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi
## AZ-MLSPP-428950-GO-RFB
## Müqavilə barədə bildiriş

**Quba Peşə Hazırlığı Mərkəzi (PHM) üçün ağır yük vasitələrinin istifadəsi təlim simulyatorunun satın alınması**

**Satınalan təşkilat:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**Layihə:** Məşğulluğa Dəstək Layihəsi
**Müqavilənin adı:** Məşğulluğa Dəstək Layihəsi çərçivəsində Quba Peşə Hazırlığı Mərkəzi (PHM) üçün ağır yük vasitələrinin istifadəsi təlim simulyatorunun satın alınması
**Ölkə:** Azərbaycan
**Kredit № / Qrant №:** № AZ-9044
**RFQ №:** AZ-MLSPP-428950-GO-RFB

Hazırkı bildiriş Məşğulluğa Dəstək Layihəsi çərçivəsində Quba Peşə Hazırlığı Mərkəzi (PHM) üçün ağır yük vasitələrinin istifadəsi təlim simulyatorunun satın alınması ilə bağlı keçirilmiş açıq tender prosesini, qiymətləndirmə nəticələrini və müqavilənin təltif edilməsi məlumatlarını əks etdirir.

Satınalan təşkilat 15 iyun 2024-cü il tarixində "Azərbaycan" qəzetində və 17 iyun 2024-cü il tarixində UN Development Business htpp://devbusiness.un.org portalında Təkliflər üçün Sorğu elanı vasitəsilə uyğun iddiaçıları möhürlənmiş tender təkliflərinə dəvət etmişdir. Aşağıdakı iddiaçılar tender sənədlərini əldə etmişlər:

- "Prosper" MMC (Azərbaycan)
- "Simodar Training Solutions SL" (İspaniya)
- "Excellent Trade" QSC (Azərbaycan)
- "Simplex" QSC (Azərbaycan)
- "ST Mark" QSC (Azərbaycan)
- "AzNest" QSC (Azərbaycan)
- "Caspian Pro" MMC (Azərbaycan)

Tender təkliflərinin təqdim edilməsi üçün müəyyən edilmiş son tarix ilkin olaraq 18 iyul 2024-cü il idi və 24 iyul 2024-cü il tarixinədək uzadılmışdır. Aşağıdakı üç şirkət öz təkliflərini son tarixə, yəni 24 iyul 2024-cü il yerli vaxtla saat 15:00-a qədər təqdim etmişdir:

| No. | İddiaçı | Elan olunmuş təklif dəyəri | Qiymətləndirilmiş təklif dəyəri |
|---|---|---|---|
| 1 | "Simodar Training Solutions SL" (İspaniya) | 279,972 Avro | 531,364.96 AZN |
| 2 | "AzNest" QSC (Azerbaijan) | 210,700 ABŞ dolları | 422,664.2 AZN |
| 3 | "Simplex" QSC (Azerbaijan) | 679,304.53 ABŞ dolları | 1,154,817.7 AZN |

Tender komissiyası yekun qiymət təkliflərini qiymətləndirmiş və hər aktiv paketi üzrə ən aşağı qiymət təklifi təqdim etmiş təchizatçı ilə müqavilənin imzalanmasını tövsiyə etmişdir. Uğursuz iddiaçılara tenderin nəticələri haqqında bildirişlər 09 sentyabr 2024-cü il tarixində göndərilmişdir. Gözləmə müddəti 09-20 sentyabr 2024-cü il tarixləri arasında tətbiq edilmişdir. Bu vaxt ərzində Layihə İcra Qrupuna heç bir şikayət/aydınlaşdırma sorğusu daxil olmamışdır. Gözləmə müddəti bitdikdən sonra qalib gələn iddiaçıya müqavilə imzalanması barədə bildiriş göndərilmişdir. Keçirilmiş müsabiqə nəticəsində 15 oktyabr 2024-cü ildə aşağıdakı müqavilə imzalanmışdır:

"Az Nest" QSC - *Cəmi dəyəri ƏDV daxil - 248,626.00 ABŞ dolları (iki yüz qırx səkkiz min altı yüz iyirmi altı ABŞ dolları).*

## Ministry of Labor and Social Protection of Population / Employment Support Project
## AZ-MLSPP-428950-GO-RFB
## AWARD NOTICE

**Procurement of heavy-duty vehicle operation training simulator for Guba Vocational Training Center**

**Purchaser:** Ministry of Labor and Social Protection of Population
**Project:** Employment Support Project
**Contract title:** Procurement of heavy-duty vehicle operation training simulator for Guba Vocational Training Center
**Country:** Azerbaijan
**Loan No. /Credit No. / Grant No.:** No. AZ-9044
**RFQ No:** AZ-MLSPP-428950-GO-RFB

This notice includes the results of the bid evaluation and contract award for the RFB process for the Procurement of heavy-duty vehicle operation training simulator for Guba Vocational Training Center.

The Procuring Agency has invited sealed Bids from eligible Bidders through the announcement for Request for Bids in national newspaper "Azerbaijan" on June 15, 2024 and in UN Development Business at htpp://devbusiness.un.org on June 17, 2024. The following applicants obtained the bidding documents:

- "Prosper" LLC (Azerbaijan)
- "Simodar Training Solutions" (Spain)
- "Excellent Trade" CJSC (Azerbaijan)
- "Simplex" CJSC
- "ST Mark" CJSC (Azerbaijan)
- "AzNest" CJSC (Azerbaijan)
- "Caspian Pro" LLC (Azerbaijan)

The deadline specified for submission of bids initially was July 18, 2024 and extended up to July 24, 2024. The following three companies submitted their bids by the deadline, July 24, 2024, 15:00 (local time)

| No. | Name of Bidder | Bid Price as Read Out | Evaluated Bid Price |
|---|---|---|---|
| 1 | "Simodar Training Solutions SL" (Spain) | 279,972 EURO | 531,364.96 AZN |
| 2 | "AzNest" CJSC (Azerbaijan) | 210,700 USD | 422,664.2 AZN |
| 3 | "Simplex" CJSC (Azerbaijan) | 679,304.53 USD | 1,154,817.7 AZN |

The Tender Committee evaluated the final prices and recommended the contract to be signed. The notification of tender results was issued to the unsuccessful Bidders on September 09, 2024. The standstill period was applied from September 09 to September 20, 2024. No complains/clarification requests were received. After expiry of standstill period the Letter of award to successful bidder was issued. The following contract was signed on October 15, 2024:

"Az Nest" CJSC - Total cost including VAT - *USD 248,626.00 (two hundred forty eighty thousand six hundred twenty-six United States dollars).*

# Revmatizm sinoptikliyi

## Ayaq ağrıları, əzələ spazması, oynaq zədələnməsi

Revmatizm iltihab və ağrılarla xarakterizə olunan oynaq xəstəliyidir. Bu xəstəliklə mübarizə aparan insanlar hava şəraitindəki ani dəyişikliklərə daha həssas olurlar. Xüsusilə hava təzyiqinin azalması və rütubətin artması orqanizmdə oynaq bölgələrindəki sinir uclarına təsir edərək ağrı və narahatlıq hissini artırır. Bu da bəzi insanların yağışın yaxınlaşdığını hiss etməsinə səbəb olur.

Çin alimlərinin apardığı tədqiqata görə, revmatizmli fərdlərdə yağışın yağacağı hissi təkcə fiziki deyil, həm də psixoloji bir hadisədir. Hətta yağışın yaxınlaşdığını başa düşmək çox vaxt revmatizm xəstəliyi olan insanlar üçün intuisiyaya, "altıncı hiss"ə çevrilir. Ən önəmlisi isə daimi ağrıdan əziyyət çəkən insanlar orqanizmlərinin göndərdiyi siqnallara qarşı daha həssas olurlar.

### Təzyiqlə bağlı ağrıların olması revmatizm demək deyil

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən həkim-revmatoloq Ləman Babayevanın sözlərinə görə, revmatizm xəstəliyinin hər hansı bir fəsillə birbaşa əlaqəsi yoxdur. Sadəcə, soyuq havalarda müşahidə olunan sümük və əzələ ağrılarının səbəbi təzyiqlə əlaqədardır. Belə ki, təzyiqimiz soyuq havalarda aşağı, quru və isti havalarda isə yüksək olur. Bu da yalnız revmatizmdən əziyyət çəkən xəstələrdə deyil, sağlam insanlarda da müşahidə edilir. Bəzən xəstələrin həkimə müraciət etməsinin səbəblərindən biri də məhz hava şəraitinin dəyişməsi nəticəsində oynaqlarda və ətraflarda olan ağrılardır ki, düzgün müayinə nəticəsində çox zaman revmatoloji patologiya aşkarlanmır. Bu hal həmin şəxslərin sadəcə meteohəssaslığı ilə, yəni təzyiqlər fərqinə bağlı ağrının olması ilə izah edilir.

"Hazırda revmatizma adı altında 200-dən çox revmatik xəstəliklər cəmləşdirilir. Bu qrup xəstəliklərin yaranma səbəbi elmə tam məlum olmasa da, revmatizmin yaranmasında bir neçə amilin təsiri var. Bunlara stres, iqlim şəraiti, genetika, qidalanma, yuxu rejimi kimi amillər daxildir. Revmatik xəstəliklər orqan və sistemlərə təsir edərək müxtəlif əlamətlərin, hətta əlilliyə gətirib çıxara biləcək zədələnmələrin yaranmasına səbəb ola bilər. Xəstəliyin əsas əlamətləri oynaqlarda ağrı, şişkinlik, oynaq quruluşunda dəyişikliklər, bel ağrıları, gözdə quruluq, qızartı, hətta görmə qabiliyyətinin pozulması, müxtəlif tip dəri səpgiləri, təngnəfəslik, uzun müddət davam edən qızdırmanın və ishalın olmasıdır", - deyə həkim-revmatoloq qeyd edib.

### Xəstəliyin tam müalicəsi yoxdur

Revmatizm xəstəliyinə müxtəlif yaş qruplarında rast gəlindiyini söyləyən Ləman Babayeva bildirib ki, düzgün diaqnozun qoyulması həyati təhlükələrin öncədən qarşısının alınmasında böyük önəm daşıyır: "Simptomlarını nəzərə alaraq çox insan elə düşünür ki, revmatizm daha çox yaşlı xəstəliyidir. Bu fikir tamamilə yanlışdır. Ona hər yaş qrupunda rast gəlinir. Məsələn, Yuvenil İdiopatik Artrit uşaqlıq yaşlarında etiologiyası bilinməyən ən çox yayılmış xroniki revmatizmal xəstəlikdir. O, uşaqlarda 3-4 yaşından etibarən müşahidə edilir. Düzgün müalicə aparılmadıqda oynaqları zədələyərək hətta əlilliyə qədər gətirib çıxara bilər. 7-17 yaş aralığında kəskin revmatik qızdırma xəstəliyi də yarana bilər ki, bu daha çox beta-hemolitik streptokok infeksiyasından sonra əmələ gəlir. Bu zaman nəinki oynaq ağrılarına səbəb olur, hətta ürək, böyrək problemləri yaradır, ürək-qapaq çatışmazlığına da gətirib çıxarır. Xəstəlik zamanı yaranan oynaq zədələnməsi isə qalıcı oynaq iltihabına səbəb ola bilər".

Həkim-revmatoloq qeyd edib ki, revmatizmin çox yayılmış növlərindən olan spondiloartritə gənclərdə, daha çox 30 yaşına qədər olan kişilərdə rast gəlinir. Səhər yuxudan oyananda boyun, çiyin və bel nahiyəsində hiss edilən ağrılar daha çox olduğu halda, gün ərzində və hərəkət zamanı azalır. Başlanğıcda yüngül olan bu ağrılar zaman keçdikcə artır. Şəkərli diabet, hipertoniya kimi xroniki hesab edilən revmatizmal xəstəliklərin müalicəsi uzun müddət davam edir. Müalicə həkim nəzarəti altında davam etməli, mütəxəssis icazəsi olmadan dərmanların qəbul edilməsi dayandırılmamalıdır. Əks halda bu, xəstəlik əlamətlərinin daha da şiddətlənməsinə səbəb ola bilər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın Veteranlar Şurasının üzvü

**TAĞI ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov və AHİK-in kollektivi

**TAĞI ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Nizami Rayon Məhkəməsinin kollektivi məhkəmənin hakimi Rauf Əhmədova atası

**TAĞI ƏHMƏDOVUN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Firdovsi Xəlilova bacısı

**SEHRANƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sədrəddin Atakişizadə, Eldar Əliyev, Gülalı Eminəliyev, Lazım və Rafiq Hüseynovlar, Məcid Miriyev, Fuad Bəşirov, Hidayət İsmayılov və Sərməst Adıgözəlov Azərbaycan Respublikası Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdir müavini Firdovsi Xəlilova bacısı

**SEHRANƏ ƏLƏSGƏR QIZI XƏLİLOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Abşeron Rayon Vəkil Bürosunun kollektivi büronun vəkili Elnur Quliyevə qardaşı

**ƏDALƏT MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4169
Sifariş 2368

Qiyməti 60 qəpik